Xalqın qəzeti!

# Xalq qəzeti

№ 100 (31069) 10 iyun 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Regional inkişaf proqramları Azərbaycan kəndini davamlı yüksəliş yoluna çıxarıb



**2004-cü ilin əvvəlində qəbul edilmiş regional inkişafa dair birinci beşillik proqram bir çox məsələlərin həll edilməsinə kömək göstərdi və biz gördük ki, bu proqramın davamı olmalıdır. Ondan sonra bir neçə beşillik regional inkişaf proqramı qəbul edildi.**

**Bunun nəticəsində bütün regionlar canlandı, məşğulluq artdı və böyük infrastruktur layihələri icra edildi. Bu gün bu layihələr olmadan Azərbaycanın ümumi inkişafını təsəvvür etmək mümkün deyil. Kəndin inkişafı üçün bu infrastruktur layihələri həlledici rol oynadı.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sloveniya Respublikasının xalqı adından və öz adımdan Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ölkələrimiz arasındakı davamlı konstruktiv əməkdaşlıq və dostluq münasibətlərindən çox məmnunam. Əminəm ki, qarşılıqlı maraq doğuran bütün istiqamətlərdə ikitərəfli əlaqələrimizi dərinləşdirəcək və bir çox sahələrdə əməkdaşlığı daha da inkişaf etdirəcəyik.

Həm Sloveniya, həm də Azərbaycan beynəlxalq sabitliyə və davamlı inkişafa sadiq qaldığı üçün inanıram ki, Avropa və beynəlxalq birlik çərçivəsində əməkdaşlığımız daha da genişlənəcək və möhkəmlənəcək.

Cənubi Qafqaz regionunda sülhün, sabitliyin və yaxşı münasibətlərin qurulması istiqamətində davam edən səylərinizi yüksək qiymətləndirirəm və Sizə uğurlar arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Nataşa Pirts MUSAR,***
***Sloveniya Respublikasının Prezidenti***

## Dünyada artan hərbi-siyasi gərginlik və Azərbaycan vətəndaşlarının təhlükəsizliyi



Səhifə ➪ 3

## Türk dünyasının ortaq təhsil hədəfləri



Səhifə ➪ 4

## Qlobal "Bakı Enerji Həftəsi 2026": Enerji və geoiqtisadi güc qovşağı




Səhifə ➪ 7

## Uşaqlar sosial şəbəkə torunun hədəfində

Səhifə ➪ 10

## Zaxarovanın "böhran" həyəcanı və Paşinyanın "Pirr qələbəsi"

*Ermənistanla bağlı niyə arxayınlaşmaq olmaz?*



**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Ermənistanda iyunun 7-də keçirilmiş parlament seçkilərini qiymətləndirib. Daha doğrusu, seçkiyə ölkəsinin mövqeyini bildirib. Bəri başdan deyək ki, Zaxarovanın söylədikləri heç bir diplomatik etiketə sığmır. Çünki o, prosesə, sanki, erməni müxalifətinin təmsilçisi qiyafəsində yanaşır. Seçkilərdə qanun pozuntularına yol verildi, administrativ təzyiqlər və repressiyalar oldu və sair. Bütün bunlar hay əks-cinahının ritorikasıdır. Elə Zaxarovanın da. Ancaq məqsədimiz nə onun müxalifətçiliyindən söz açmaqdır, nə də rəsmi şəxsə yaraşmayan üslubundan. Diqqətə çatdırmaq istədiyimiz mətləb başqadır və bu məsələnin həm Rusiya, həm Qərb, həm də hazırkı erməni iqtidarı ilə əlaqə payı var.**

*(ardı 5-ci səhifədə)*

## Şengen qapısında siyasi imtahan

*Avropada rusiyalılara viza verilməsinə münasibət birmənalı deyil*




**Son dövrlər Rusiya vətəndaşlarına verilən Şengen vizalarının sayında kəskin artım müşahidə olunur və bu, Avropa İttifaqı (Aİ) daxilində siyasi müzakirələri yenidən kəskinləşdirib. Bu proses bir tərəfdən humanitar, iqtisadi və hüquqi baxımdan sərbəst hərəkət prinsipləri ilə izah olunsa da, digər tərəfdən təhlükəsizlik, geosiyasi təzyiq və Ukrayna müharibəsi fonunda siyasi narahatlıqları artırır. Avropa Parlamentinin bəzi deputatları mövcud tendensiyanın Aİ-nin ümumi siyasi xətti ilə ziddiyyət təşkil edən amil kimi qiymətləndirir, əlavə məhdudiyyətlərin tətbiqini gündəmə gətirirlər.**

*(ardı 5-ci səhifədə)*

## "Afrika dəhlizi" türk dövlətlərinə nələr vəd edir?




Səhifə ➪ 3

## Rəqəmsal keçid və gələcək nəsil



Səhifə ➪ 4

## "Vassalların üsyanı"



Səhifə ➪ 5

# Sahibkarlıq subyektlərinə verilən kreditlər üzrə təminat və faiz subsidiyası mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bir sıra fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında sahibkarlıq subyektlərinə verilən kreditlər üzrə təminat və faiz subsidiyası mexanizmlərinin vahid əsaslarla səmərəli tətbiqi sahəsində institusional tənzimləmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra – Fond) sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi və həmin kreditlərə hesablanmış faizlərə subsidiya verilməsi ilə bağlı səlahiyyətləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyətinə (bundan sonra – Cəmiyyət) həvalə edilsin.

**2.** Bu Fərman qüvvəyə mindiyi tarixədək Fondun sahibkarların manatla aldıqları kreditlərə verilmiş təminat və həmin kreditlərə hesablanmış faiz subsidiyaları üzrə hüquqlarının həyata keçirilməsinin və öhdəliklərinin icrasının tam başa çatdırılması, mövcud normativ hüquqi aktlara uyğun olaraq, Fond tərəfindən təmin edilsin.

**3** Müəyyən edilsin ki:

3.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş təminat və faiz subsidiyası mexanizmləri ilkin mərhələdə pilot layihə kimi 2030-cu il dekabrın 31-dək, Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla, Azərbaycan Respublikasının digər ərazilərində tətbiq edilir;

3.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş təminat və faiz subsidiyası mexanizmləri çərçivəsində müvəkkil təşkilatlar tərəfindən sahibkarlıq subyektlərinə təqdim edilən kreditlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi 13 (on üç) faizdir və təqdim edilən kreditlər üzrə hesablanmış illik faiz dərəcəsinin 50 (əlli) faizi dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılır;

3.3. bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, təminat və faiz subsidiyası mexanizmlərinin tətbiqi "Elektron kredit və zəmanət" informasiya sisteminin fəaliyyəti Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla, Azərbaycan Respublikasının digər ərazilərini əhatə edənədək həm elektron qaydada, həm də sənədlərin kağız formada qəbulu və icrası yolu ilə həyata keçirilir.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. aşağıdakılar barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

4.1.1. altı ay müddətində sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat və həmin kreditlərə hesablanmış faizlərə subsidiya verilməsi mexanizmlərinin tətbiqi təcrübəsi, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası"nın tətbiqi nəticələri nəzərə alınmaqla, həmin mexanizmlərin təkmilləşdirilməsinə dair;

4.1.2. üç ay müddətində, bu Fərmanın 1-ci və 2-ci hissələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı;

4.2. işğaldan azad edilmiş ərazilər istisna olmaqla, bu Fərmanın 3.1-ci bəndi ilə müəyyən edilmiş digər ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə tətbiq olunacaq ümumi kredit portfelinin həcmini və həmin portfel üzrə dövlət zəmanəti ilə təmin ediləcək məbləğin yuxarı həddini bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat və həmin kreditlərə hesablanmış faizlərə subsidiya verilməsi ilə bağlı mexanizmlərin maliyyələşdirilməsi məqsədilə Cəmiyyətin tələb olunan maliyyə vəsaiti ilə təmin edilməsi üçün bir ay müddətində zəruri tədbirlər görsün;

4.4. bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulmuş öhdəliklərin icra vəziyyətinə nəzarəti həyata keçirsin və onların icrası başa çatdıqdan sonra bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn aidiyyəti məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**6.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

6.1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" nəzərə alınmaqla, bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş mexanizmlərin tətbiq ediləcəyi prioritet sahələri bir ay müddətində müəyyən etsin;

6.2. "Elektron kredit və zəmanət" informasiya sisteminin təkmilləşdirilməsi, o cümlədən bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş təminat və faiz subsidiyası mexanizmlərinin həmin sistem üzərindən tam tətbiqinin təmin edilməsi məqsədilə üç ay müddətində zəruri tədbirlər görsün.

**7** "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2030 (Cild I); 2024, № 2, maddə 159; 2025, № 2, maddə 113, № 8, maddə 761) 3 – 6-cı hissələri ləğv edilsin.

**8** "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2328 (Cild I); 2024, № 3, maddə 263, № 10, maddə 1124; 2025, № 4 (I kitab), maddə 333, № 7, maddə 657) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 3.2-ci bənddən "və müvəkkil banklardan manatla aldıqları kreditlərə" və "və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda və qaydada həmin kreditlərə hesablanmış faizlərin bir hissəsinə subsidiya verən" sözləri çıxarılsın;

8.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi" üzrə:

8.2.1. 1.1-ci bənddən "və müvəkkil banklardan manatla aldıqları kreditlərə" və "və həmin kreditlərə hesablanmış faizlərin bir hissəsinə subsidiya verən" sözləri çıxarılsın;

8.2.2. 2-ci hissə üzrə:

8.2.2.1. 2.1-ci bənddən "və müvəkkil banklardan manatla aldıqları kreditlərə" və "və həmin kreditlərə hesablanmış faizlərin bir hissəsinə subsidiya" sözləri çıxarılsın;

8.2.2.2. 2.2.2-ci yarımbənddən "müvəkkil banklardan manatla aldıqları kreditlərə, habelə" sözləri çıxarılsın;

8.2.2.3. 2.2.3-cü yarımbənd ləğv edilsin.

**9.** "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 45 (Cild I); 2026, № 1, maddə 26) aşağıdakı dəyişikliklər edilsin:

9.1. adında və 1-ci hissədə "İşğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.2. 2-ci hissə üzrə:

9.2.1. 2.1-ci bəndə "olaraq" sözündən sonra "işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən" sözləri əlavə edilsin;

9.2.2. 2.2-ci bənddə "İşğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.3. həmin Fərmanla təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası" üzrə:

9.3.1. adında "İşğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.3.2. 1-ci hissədə "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 10 dekabr tarixli 3037 nömrəli Sərəncamının 1.5-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və işğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.3.3. 2-ci hissə üzrə:

9.3.3.1. 2.1.3-cü yarımbənddə "və işğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.3.3.2. 2.1.4-cü yarımbənddə "90 (doxsan)" sözləri "işğaldan azad edilmiş ərazilər üzrə 90 (doxsan) faizədək, digər ərazilər üzrə 50 (əlli)" sözləri ilə əvəz edilsin;

9.3.4. 3-cü hissə üzrə:

9.3.4.1. 3.1-ci bənddən "işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən" sözləri çıxarılsın;

9.3.4.2. 3.3.1-ci yarımbənd ləğv edilsin;

9.3.4.3. 3.3.2-ci yarımbənddə "60 (altmış)" sözləri "30 (otuz)" sözləri ilə əvəz edilsin;

9.3.4.4. 3.6-cı bəndin birinci cümləsində "10 (on) faiz bəndi" sözləri "yarısı" sözü ilə əvəz edilsin və həmin bənddən ikinci cümlə çıxarılsın;

9.3.5. 4-cü hissə üzrə:

9.3.5.1. 4.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.1.1. bir borcalanın bütün müvəkkil təşkilatlar üzrə zəmanət verilən cəmi kreditlərinin məbləği 5 000 000 (beş milyon) manatdan, bir-biri ilə əlaqədar borcalanlar qrupunun bütün müvəkkil təşkilatlar üzrə zəmanət verilən cəmi kreditlərinin məbləği isə 10 000 000 (on milyon) manatdan çox olmamalı;";

9.3.5.2. 4.1.2-ci yarımbənddə "15 (on beş)" sözləri "13 (on üç)" sözləri ilə əvəz edilsin;

9.3.5.3. 4.1.5-ci yarımbənddə "90 (doxsan)" sözləri "işğaldan azad edilmiş ərazilər üzrə 90 (doxsan) faizdən, digər ərazilər üzrə 50 (əlli)" sözləri ilə əvəz edilsin;

9.3.5.4. 4.2-ci bənddə "İşğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.3.6. 7-ci hissə üzrə:

9.3.6.1. 7.2-ci bənddə "1" rəqəmi "1,75" rəqəmləri ilə, "50 faizini" sözləri "yarısını" sözü ilə əvəz edilsin;

9.3.6.2. 7.3-cü bənddə "0,5" rəqəmləri "1 (bir)" sözləri ilə əvəz edilsin;

9.3.7. 8.5-ci bəndin üçüncü cümləsində "birdəfəlik" sözü "bir dəfə" sözləri ilə əvəz edilsin;

9.3.8. 10-cu hissə üzrə:

9.3.8.1. 10.1-ci bəndin birinci cümləsində və 10.2-ci bənddə "20" rəqəmləri "50 (əlli)" sözləri ilə əvəz edilsin;

9.3.8.2. 10.3-cü və 10.7-ci bəndlər ləğv edilsin;

9.3.9. həmin Qaydaya əlavə – "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi barədə Çərçivə Zəmanət Sazişi" üzrə:

9.3.9.1. adında "İşğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.3.9.2. 1.1-ci bənddə hər iki halda "İşğaldan azad edilmiş ərazilərdə" sözləri "Azərbaycan Respublikasında (Bakı şəhəri və Abşeron rayonu istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

9.3.9.3. 2-ci hissə üzrə:

9.3.9.3.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. Bu Sazişin predmetini sahibkarlıq subyektlərinə verilən kredit üzrə əsas borc öhdəliyi yerinə yetirilmədikdə, onların əsas borcunun işğaldan azad edilmiş ərazilər üzrə 90 (doxsan) faizədək, digər ərazilər üzrə 50 (əlli) faizədək hissəsinin ödənilməsinə dair Fonda Zamin tərəfindən bu Sazişin 3.1.3-cü yarımbəndinin tələbləri nəzərə alınmaqla dövlət zəmanətinin verilməsi təşkil edir.";

9.3.9.3.2. 2.2-ci bəndə "üzrə" sözündən sonra "işğaldan azad edilmiş ərazilərdə tətbiq edilən" sözləri əlavə edilsin;

9.3.9.4. 3.1.3-cü yarımbənddən "sahibkarlıq subyektlərinə ayrılacaq zəmanət məbləğinin 0,5 (sıfır tam onda beş) faizi həcmində" sözləri çıxarılsın;

9.3.9.5. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.1. Bu Sazişin 2.1-ci bəndi nəzərə alınmaqla, Zamin Fondun müraciəti əsasında müvəkkil təşkilat tərəfindən sahibkarlıq subyektlərinə ayrılan kredit vəsaiti üzrə öhdəliklərin (əsas borc) yerinə yetirilməsinə dövlət zəmanəti verir.";

9.3.9.6. 6.3-cü bəndin üçüncü cümləsində "birdəfəlik" sözü "bir dəfə" sözləri ilə əvəz edilsin.

**10.** Bu Fərmanın 7-ci hissəsi Fondun bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan mövcud öhdəlikləri tam icra olunduqdan sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 iyun 2026-cı il**

# Qeyri-neft-qaz mallarının ixracının stimullaşdırılması və daşıma xərclərinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Qeyri-neft-qaz sektorunun inkişafı ölkənin iqtisadi dayanıqlılığının gücləndirilməsi, dünyada cərəyan edən mürəkkəb geosiyasi proseslərin, qlobal tədarük zəncirindəki qırılmaların və xarici bazarlardakı qeyri-sabitliyin milli iqtisadiyyata mənfi təsirlərinin minimallaşdırılması, habelə ölkənin strateji iqtisadi suverenliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qeyri-neft-qaz sektorunun strukturunda qeydə alınan müsbət dinamikaya baxmayaraq, yerli malların xarici bazarlara, eləcə də Naxçıvan Muxtar Respublikasında istehsal olunmuş malların Azərbaycan Respublikasının digər ərazilərinə çıxış imkanları hələ də məhduddur.

Qeyri-neft-qaz sektorunun ixrac potensialının tam reallaşdırılmasına, habelə blokada şəraitində olması da nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikasında istehsal edilən malların ölkənin digər ərazilərinə daşınmasına mane olan ən mühüm səbəblərdən biri logistik xərclərin yüksəkliyidir. Xüsusilə, yerli qeyri-neft-qaz mallarının ənənəvi bazarlardan kənar yeni və alternativ xarici bazarlara yönəldilməsi zamanı yaranan yüksək nəqliyyat-daşıma xərcləri ixracatçıların rəqabət imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Logistik zəncirin mürəkkəbliyi və uzaq məsafəli daşımaların malın maya dəyərindəki xüsusi çəkisinin yüksək olması ixracın mallar üzrə və coğrafi şaxələndirilməsinə maneə yaradan amillərdən biridir. Bu isə nəticə etibarilə qeyri-neft-qaz mallarının ümumi ixracdakı payının potensial imkanlardan aşağı qalmasına səbəb olur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında istehsal olunan qeyri-neft-qaz mallarının ixracının stimullaşdırılması və Naxçıvan Muxtar Respublikasında istehsal olunan qeyri-neft-qaz mallarının ölkənin digər ərazilərinə daşınmasının dəstəklənməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarının ixracı zamanı onların daşınması üçün çəkilmiş xərclərə görə həmin malların növündən, gömrük dəyərindən, ixrac edildiyi ölkədən və nəqliyyat növündən asılı olaraq, dövlət büdcəsinin vəsaiti hesabına daşıma dəstəyi məbləği (bundan sonra – ixrac daşıma dəstəyi) ödənilsin.

**2.** Naxçıvan Muxtar Respublikasında istehsal olunan Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarının Azərbaycan Respublikasının digər ərazilərinə quru yolu ilə daşınması üçün çəkilmiş xərclərə görə dövlət büdcəsinin vəsaiti hesabına daşıma dəstəyi məbləği (bundan sonra – daxili daşıma dəstəyi) ödənilsin.

**3** Müəyyən edilsin ki:

3.1. ixrac daşıma dəstəyi məbləği aşağıdakılar əsasında hesablanır:

3.1.1. ixrac olunan malın daşınması üçün çəkilmiş xərclərə görə nağdsız qaydada ödənilmiş məbləğin:

3.1.1.1. daşıma dəmir yolu, hava və dəniz nəqliyyatı vasitələri, habelə Azərbaycan Respublikasında qeydiyyata alınmış avtomobil nəqliyyatı vasitələri ilə həyata keçirildikdə – 70 (yetmiş) faizi;

3.1.1.2. daşıma Azərbaycan Respublikasında qeydiyyata alınmamış avtomobil nəqliyyatı vasitələri ilə həyata keçirildikdə – 50 (əlli) faizi;

3.1.2. istifadə olunan nəqliyyat növündən asılı olaraq, ixrac edilən malın gömrük dəyərinin:

3.1.2.1. daşıma avtomobil, dəmir yolu və hava nəqliyyatı vasitələri ilə həyata keçirildikdə – 15 (on beş) faizi;

3.1.2.2. daşıma dəniz nəqliyyatı vasitələri ilə həyata keçirildikdə – 5 (beş) faizi;

3.2. ixrac daşıma dəstəyinin yekun məbləğini bu Fərmanın 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərinə uyğun olaraq hesablanmış məbləğlərdən ən az olanı təşkil edir;

3.3. daxili daşıma dəstəyinin məbləği Naxçıvan Muxtar Respublikasında istehsal olunan Azərbaycan Respublikası mənşəli qeyri-neft-qaz mallarının Azərbaycan Respublikasının digər ərazilərinə quru yolu ilə daşınması üçün çəkilmiş nəqliyyat xərclərinə görə nağdsız qaydada ödənilmiş məbləğin 70 (yetmiş) faizini təşkil edir;

3.4. ixrac və daxili daşıma dəstəklərinin məbləğləri rüb ərzində həyata keçirilən daşımalara görə müvafiq olaraq ixracatçının və satıcının (malgöndərənin) müraciəti əsasında həmin rüb bitdikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən ödənilir.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 1-ci və 2-ci hissələrində nəzərdə tutulan dəstək növlərinin:

4.1.1. 2026-cı ildə ödənilməsinin maliyyələşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.1.2. 2027–2036-cı illərdə ödənilməsinin maliyyələşdirilməsi üçün zəruri vəsaitin həmin illərin dövlət büdcəsi layihələrində nəzərdə tutulmasını təmin etsin;

4.2. üç ay müddətində aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

4.2.1. ixrac və daxili daşıma dəstəyi məbləğlərinin ödənilməsi zamanı qeyri-neft-qaz mallarının Azərbaycan Respublikası mənşəli olmasının müəyyən edilməsi qaydasını;

4.2.2. ixrac və daxili daşıma dəstəklərinin şamil olunmadığı əməliyyatların və şəxslərin siyahısını;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**5** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. üç ay müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

5.1.1. ixrac daşıma dəstəyinin şamil olunacağı qeyri-neft-qaz mallarının və onların ixrac olunduğu ölkələrin (ölkə qruplarının) siyahısını;

5.1.2. ixrac və daxili daşıma dəstəyi məbləğlərinin ödənilməsi ilə bağlı müraciət edilməsi və həmin müraciətlərə baxılması qaydasını;

5.1.3. müxtəlif nəqliyyat növləri ilə (multimodal) daşımalar zamanı ixrac daşıma dəstəyi məbləğinin hesablanması qaydasını;

5.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**6.** Bu Fərmanın 1 – 3-cü hissələri 2026-cı il sentyabrın 1-dən qüvvəyə minir və 2036-cı il sentyabrın 30-dək həyata keçiriləcək ixrac və daxili daşımalara münasibətdə tətbiq olunmaqla 2036-cı il dekabrın 31-dək qüvvədədir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 iyun 2026-cı il**

# XİN-in beynəlxalq aləmdə artan təhlükələrlə bağlı bəyanatı

**Məlumdur ki, mövcud beynəlxalq təhlükəsizlik mühitində daha da artan gərginlik, müxtəlif regionlarda, o cümlədən Ukraynada və Yaxın Şərqdə davam edən silahlı münaqişələr beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid olaraq qalmaqdadır. Mövzu ilə əlaqədar Azərbaycanın Xarici İşlər Nazirliyi bəyanat yayıb.**

Bəyanatda bildirilib: "Təəssüf ki, belə ərazilərdə olan Azərbaycan vətəndaşlarının silahlı toqquşmalar və hərbi əməliyyatlar nəticəsində həlak olması və ya müxtəlif dərəcəli bədən xəsarətləri alması halları qeydə alınır. Bu cür hadisələr münaqişə zonalarında və onların yaxınlığında yerləşən ərazilərdə təhlükəsizlik risklərinin son dərəcə yüksək olduğunu bir daha nümayiş etdirir və həmin bölgələrə səfər edən və ya fəaliyyət göstərən vətəndaşlarımızın həyat və sağlamlığı üçün ciddi təhlükələr yaradır.

Bu kontekstdə vətəndaşlarımıza xarici ölkələrə səfər etməzdən əvvəl təhlükəsizlik vəziyyətini diqqətlə qiymətləndirmələrinə, rəsmi dövlət qurumlarının xəbərdarlıq və tövsiyələrini nəzərə almalarına, münaqişə və hərbi əməliyyatların aparıldığı ərazilərə səfərlərdən yayınmalarına bir daha çağırış edirik.

Bununla yanaşı, vətəndaşların muzdlu və ya könüllü əsasda xarici dövlətlərin ərazisində silahlı münaqişələrdə və hərbi əməliyyatlarda hər hansı bir formada iştirakının Azərbaycan qanunvericiliyinə uyğun olaraq cinayət məsuliyyəti ehtiva etdiyini bir daha diqqətə çatdırırıq".

***XQ***

# Azərbaycan heyəti MDB antiterror qurumları müşavirəsində

**Moskvada Azərbaycan nümayəndələrinin iştirakı ilə MDB-yə üzv dövlətlərin terrorizmlə mübarizəyə cavabdeh səlahiyyətli orqanlarının bölmə rəhbərlərinin XIX müşavirəsi keçirilib.**

MDB iştirakçısı olan ölkələrin Antiterror Mərkəzinin mətbuat bürosundan bildirilib ki, tədbir terrorizm və ekstremizmə qarşı mübarizə sahəsində dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə həsr olunub.

Müşavirədə Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan və Özbəkistanın səlahiyyətli orqanlarının nümayəndələri, həmçinin MDB orqanlarının işçi strukturlarının, aidiyyəti beynəlxalq və elmi-təhsil təşkilatlarının təmsilçiləri iştirak ediblər.

Plenar iclas zamanı iştirakçılar kollektiv təhlükəsizliyin təmin olunması məqsədilə Birlik ölkələrinin səlahiyyətli orqanlarının səylərinin daha da artırılmasının vacibliyini vurğulayıblar.

İxtisaslaşmış sessiyalar çərçivəsində müasir terror və ekstremizm təhdidlərinə qarşı mübarizə, beynəlxalq əməkdaşlığın inkişafı, informasiya mübadiləsi, eləcə də süni intellekt texnologiyalarının qanunsuz məqsədlərlə istifadəsinin qarşısının alınması məsələləri müzakirə olunub. Görüşün yekununda iştirakçılar terrorizm və ekstremizmə qarşı mübarizə sahəsində əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsində maraqlı olduqlarını təsdiqləyiblər.

***XQ***

# Keçmiş məcburi köçkünlərin müraciətləri dinlənilib

**İyunun 9-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşlarla görüşüb.**

Görüşdə vətəndaşların müraciətləri dinlənilib. Müraciətlər əsasən, işğaldan azad edilmiş ərazilərə qayıdış, köçürülmənin prinsipləri, sorğularda iştirak, məşğulluq, müvəqqəti məskunlaşma yerlərində mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət və digər sosial məsələlərə dair olub. Bildirilib ki, qaldırılan məsələlər müvafiq qaydada araşdırılacaq və qanunvericiliyə uyğun şəkildə həll ediləcək.

Komitə sədri bildirib ki, işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinə uyğun olaraq, ilk növbədə, qəzalı və ağır şəraitdə yaşayan keçmiş məcburi köçkünlər mərhələli şəkildə köçürülür.

***XQ***

# Dünyada artan hərbi-siyasi gərginlik və Azərbaycan vətəndaşlarının təhlükəsizliyi

## *XİN-in xəbərdarlığı haradan qaynaqlanır?*

**Müharibələrin yaratdığı insan itkiləri artıq yalnız döyüşən dövlətlərlə məhdudlaşmır, başqa ölkələrin vətəndaşları da müxtəlif səbəblərdən bu münaqişələrin qurbanına çevrilirlər. Həlak olanlar, yaralananlar və itkin düşənlər arasında Azərbaycan vətəndaşlarının da olması təhlükənin miqyasını və münaqişə zonalarında yaranan risklərin yüksək olduğunu nümayiş etdirir.**

Bu mənada, Xarici İşlər Nazirliyinin dünən yaydığı bəyanat mövcud təhlükəsizlik reallıqları fonunda vətəndaşlara ünvanlanan ciddi xəbərdarlıq kimi qiymətləndirilə bilər. Bəyanatda deyilir: "Məlumdur ki, mövcud beynəlxalq təhlükəsizlik mühitində daha da artan gərginlik, müxtəlif regionlarda, o cümlədən Ukrayna və Yaxın Şərqdə davam edən silahlı münaqişələr beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid olaraq qalmaqdadır. Təəssüf ki, belə ərazilərdə olan Azərbaycan vətəndaşlarının silahlı toqquşmalar və hərbi əməliyyatlar nəticəsində həlak olması və ya müxtəlif dərəcəli bədən xəsarətləri alması halları qeydə alınır".

Bəyanatda qeyd edilir ki, bu cür hadisələr münaqişə zonalarında və onların yaxınlığında yerləşən ərazilərdə təhlükəsizlik risklərinin son dərəcə yüksək olduğunu bir daha nümayiş etdirir və həmin bölgələrə səfər edən və ya fəaliyyət göstərən vətəndaşlarımızın həyat və sağlamlığı üçün ciddi təhlükələr yaradır: "Bu kontekstdə vətəndaşlarımıza xarici ölkələrə səfər etməzdən əvvəl təhlükəsizlik vəziyyətini diqqətlə qiymətləndirmələrinə, rəsmi dövlət qurumlarının xəbərdarlıq və tövsiyələrini nəzərə almalarına, münaqişə və hərbi əməliyyatların aparıldığı ərazilərə səfərlərdən yayınmalarına bir daha çağırış edirik. Bununla yanaşı, vətəndaşların muzdlu və ya könüllü əsasda xarici dövlətlərin ərazisində silahlı münaqişələrdə və hərbi əməliyyatlarda hər hansı bir formada iştirakının Azərbaycan qanunvericiliyinə uyğun olaraq cinayət məsuliyyəti doğurduğunu bir daha diqqətə çatdırırıq".

*

Qeyd edək ki, xarici işlər naziri Ceyhun Bayramov bəyanatın verilməsindən bir gün öncə – iyunun 8-də İstanbulda Türkiyə–Azərbaycan–Gürcüstan xarici işlər nazirlərinin üçtərəfli görüşündən sonra keçirilən birgə mətbuat konfransında bu barədə danışmışdı. Nazir demişdi ki, hər bir müharibə çox ciddi riskləri özündə ehtiva edir və onu vahid coğrafiya və ya qaydalar daxilində proqnozlaşdırmaq mümkünsüzdür. Onun sözlərinə görə, Azərbaycan dövləti hər zaman savaşın dayandırılması, diplomatik həll yolunun tapılması, ən azı, ilkin mərhələdə atəşkəsin əldə edilməsi, daha sonra davamlı sülhə nail olunması üçün addımların önəmini qeyd etmişdi: "Biz bu gün Rusiya–Ukrayna müharibəsinin coğrafiyasının genişlənməsinin şahidi oluruq, bunun faciəvi təsirlərini izləyirik. Üç gün bundan öncə 2 yük gəmisinə edilən dron hücumu nəticəsində 4 Azərbaycan vətəndaşı həlak olub, 4-ü isə yaralanıb. Bu savaş davam etdikcə, belə hallardan heç kim sığortalanmayıb. Hərbi münaqişələrin dayandırılması çox önəmlidir. Bu, ilk olaraq, münaqişə tərəfləri üçün böyük fəlakətlər gətirir, eyni zamanda, daha geniş coğrafiyada qonşu ölkələrə, region ölkələrinə və qlobal mənada ciddi təhdid yaradır".



Ölkəmizin xarici siyasət qurumunun bu çağırışından bir sutka ötməmiş verdiyi bəyanat təsadüfən səsləndirilmiş müraciət deyil. Bu xəbərdarlıq son illərdə dünyanın müxtəlif bölgələrində baş verən hadisələrin, xüsusilə də Azərbaycan vətəndaşlarının zərər çəkdiyi insidentlərin fonunda ortaya çıxıb. Beynəlxalq münasibətlər sistemində gərginliyin artdığı, bir neçə bölgədə eyni vaxtda müharibə və silahlı qarşıdurmaların davam etdiyi şəraitdə təhlükə anlayışı artıq yalnız həmin ölkələrin vətəndaşları ilə məhdudlaşmır. Münaqişələr min kilometrlərlə uzaqda yaşayan insanların da həyatına təsir göstərir.

Ukraynada 4 ildən çoxdur davam edən müharibə bunun aydın nümunələrindən biridir. Müharibənin ilk aylarından etibarən həm Ukrayna, həm də Rusiya tərəfdə müxtəlif ölkələrdən olan şəxslərin döyüşlərə qoşulması, könüllü dəstələrdə və ya digər silahlı birləşmələrdə iştirak etməsi barədə məlumatlar yayılıb. Açıq mənbələrdə zaman-zaman Azərbaycan vətəndaşlarının da bu müharibədə həlak olması və ya yaralanması barədə xəbərlər yer almaqdadır. Lakin döyüş bölgələrində baş verən hadisələrin tam statistikasını müəyyənləşdirmək çətin olduğundan dəqiq rəqəmlər barədə vahid məlumat mövcud deyil. Buna baxmayaraq, müxtəlif illərdə həm Ukrayna, həm də Rusiya ərazisində yaşayan azərbaycanlıların müharibənin qurbanına çevrildiyi faktları kifayət qədərdir.

**Hüquqşünas Fərhad Mehdiyev XQ-yə açıqlamasında bildirdi ki,** əslində, müharibənin təhlükəsi yalnız silah götürüb döyüşənlər üçün deyil. Onun sözlərinə görə, bəzən münaqişə zonasına yolu düşən mülki şəxslər də eyni risklərlə üz-üzə qalırlar: "Azov dənizində baş verən hadisə bunun ən son nümunələrindən biridir. Yük gəmisinə endirilən zərbə nəticəsində həlak olan və yaralanan Azərbaycan vətəndaşları hərbi əməliyyatların iştirakçısı deyildilər. Sadəcə, peşə fəaliyyətlərini yerinə yetirirdilər. Lakin müharibə şəraitində təhlükə hərbi və mülki hədəf arasında fərq qoymadan insanların həyatına təsir göstərə bilir. Məhz belə hadisələrdən sonra XİN-in yaydığı bəyanatın məzmunu daha aydın görünür. Nazirlik vətəndaşları münaqişə zonalarına səfər etməməyə çağırarkən nəzəri təhlükədən deyil, real faktlardan danışır. Son illərin təcrübəsi göstərir ki, hərbi əməliyyatların getdiyi və ya həmin bölgələrə yaxın ərazilərdə vəziyyət qısa müddətdə dəyişə bilər".

F.Mehdiyevin fikrincə, bəyanatda xüsusi diqqətçəkən məqamlardan biri də xarici ölkələrin ərazisində silahlı münaqişələrdə iştirakla bağlı xəbərdarlıqdır: "Azərbaycan qanunvericiliyi bu məsələyə birmənalı yanaşır. Muzdlu və ya könüllü əsasda xarici münaqişələrdə iştirak cinayət məsuliyyəti yaradır. Bu yanaşmanın arxasında yalnız hüquqi deyil, həm də təhlükəsizlik baxımından ciddi səbəblər dayanır. Çünki xarici müharibələrə qoşulan şəxslər təkcə öz həyatlarını riskə atmırlar. Onların sonrakı taleyi, geri qayıtdıqdan sonra yarana biləcək problemlər və ümumilikdə regional təhlükəsizlik məsələləri də diqqət mərkəzində olur. Digər tərəfdən, son illər Yaxın Şərqdə, Afrikanın bəzi bölgələrində və Şərqi Avropada baş verən hadisələr göstərib ki, müharibənin coğrafiyası genişlənir. Bir neçə il əvvəl insanların gündəlik həyatından uzaq görünən təhlükələr artıq beynəlxalq nəqliyyat marşrutlarına, ticarət əlaqələrinə və əmək miqrasiyasına da təsir edir. Xaricdə işləyən, təhsil alan və ya səfərdə olan



vətəndaşlar üçün risklər əvvəlki dövrlərlə müqayisədə daha yüksəkdir. Bu baxımdan XİN-in çağırışı yalnız xəbərdarlıq xarakteri daşımır. Bu, vətəndaşların təhlükəsizlik məsələlərinə daha həssas yanaşmasına hesablanmış mesajdır. Xarici ölkəyə səfər planlaşdıran şəxsin həmin bölgədəki vəziyyətlə maraqlanması, rəsmi qurumların tövsiyələrini izləməsi və riskləri düzgün qiymətləndirməsi artıq zərurətə çevrilib".

Sonda qeyd etmək yerinə düşər ki, müharibələr barədə xəbərləri izləyərkən çox zaman rəqəmlər, statistik göstəricilər və hərbi məlumatlar ön plana çıxır. Ancaq hər bir rəqəmin arxasında insan taleyi dayanır. Azov dənizində həlak olan dənizçi də, Donbas çöllərində həyatını itirən şəxs də, dron zərbəsi nəticəsində yaralanan mülki vətəndaş da ilk növbədə ailəsinin, yaxınlarının itkisidir. Xarici İşlər Nazirliyinin bəyanatının əsas məğzi də məhz bundan ibarətdir: münaqişə bölgələrindən uzaq durmaq bəzən sadəcə tövsiyə deyil, insan həyatını qorumağın ən düzgün yoludur.

*Səxavət HƏMİD*
*XQ*

# "Afrika dəhlizi" türk dövlətlərinə nələr vəd edir?

## *TDT-nin iqtisadi, coğrafi və diplomatik sərhədləri genişlənir*

**Sahel regionunun geosiyasi mənzərəsi son illər əsaslı şəkildə dəyişir və Niger həmin dəyişikliklərin mərkəzində dayanır. Bu il iyun ayının 4-də Nigerin dövlət başçısı general Əbdürrəhman Tçianinin Ankaraya reallaşdırdığı rəsmi səfər regiondakı yeni güc balansının göstəricisi hesab olunur. Bu, Tçianinin 2023-cü ilin iyul ayında hakimiyyətə gəlişindən sonra Afrika qitəsindən kənara etdiyi ilk rəsmi dövlət səfəridir və tərəfdaşlıq əlaqələrinin strateji səviyyəyə yüksəldiyini təsdiqləyir.**




Niger qlobal uran sənayesində strateji çəkiyə malikdir. Dünya Nüvə Assosiasiyasının rəsmi statistik məlumatlarına əsasən, Niger qlobal uran hasilatında mühüm mövqelərdən birini tutur. Keçmişdə Afrikanın aparıcı uran istehsalçısı olan ölkə, hazırda da qlobal siyahıda ilk onluqda yer alır və təxminən 454 min ton müəyyən edilmiş uran ehtiyatına sahibdir. Nüvə energetikasının və strateji suverenliyin təmin edilməsində uran ehtiyatları müstəsna əhəmiyyət daşıyır. Eyni zamanda, Niger ərazisində sənaye və texnologiya zənciri üçün mühüm əhəmiyyət kəsb edən litium, kobalt və fosfat kimi nadir elementlərin zəngin yataqları mövcuddur. Strateji xammal ehtiyatları qlobal güclərin, xüsusilə də nüvə enerjisindən asılılığı olan Fransa kimi dövlətlərin regiona marağını şərtləndirirdi. Lakin Niamey administrasiyasının suverenlik siyasəti qlobal şirkətlərin, o cümlədən Fransanın dövlət nəzarətindəki "Orano" şirkətinin lisenziyalarının ləğv edilməsi və "Somair" mədəninin milliləşdirilməsi prosesi ilə nəticələndi.

Türkiyə ilə Niger arasında geosiyasi yaxınlaşma, bütövlükdə, Türk dünyası üçün mühüm perspektivlər vəd edir. Türk Dövlətləri Təşkilatının qlobal ticarət və enerji marşrutlarında rolunun artdığı dövrdə Afrika qitəsində möhkəmlənmək strateji diversifikasiya imkanları yaradır. Qazaxıstan və Özbəkistan kimi uran nəhənglərinin yer aldığı Türk dünyası Niger ilə qurulan əlaqələr vasitəsilə qlobal enerji bazarındakı tənzimləyici çəkisini daha da artıra bilər. Orta Dəhliz layihəsinin genişlənməsi fonunda Afrikanın strateji xammal ehtiyatlarının Türk dövlətlərinin sənaye potensialı ilə inteqrasiyası qlobal rəqabətdə üstünlük qazandırır. Azərbaycanın və digər müttəfiq ölkələrin qitə miqyasında diplomatik fəaliyyətinin genişlənməsi Türkiyənin Nigerdəki mövqelərinin güclənməsi ilə paralel şəkildə inkişaf edir. Beləliklə, Ankaranın qurduğu təhlükəsizlik və tərəfdaşlıq arxitekturası Türk dünyasının qlobal miqyasda nüfuz dairəsini genişləndirən mühüm amilə çevrilir.

*

Tərəfdaşlığın təməlində təhlükəsizlik amili dayanır. Sahel regionu uzun illərdir radikal qruplaşmaların və terror şəbəkələrinin fəaliyyətindən ciddi zərər çəkir. Niger hərbi rəhbərliyi milli təhlükəsizliyi təmin etmək məqsədilə etibarlı və bərabərhüquqlu hərbi-texniki əməkdaşlıq axtarışındadır. Türkiyə həmin sahədə böyük imkanlara və müasir hərbi-sənaye kompleksinə sahibdir. Son illər Niger Silahlı Qüvvələri Türkiyə istehsalı olan pilotsuz uçuş aparatları, zirehli texnikalar və yüngül silahlar əldə edib. General Tçianinin Ankaraya səfəri zamanı hərbi-texniki əməkdaşlığın maliyyələşdirilməsi məsələsində Türkiyə tərəfinin göstərdiyi güzəştlər və dəstək əlaqələrin səmimiliyinə dəlalət edir. Türkiyə dövlət başçısının yerli hərbi sənaye şirkətlərinə Nigerə dərhal tədarük edilməsi və ödənişin sonrakı mərhələlərdə həyata keçirilməsi barədə verdiyi tapşırıq tərəflər arasında yaranan strateji etimadın bariz nümunəsidir. Bu addım Nigerin terrorizmlə mübarizə potensialını gücləndirməklə yanaşı, Türkiyənin regiondakı mövqelərini sarsılmaz edir.

Fransanın Sahel regionundakı neokolonial idarəçilik sistemi artıq tamamilə sıradan çıxıb. İllərlə davam edən təktərəfli istismar siyasəti, yerli xalqların ciddi etirazına səbəb oldu və nəticədə, fransız ordusu Niger ərazisini tərk etməyə məcbur qaldı. Qərb dövlətlərinin qitədəki diktat siyasətinin iflasa uğraması, region dövlətlərini alternativ və daha ədalətli tərəfdaşlar axtarmağa sövq etdi. Türkiyə məhz həmin məqamda bərabərhüquqlu tərəfdaşlıq modelini təklif edərək ön plana çıxdı. Ankara hər hansı kolonial keçmişə və ya imperiya iddialarına sahib olmadan tamamilə qarşılıqlı fayda prinsipinə əsaslanan münasibətlər formalaşdırır. Niger rəhbərliyi Ankarada qarşılanarkən nümayiş etdirilən dövlət protokolu və 16 türk dövlətinin bayraqlarının yer alması Niameyə göstərilən ali hörmətin rəmzi ifadəsi idi. Həmin yanaşma regionda Qərbin hegemonluğunun yerini Türkiyənin rəhbərlik etdiyi əməkdaşlıq modelinin aldığını sübut edir.

Geosiyasi cəhətdən Niger Mərkəzi Afrikanın və bütövlükdə, Sahel zolağının ən mühüm və sabit geosiyasi ölkələrindən biridir. Çad gölü hövzəsi və Saxara səhrası arasında yerləşən dövlət tranzit, təhlükəsizlik dəhlizlərinin kəsişməsində qərar tutur. Nigerdə sabitliyin təmin edilməsi qonşu dövlətlərin də təhlükəsizliyinə təsir göstərir. Hərbi idarəçiliyin bərqərar olmasından sonra ölkə xarici müdaxilələrə qarşı qətiyyətli müqavimət göstərərək daxili nizamı qorumağa nail olub. Türkiyə Nigerin daxili sabitliyini dəstəkləməklə regionda yayılan xaosun qarşısını almağa kömək edir. Terror qruplaşmalarına qarşı mübarizədə Türkiyənin kəşfiyyat dəstəyi və taktiki məsləhətləri Niger ordusunun peşəkarlığını artırır.

*

Türkiyənin enerji təhlükəsizliyi strategiyasında resursların diversifikasiyası xüsusi yer tutur. Son illər qardaş ölkə nüvə enerjisi sahəsində nəhəng layihələr həyata keçirir və ilk nüvə elektrik stansiyası olan "Akkuyu"nun inşası sürətlə davam edir. Gələcəkdə digər nüvə stansiyalarının da tikintisi planlaşdırılır. Həmin layihələrin davamlı olması üçün etibarlı uran tədarükü zəncirinin qurulması zəruridir. Niger məhz həmin ehtiyacın qarşılanmasında etibarlı tərəfdaş rolunu oynaya bilər. Nigerin sahib olduğu zəngin uran yataqları Türkiyənin nüvə enerjisi sektorunun xammal təhlükəsizliyini uzunmüddətli dövr üçün təmin etmək iqtidarındadır. Həmçinin litium və kobalt kimi strateji metalların əldə edilməsi Türkiyənin yerli texnoloji istehsalını, xüsusilə də elektromobil və müdafiə sənayesini dəstəkləyir.

Ankarada keçirilən rəsmi görüşlər çərçivəsində müxtəlif istiqamətlərdə mühüm sənədlər imzalandı. Səfər zamanı tərəflər arasında təhsil, səhiyyə, ticarət və diplomatiya sahələrində sıx əməkdaşlığı nəzərdə tutan fəaliyyət protokolları qəbul edildi. Xüsusilə, ali təhsil sahəsində 2026–2030-cu illəri əhatə edən tətbiq protokolu imzalandı ki, bu da iki ölkə arasında tələbə və müəllim mübadiləsini genişləndirəcək. Həmçinin ticarət əlaqələrini tənzimləmək üçün Müştərək İqtisadi və Ticarət Komissiyasının yaradılması qərara alındı. Səhiyyə sahəsində isə Niger-Türkiyə Dostluq Xəstəxanasının müştərək idarə edilməsi barədə razılaşma əldə olundu. Diplomatiya sahəsində kadr hazırlığını və strateji araşdırmaları gücləndirmək məqsədilə Türkiyə Xarici İşlər Nazirliyinin Diplomatiya Akademiyası ilə Niger Milli Diplomatik və Strateji Araşdırmalar İnstitutu arasında anlaşma memorandumu imzalandı. İmzalanan sənədlər əməkdaşlığın təkcə hərbi sahə ilə məhdudlaşmadığını, həm də humanitar və institusional sahələri əhatə etdiyini göstərir.

Nigerin dövlət başçısı general Əbdürrəhman Tçianinin Ankaraya rəsmi səfəri iki ölkə arasındakı münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu, Sahel regionunda formalaşan yeni geosiyasi reallıqların təzahürünü nümayiş etdirir. Bu proses gələcək illərdə həm Afrikanın siyasi-iqtisadi inkişafına, həm də Türk dünyasının qlobal miqyasda strateji nüfuzunun artmasına mühüm töhfə verə biləcək uzunmüddətli tərəfdaşlığın əsasını formalaşdırır.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# Türk dünyasının ortaq təhsil hədəfləri

**Dövlətləri uzun müddət bir-birinə bağlayan ən güclü amil nə neft kəmərləridir, nə də ticarət müqavilələri. Xalqları birləşdirən əsas qüvvə ortaq düşüncə məkanı, ortaq dəyərlər və ortaq təhsil sistemidir. Məhz bu baxımdan Türk Dövlətləri Təşkilatının təhsil nazirlərinin Türküstanda keçirilən IX iclası Türk dünyasının gələcək siyasi, iqtisadi və mədəni inteqrasiyasının intellektual təməlini formalaşdırmaq cəhdidir.**



### Təhsildə yaxınlaşma – siyasətin açdığı yol

Beynəlxalq münasibətlər tarixində uzunömürlü birliklərin və ittifaqların yaranmasına nəzər saldıqda maraqlı qanunauyğunluq diqqəti cəlb edir. Dövlətlər arasında imzalanan siyasi sazişlər, iqtisadi razılaşmalar və hətta hərbi ittifaqlar müəyyən dövrdə dəyişə, yenilənə və ya zəifləyə bilər. Ortaq təhsil məkanında yetişən, eyni dəyərləri paylaşan və bir-birini yaxından tanıyan nəsillər arasında formalaşan bağlar isə daha dayanıqlı olur. Məhz buna görə beynəlxalq münasibətlərdə tez-tez vurğulanır ki, siyasi ittifaqlar hökumətlərin qərarı ilə yaranır, sivilizasiya ittifaqları isə təhsil vasitəsilə formalaşan nəsillərin hesabına möhkəmlənir. Bu gün Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində müşahidə olunan yaxınlaşma prosesi diplomatik və ya iqtisadi əməkdaşlıqla məhdudlaşmır. Son illər Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan arasında siyasi dialoq intensivləşib, ticarət dövriyyəsi artıb, nəqliyyat və logistika layihələri genişlənib. Bu münasibətlərin cəmiyyətlər səviyyəsində də dərin köklərə malik olması vacibdir. Belə köklərin formalaşdığı əsas məkan isə təhsil sistemidir. Əslində, təhsil inteqrasiyası siyasi inteqrasiyanın görünməyən, lakin ən təsirli mərhələsidir. Bu gün Türk dünyasında formalaşdırılmağa çalışılan əməkdaşlıq modelinin uğuru gələcək nəsillərin bir-birini nə dərəcədə tanıyacağı və anlayacağı ilə birbaşa bağlıdır. Akademik mobilliyin artırılması, Türk Universitetlər Birliyinin fəaliyyətinin gücləndirilməsi və Türk Dünyası Ali Təhsil Məkanının yaradılması kimi təşəbbüslər gələcəyin ortaq insan kapitalının formalaşdırılmasına xidmət edən siyasi-strateji investisiyalardır. Burada diqqətçəkən mühüm məqamlardan biri də "insan diplomatiyası" faktorudur. Dövlətlər arasında imzalanan sənədlər münasibətlərin hüquqi bazasını yaradırsa, tələbə və alim mübadiləsi həmin münasibətlərin sosial bazasını formalaşdırır. Sabah Qazaxıstanda təhsil alan azərbaycanlı tələbə, Azərbaycanda çalışan özbək alim və ya Türkiyədə elmi fəaliyyət göstərən qırğız tədqiqatçı yalnız öz peşəkar fəaliyyətləri ilə deyil, həm də formalaşdırdıqları əlaqələr şəbəkəsi ilə Türk dünyasının inteqrasiyasına töhfə verəcəklər.

Türküstan görüşündə elm və təhsil naziri Emin Əmrullayevin təqdim etdiyi sistemli institusional əməkdaşlıq təşəbbüsü Azərbaycanın bu prosesdə daha fəal rol oynamaq niyyətini göstərir. Son illər Azərbaycanın həm TDT daxilində, həm də ümumilikdə Türk dünyasında artan siyasi nüfuzu təhsil sahəsində də özünü göstərməyə başlayıb. Avropa İttifaqının təcrübəsi göstərir ki, inteqrasiyanın ən uğurlu elementlərindən biri məhz təhsil sahəsində əməkdaşlıq olub. Erasmus proqramı vasitəsilə milyonlarla gəncin Avropa ölkələrində təhsil alması zamanla vahid Avropa kimliyinin formalaşmasına mühüm təsir göstərib. Bu proqram 1987-ci ildə fəaliyyətə başlayarkən cəmi 11 ölkədən təxminən 3 min tələbəni əhatə edirdi. O dövrdə proqramın əsas məqsədi Avropa universitetləri arasında tələbə mübadiləsini təşviq etmək və gənclərin digər Avropa ölkələrinin təhsil sistemləri ilə tanış olmasına şərait yaratmaq idi. Lakin zaman keçdikcə, Erasmus Avropa inteqrasiyasının sosial və mədəni sütunlarından birinə çevrildi. Avropa Komissiyasının məlumatlarına görə, proqramın fəaliyyətə başladığı dövrdən bu günə qədər 15 milyondan çox insan Erasmus və Erasmus+ təşəbbüslərindən faydalanıb. TDT-nin bu gün həyata keçirməyə çalışdığı təşəbbüslər də müəyyən mənada Türk dünyasının öz Erasmus modelini yaratmaq istiqamətində atdığı addımlar kimi qiymətləndirilə bilər.

### Yeni İpək yolunun zəka xəritəsi

Tarixə nəzər saldıqda Böyük İpək Yolunun yalnız malların daşındığı ticarət marşrutu olmadığını görürük. Bu yol əsrlər boyu sivilizasiyaları birləşdirən, elmi bilikləri, fəlsəfi ideyaları, texnoloji yenilikləri və mədəni dəyərləri müxtəlif coğrafiyalar arasında daşıyan böyük kommunikasiya şəbəkəsi rolunu oynayıb. Çin, Mərkəzi Asiya, Anadolu, Qafqaz və Avropa arasında hərəkət edən karvanlar düşüncə tərzləri, elm ənənələri və mədəniyyətlərarası təcrübələr də daşıyırdı. Bir çox tarixçilər hesab edirlər ki, Böyük İpək Yolunun ən böyük mirası iqtisadi deyil, məhz intellektual və mədəni xarakter daşıyıb. Müasir dövrdə isə dünya yeni bir transformasiya mərhələsinə daxil olub. XXI əsrin iqtisadiyyatında ən qiymətli resurs neft, qaz və ya faydalı qazıntılar deyil, yüksək ixtisaslı insan potensialıdır. Məhz bu kontekstdə TDT-nin həyata keçirməyə çalışdığı təşəbbüsləri yeni dövrün "intellektual İpək Yolu" kimi qiymətləndirmək mümkündür. Əgər Orta Dəhliz və digər nəqliyyat layihələri türk dövlətlərini fiziki baxımdan bir-birinə yaxınlaşdırırsa, təhsil və elm sahəsində inteqrasiya xalqları düşüncə, bilik və dəyərlər müstəvisində birləşdirir. Türk Dünyası Ali Təhsil Məkanının yaradılması ideyası məhz bu strateji baxışın məhsuludur. Əsas hədəf ortaq akademik standartların formalaşdırılması vasitəsilə vahid intellektual məkan yaratmaqdır. Belə bir məkan gələcəkdə Türk dünyasının elmi potensialının daha səmərəli istifadə edilməsinə, innovasiya imkanlarının genişlənməsinə və beynəlxalq akademik rəqabətdə daha güclü mövqe tutmasına şərait yarada bilər. Bu istiqamətdə Avropa təcrübəsi xüsusi diqqət çəkir. XX əsrin sonlarından etibarən həyata keçirilən Bolonya prosesi Avropa ali təhsil sistemində köklü dəyişikliklərə səbəb oldu. Bu gün Almaniyada təhsil alan bir tələbə İtaliyada, Fransada və ya Niderlandda təhsilini rahatlıqla davam etdirə bilir. Universitetlər arasında əməkdaşlıq genişlənib, gənclər arasında ortaq Avropa düşüncəsi formalaşıb və təhsil Avropa inteqrasiyasının ən uğurlu mexanizmlərindən birinə çevrilib.

Türk dünyasının qarşısında duran vəzifə isə bu modeli olduğu kimi təkrarlamaq deyil, onu öz tarixi və mədəni xüsusiyyətlərinə uyğun şəkildə formalaşdırmaqdır. Ortaq tarixi köklər, dil yaxınlığı, mədəni bağlılıqlar və ortaq sivilizasiya yaddaşı təhsil inteqrasiyasını daha əlçatan edir. Dünyanın bir çox regionlarında belə təbii zəmin mövcud olmadığı halda, Türk dünyasında bu potensial artıq hazır vəziyyətdədir və yalnız institusional mexanizmlərlə gücləndirilməsinə ehtiyac duyulur. Bununla yanaşı, yeni intellektual İpək Yolunun qurulması yalnız universitetlər arasında əlaqələrin genişləndirilməsi ilə məhdudlaşmamalıdır. Birgə elmi layihələrin həyata keçirilməsi, ortaq tədqiqat fondlarının yaradılması, rəqəmsal təhsil platformalarının inkişafı və süni intellekt, yaşıl texnologiyalar, enerji təhlükəsizliyi kimi strateji sahələrdə əməkdaşlığın dərinləşdirilməsi də bu prosesin vacib elementləridir. Çünki gələcəyin inteqrasiyası həm də ortaq innovasiya potensialı üzərində qurulacaq.



Son olaraq qeyd edək ki, TDT uzunmüddətli inteqrasiyanın əsasını təşkil edən insan kapitalının formalaşdırılmasına diqqət ayırır. Bu gün qəbul edilən qərarların nəticələri bəlkə tezliklə görünməyəcək. Amma on il sonra eyni universitet məkanında təhsil almış, ortaq akademik standartlarla yetişmiş və bir-birini daha yaxşı anlayan yeni nəsil formalaşanda Türk dünyasının inteqrasiyası haqqında müzakirələr fərqli müstəviyə keçəcək. Çünki dövlətlərarası münasibətlərin ən dayanıqlı körpüsü insan şüurunda qurulur. Türk dünyasının vahid təhsil sisteminə doğru atdığı addımlar da məhz belə bir körpünün inşasına xidmət edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Rəqəmsal keçid və gələcək nəsil

## *İctimai müzakirələr mövzu ilə bağlı ciddi narahatlığı əks etdirir*

**Azyaşlıların sosial şəbəkənin müxtəlif kontentlərində zərərli təsir və məzmunlara məruz qalması bu gün dünya miqyasında müzakirə olunan aktual mövzular sırasındadır. Bəzi ölkələr artıq bu təhlükəli prosesin qarşısının alınması üçün hüquqi tənzimləmə istiqamətində ciddi addımlar atıb, uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması üçün zəruri mexanizmlər formalaşdırıblar.**

Qəzetimizin dünənki sayında oxucularа Azərbaycanda da bu istiqamətdə mühüm addımların atıldığı, sosial platformalara giriş və istifadənin hüquqi tənzimləməsini təmin etməkdən ötrü yeni qanun layihəsinin hazırlandığı barədə məlumat vermişdik.



Hazırda həmin qanun layihəsinin ictimai müzakirəyə çıxarılmasını uşaqların hüquqlarının qorunması baxımından təqdir olunası hal sayırıq. Çünki bu, ayrıca götürülmüş bir sahəyə deyil, cəmiyyətin bütün təbəqələrinə aid məsələdir. Onun azyaşlıların sağlam və bilikli böyüməsinə, milli mentalitetimizə zidd zərərli vərdişlərdən qorunmasına, deməli, ailə, məktəb və mühit kimi amillərlə əhatə olunduğunu nəzərə alsaq, Milli Məclis tərəfindən qəbul ediləcək qanunun aktuallığını qeyd etməyə ehtiyac qalmır.

Milli Məclisə təqdim olunan qanun layihəsinə əsasən, 16 yaşına çatmamış şəxslərin yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformalarında qeydiyyatına icazə verilməyəcək. Bundan başqa, həmin platformaların provayderlərinin istifadəçilərin yaşının yoxlanılması, yetkinlik yaşına çatmayanların təhlükəsizliyinin təmin edilməsi, zərərli məzmunların qarşısının alınması və fərdi məlumatların qorunması ilə bağlı bir sıra öhdəliklər daşıyacaqları da nəzərdə tutulub. Tələblərin pozulması yüksək məbləğdə cərimələr və mərhələli məhdudlaşdırma tədbirləri ilə müşayiət olunacaq.

Dünən Azərbaycan Milli QHT Forumunun təşkilatçılığı ilə "Uşaqların rəqəmsal təhlükəsizliyi, zərərli asılılıqdan qorunması" mövzusunda ictimai müzakirənin keçirilməsi cəmiyyəti narahat edən bu aktual mövzuya vətəndaş cəmiyyəti təmsilçilərinin münasibəti baxımdan önəmli idi. Forumun İdarə Heyətinin sədri Ramil İskəndərli çıxışında Milli Məclisə təqdim olunan "İnzibati Xətalar Məcəlləsində", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin uşaqların sosial şəbəkələrin zərərli təsirlərindən qorunmasına yönəldiyini bildirdi: "Artıq dünyanın aparıcı ölkələri sosial şəbəkə platformalarının öz daxili qaydaları ilə yanaşı, milli qanunvericiliklə də tənzimlənməsini, xüsusilə azyaşlıların qorunmasını, onların sosial şəbəkə platformalarına çıxışına yaş məhdudiyyətlərinin tətbiqini nəzərdən keçirir".

R.İskəndərli Azərbaycanda da 16 yaşadək uşaqların sosial şəbəkə platformalarında fərdi hesab yaratmasına yol verilməməsinin, 16-18 yaşarası uşaqların isə bunu valideyn icazəsi ilə edə bilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırdı: "Sosial şəbəkələrə aludəçiliyin hələ formalaşma dövründə olan, yetişən nəsil üzərində zərərli təsirlərindən hamımız əziyyət çəkirik. Qanunvericilikdə nəzərdə tutulan bu dəyişikliklər məhz cəmiyyətin sosial sifarişidir".

Azyaşlıların zərərli təsirlərdən qorunmasının cəmiyyətin və dövlətin vəzifəsi olduğunu vurğulayan tədbirin moderatoru, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Firuzə Rəsulova çıxışında bildirdi ki, ekran aludəçiliyi, yaşına uyğun olmayan məzmunla tanışlıq nəticədə yaranan müxtəlif davranış pozuntuları, uşaqların sosial şəbəkələrdən zərərli vərdişlərə mübtəla olması və bunların törətdiyi fəsadlar bu gün cəmiyyətin diqqət yetirməli olduğu məsələlərdir: "Dövlət tərəfindən uşaqların müdafiəsi gücləndirilməli, onlar yetkinlik yaşına çatana qədər sosial şəbəkə mühitində fəaliyyət üçün hazırlanmalı, sonrakı dövrdə isə valideyn nəzarəti ilə sosial şəbəkələrdən istifadə etməlidirlər. Bu məsələnin Azərbaycanda da qanunvericiliyə salınması alqışlanmalıdır".

İctimai müzakirədə çıxış edən Milli QHT Forumu İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Allahverənov uşaqların rəqəmsal təhlükəsizliyi, zərərli asılılıqdan qorunması məqsədilə qanunvericilikdə nəzərdə tutulan dəyişikliklərin təfərrüatlarından danışdı. O qeyd etdi ki, sosial şəbəkə platformalarında fərdi rəqəmsal hesab açmaq istəyən hər şəxsin yaşının müəyyənləşdirilməsi üçün texniki üsullar tətbiq olunacaq: "6 yaşı tamam olmamış şəxslərin platformada fərdi rəqəmsal hesablarının yaradılmasına yol verilməyəcək. Qanun qüvvəyə mindikdən sonra platformalar 16 yaşdan aşağı uşaqlara məxsus mövcud fərdi rəqəmsal hesablara girişi məhdudlaşdıracaq və şəxsin 16 yaşının tamam olmasını təsdiq edən məlumat təqdim edilmədikdə həmin hesablar və fərdi məlumatlar silinəcək".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Elnur Mustafayevin fikrincə, uşaqların rəqəmsal təhlükəsizliyi məsələsi ciddi yanaşma tələb edir: "Sosial şəbəkə platformalarında özünə zərər verməyi təşviq edən məzmunların geniş yayılması, sosial təcrid hissi depressiv simptomların dərinləşməsi ilə intihar riski üçün əlverişli şərait yarada bilir. Hər bir valideyn uşağın fərdi həyatını, mənəviyyatını düzgün formalaşdırmalı, onu yüksək dəyərlərlə tərbiyə etməlidir".

Dünənki yazımızda qeyd etdiyimiz kimi, azyaşlıların şəxsiyyət kimi formalaşmasında məktəb, ailə, mühit güclü təsirə malikdir. Onların yanlış vərdişlərə yiyələnməməsi, sosial şəbəkə dələduzlarının toruna düşməməsi valideynlərin də çiyninə məsuliyyət yükü qoyur. Çıxışında məhz bu amili vurğulayan Narkotiklər, Zərərli Asılılıqlar Əleyhinə Səfərbərlik Mərkəzi İctimai Birliyinin sədri Nail Kəmərli dedi ki, bəzən ailələr bu işə səhlənkar yanaşır: "Təəssüf ki, uşaqlar var ki, məhz belə qeyri-sağlam mühitdə günlərin birində özünü narkotik istifadəçisi, internet aludəçisi kimi tapır. Biz cəmiyyət olaraq, əl-ələ verməli, bu sahədə problemlərin yaranmasının qarşısını almalı, azyaşlıların sağlam və vətənpərvər ruhda böyüməsində hamılıqla iştirak etməliyik".

İctimai müzakirədə xarici ölkələrin təcrübəsindən də danışıldı. Qeyd olundu ki, Fransa bu il uşaqların sosial şəbəkələrdə olmasına yaş məhdudiyyəti tətbiq edən dünyada ikinci, Avropada birinci dövlət olub. Hazırda müxtəlif ölkələrdə hansı yaşdan belə tənzimləmələrin tətbiqi imkanlarına baxılır. Danimarka 18, İspaniyada 16, Fransada 15 yaş, ABŞ-də federal səviyyədə 17 yaş, Kaliforniya, Texas, Nyu-York, Tennessi və Yuta kimi ştatlarda 18 yaş, Kolorado, Corciya, Luizianada 16 yaş, Floridada 14 yaş yanaşmaları mövcuddur. Almaniya, Portuqaliya, Norveç, Türkiyə, Kanada, Yeni Zelandiya, Malayziya, İndoneziya və Hindistan sosial şəbəkə platformalarında yaş məhdudiyyətləri müəyyənləşdirmək üçün qanunvericilik qərarları qəbul edib və ya etməkdədirlər. Qazaxıstan və Özbəkistanda da analoji qanunvericilik təşəbbüsləri mövcuddur.

QHT təmsilçilərinin yekdil rəyi bu oldu ki, uşaqların zərərli təsirlərdən qorunması, onların sağlam böyüməsi üçün hərtərəfli şəraitin yaradılması və dəstəyin verilməsi dövlətin sosial siyasətinin tərkib hissəsidir. Azyaşlıların, yeniyetmələrin milli-mənəvi, əxlaqi dəyərlər əsasında sağlam, bilikli böyüməsi və inkişaf etməsi həm onların özlərinin, həm də cəmiyyətin və dövlətin gələcəyi üçün strateji əhəmiyyətə malikdir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Apellyasiya Məhkəməsi Ermənistan vətəndaşlarının şikayətlərinə baxır

**İyunun 9-da Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.**

Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar – Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Məhkəmə prosesini Ombudsman Aparatının nümayəndələri də izləyiblər.

Əvvəlcə keçən məhkəmə iclasında təqsirləndirilən şəxslərdən bir qisminin ötən məhkəmə iclasında xahiş etdiyi sənədlərin tərcüməsi onlara təqdim edilib.

Təqsirləndirilən Davit İşxanyan isə 26 may tarixli məhkəmə iclasının məhkəmə-iclas protokolu ilə tanış olmaq istədiyini deyib. Sədrlik edən məhkəmə-iclas protokolu ilə tanış olmaq üçün məhkəməyə müraciət edilməsinin lazım olduğunu, sənədlərlə tanışlıq üçün heç bir məhdudiyyət qoyulmadığını bildirib.

Ardınca sədrlik edən bildirib ki, məhkəmə kollegiyası Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 394-cü maddəsinin, habelə apellyasiya şikayətlərinin dəlilləri və məcəllənin 339–341-ci maddələrinin tələblərinə uyğun olaraq məhkəmə çıxışlarının icra edilməsi ilə bağlı prosessual fəaliyyətin başlanmasını qanunauyğun hesab edir.

Çıxış üçün söz müdafiə tərəfinə verilib. Lakin A.Harutyunyanın müdafiəçisi istisna olmaqla digər vəkillər çıxışa hazırlaşmaq üçün məhkəmə prosesinin təxirə salınmasını məhkəmədən xahiş ediblər.

David Manukyan və Davit İşxanyan məhkəmə prosesinin davam etdirilməsini məhkəmədən xahiş edib.

Məhkəmədə fasilə elan olunub. Fasilə zamanı təqsirləndirilən şəxslərdən bəziləri öz müdafiəçiləri ilə konfidensial qaydada görüşlər keçiriblər. Fasilədən sonra sədrlik edən elan edib ki, məhkəmə kollegiyası təqsirləndirilən şəxslərin hüquqlarını müdafiə edən vəkilləri ilə konfidensial görüşmələrinə dair vəsatətləri təmin edərək onlara bunun üçün şərait yaradıb. Bundan başqa, iclasda çıxış etmək istəyən şəxslərə də müvafiq şərait yaradacaq. Digər təqsirləndirilənlərin çıxışa hazırlaşması üçün isə onlara vaxt veriləcək.

Ardınca təqsirləndirilən Arayik Harutyunyanın müdafiəçisi Anar Məmmədov çıxış edib. Vəkil çıxışında müdafiə etdiyi şəxs barəsində bəraət hökmü çıxarılmasını məhkəmədən xahiş edib. Təqsirləndirilən Arayik Harutyunyan çıxış edərək vəkilinin mövqeyi ilə razılaşdığını və səsləndirdiyi fikirləri müdafiə etdiyini deyib.

Məhkəmənin növbəti iclası iyunun 16-da keçiriləcək.

# Zaxarovanın “böhran” həyəcanı və Paşinyanın “Pirr qələbəsi”

*(əvvəli 1-ci səhifədə)*




M.Zaxarova bildirib ki, Ermənistanda keçirilmiş seçkilər cəmiyyətdə mövcud olan dərin böhranı əyani şəkildə nümayiş etdirdi. Görəsən, o, niyə bu qənaətdədir? Həqiqətən, parlament seçkilərinin nəticələri erməni cəmiyyətində revanşistlərin və şovinistlərin hələ də müəyyən söz sahibi olduqlarını göstərdi. Yəni erməni hakim komandasının onları gözdən salmasına rəğmən, proses göstərdi ki, azacıq arxayınlıq yaransa, həmin revanşist və şovinistlər yenidən iqtidara yiyələnə bilərlər. Bu mənada Paşinyan və tərəfdarları sayıqlığı əldən verməməlidirlər, bu, öz yerində. Ancaq məsələnin başqa tərəfi var.

Məsələ Zaxarovanın vurğuladığı böhran məntiqindədir və heç şübhəsiz, qarşıdakı müddətdə onun dinamikası Ermənistanın siyasi axarını müəyyənləşdirəcək. Yəni Rusiya XİN təmsilçisinin təbirincə desək, hadisələr dərin məcraya qədəm qoya bilər və bunun qarşısı alınmalıdır. Necə alınmalıdır? Əlbəttə ki, real işlərlə. Real işlər o qədər sistemli və ardıcıl həyata keçirilməli, o qədər rifah gətirməlidir ki, sülh və müharibə tərəfdarları arasındakı balans birincinin xeyrinə yüksəlsin. Paşinyan iqtidarı seçkini sülh egidası ilə udubsa, sülhün faydaları özünü gözlətməməli, erməni xalqının Nikola və komandasına etimad göstərən hissəsi, ümumən, bütün vətəndaşlar həyatlarının müsbətə doğru dəyişdiyini əyani şəkildə görməlidirlər.

* * *

Qərb 7 iyun seçkilərində hazırkı erməni iqtidarına dəstək göstərdi. Amma birmənalı şəkildə demək olmaz ki, Paşinyan və tərəfdarları, bilavasitə, bu dəstəyin nəticəsində qalib oldular. Nikol komandası ilə birlikdə, sözün əsl mənasında, iş apardı. İş apardı və ilk növbədə sadə haylara barış mühitinin faydalarını anlatdı. Mövcud trayektoriyada sıravi ermənilər Qərbin Ermənistana fövqəladə diqqətini də gördülər. “Avropa Siyasi Birliyi”nin mayda İrəvanda keçirilən VIII Zirvə toplantısı Ermənistanı, bir növ, Avropa məkanının bir hissəsinə çevirdi. Erməni xalqının Paşinyanı dəstəkləyən kəsimi bu görüntüdəki gözləntiyə də səs verdi.

...İndi gözləntilərin doğrulması zamanıdır. Onlar doğruldaqca, şübhəsiz, Ermənistandakı ənənəvi destruktiv baxış tərəfdarlarının sırası seyrələcək. Axı insanlara nə lazımdır? Təminatlı yaşamaq. Necə deyərlər, ac qılınca çapar. Nəzərə alaq ki, çərəsizliyi, ehtiyacı və itirəcək heç nəyi olmayan insanın istənilən təhlükəyə və ya çətinliyə gözüyumulu, heç nədən qorxmadan getməsi reallığı var.

Ermənilər ac qalmamalıdırlar. Ac qalacaqları təqdirdə nicat yolunu revanşistlərin və şovinistlərin saxta vədlərinə inanmaqda görəcəklər. Bu dəfə də görənlər, daha doğrusu, inananlar tapıldı. Azərbaycanla açıq düşmənçiliyi, Türkiyəyə nifrəti təbliğ edən Samvel Karapetyanın düşərgəsi səslərin 28 faizə yaxınını topladı. Qarabağ avantürasını seçki şüarına çevirmiş keçmiş prezident Robert Koçaryanın blokunun da parlamentdə təmsil olunacaq qədər səs toplaması ayrıca vurğulanmalıdır. Halbuki Nikol seçkini keçmişin qalıqlarını siyasi səhnədən silib atmaq meydanı kimi dəyərləndirmişdi. Mahiyyətcə, onun dediyi reallaşmadı və bu mənada, Paşinyanın təmsil etdiyi partiyanın qələbəsini, müəyyən mənada, “Pirr qələbəsi”, yəni məğlubiyyətə bərabər qələbə də adlandırmaq mümkündür.

Ermənistandakı iki destruktiv cinahın birlikdə topladıqları səslərin sayının az olmaması düşünməyə vadar edir. Paşinyan iqtidarı və onun xaricdəki tərəfdarları, bütövlükdə, Qərb aləmi düşünməlidir. Özü də vaxt itirmədən və ciddi şəkildə. Hesab edirik ki, rəhbərlik etdiyi “Mülki müavilə” seçki qalibinə çevrildikdən sonra Nikolun Azərbaycan və Türkiyə ilə sülh mesajı səslərdirməsi bu düşüncənin nəticəsidir.

Bəli, İrəvan Bakı ilə barışı institusionallaşdırmalı, paralel sürətdə Ankara ilə əlaqələrin normallaşmasında qətiyyət nümayiş etdirməlidir. Ən əsası isə Paşinyan və komandası bu iki prosesə eyni pəncərədən baxmağı bacarmalıdır. Bacarmalıdır ki, Ermənistan real fayda və mənfəət yoluna qədəm qoysun. Elə bir fayda ki, bilavasitə əhalinin güzaranında əksini tapsın.

* * *

Qərb də düşünməli və Ermənistanı yalnız kağız parçaları ilə “bəsləməməlidir”. Ümumən, ölkənin bəslənməsinə ehtiyac yoxdur. Necə deyərlər, quyuya su tökməklə sulu olmaz. Habelə, ermənilərə hazır balıq vermək yox, balıq tutmağı öyrətmək lazımdır. Bunun tək yolu isə Ermənistanın, sözün əsl mənasında, regional müstəvidə təmsilçiliyidir. Bu təmsilçilik ötən 6 ilin xoşagəlməz tendensiyasına əsaslanmamalıdır. Heç bir halda erməni amili region ölkələrinə, xüsusən, Azərbaycana və Türkiyəyə qarşı təzyiq aləti kimi istifadə edilməməlidir.

Erməni amili özünə konflikt məntiqindən kənar, dinc yaşam immuniteti qazanmalıdır. Ona görə qazanmalıdır ki, parlament seçkiləri Rusiyanın timsalında münaqişə körükçülərinin irəli gedə bildiklərini göstərdi. Nəzərə alaq ki, azacıq arxayınlıq və ehtiyatsızlıq şəraitində onlar daha böyük üstünlük qazana bilərdilər. O zaman Qərb nə edəcəkdi? Aydındır ki, uzaqdan-uzağa mənasız bəyanatlar heç nəyi dəyişdirməyəcəkdi.

* * *

Sonda yenidən M.Zaxarovanın parlament seçkilərinin Ermənistanda dərin böhranı göstərməsinə dair fikri üzərində dayanaq. Bəli, diplomat xanım haqlıdır. Ancaq onun haqqı ümiddən qaynaqlanır. Mövcud məqama aydınlıq gətirərək bildirək ki, Rusiya iyunun 7-də Ermənistan cəbhəsində yenidən məğlubiyyətlə üzləşdi. Doğrudur, 2021-ci il seçkiləri ilə müqayisədə Paşinyanın “Mülki müavilə”si bu dəfə nisbətən az səs topladı. Amma...

Məsələ ondadır ki, Rusiya 2021-ci ildə 2020-ci ilin 44 günlük müharibəsindəki acınacaqlı məğlubiyyətlə üzləşmiş hay hakim komandasına qarşı R.Koçaryanın Ermənistan Alyansını çıxarmış və bu qruplaşma səslərin 21 faizini toplamışdı. Bu dəfə koçaryançıların səs faizi 10-a çatmadı. Həm də ona görə ki, Moskva siyasi sərmayəsini Samvel Karapetyanın Güclü Ermənistan bloku üzərinə yatırmış, obrazlı desək, bir atımlıq barıta ümid bəsləmişdi. Ümid özünü doğrultmadı. Rusiyanın isə başqa Karapetyanı yoxdur. Deməli, dərin böhranı saxlamaq aləti istisnadır. Yəqin Zaxarova məhz buna görə əsəbləşir, diplomata yaraşmayan tona üstünlük verir. Nə deyək, ona yalnız su içməyi məsləhət görə bilərik.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Şengen qapısında siyasi imtahan

*(əvvəli 1-ci səhifədə)*




Son dövrlər Rusiya vətəndaşlarına verilən Şengen vizalarının sayında kəskin artım müşahidə olunur və bu Avropa İttifaqı (Aİ) daxilində siyasi müzakirələri yenidən kəskinləşdirib. Bu proses bir tərəfdən humanitar, iqtisadi və hüquqi baxımdan sərbəst hərəkət prinsipləri ilə izah olunsa da, digər tərəfdən təhlükəsizlik, geosiyasi təzyiq və Ukrayna müharibəsi fonunda siyasi narahatlıqları artırır. Avropa Parlamentinin bəzi deputatları mövcud tendensiyanın Aİ-nin ümumi siyasi xətti ilə ziddiyyət təşkil edən faktor kimi qiymətləndirir, əlavə məhdudiyyətlərin tətbiqini gündəmə gətirirlər.

Avropa Parlamentinin Latviyadan olan deputatı İnese Vayderenin mövqeyinə görə, ötən il Rusiya vətəndaşlarına Şengen zonası ölkələri tərəfindən verilən vizaların sayındakı artımın xüsusilə Fransa, İtaliya və İspaniya kimi turizm baxımından aktiv ölkələrdə daha qabarıq olması diqqət çəkir. Həmin ölkələr ənənəvi olaraq Şengen zonasının turizm axınında lider mövqedədirlər və iqtisadi maraqlar burada mühüm rol oynayır. Lakin Ukraynada davam edən müharibə və Rusiya və Aİ arasında gərgin siyasi münasibətlər fonunda bu tendensiya bəzi Avropa siyasətçiləri tərəfindən təhlükəsizlik və siyasi mesajlaşma baxımından problemli hesab edilir.

Məlumdur ki, Avropa İttifaqı 2022-ci ildən etibarən Ukraynaya geniş siyasi, maliyyə və hərbi dəstək göstərir. Bu kontekstdə Rusiya vətəndaşlarına münasibət daha sərt çərçivəyə salınıb. Daha dəqiq desək, bir çox Aİ ölkəsi artıq sadələşdirilmiş viza rejimini dayandırıb və nəzarət mexanizmlərini gücləndirib. Bununla belə, Aİ daxilində vahid və tam sərt viza siyasəti formalaşmayıb. Bəzi ölkələr təhlükəsizlik və siyasi mövqelərini ön plana çıxararaq məhdudiyyətləri sərtləşdirdiyi halda, digərləri iqtisadi maraqlar, turizm sektoru və şəxsi əlaqələri nəzərə alaraq daha yumşaq yanaşma nümayiş etdirir. Müşahidə olunan ziddiyyət Avropa İttifaqının xarici siyasətində mövcud çoxsəsliliyin və institusional balansın nəticəsi kimi yozulur.

Yeri gəlmişkən, Avropa Parlamentində səsləndirilən fikirlərə görə, Rusiya vətəndaşlarına turist vizalarının məhdudlaşdırılması bir neçə məqsədə xidmət edə bilər. Birincisi, bu addım Aİ-nin Ukrayna ilə həmrəyliyinin simvolik ifadəsi kimi təqdim olunur. Yəni Rusiya vətəndaşlarının Avropaya səyahət imkanlarının azaldılması siyasi mesaj xarakteri daşıyır. İkincisi, bəzi deputatlar hesab edirlər ki, belə məhdudiyyətlər Rusiya daxilində ictimai rəyin formalaşmasına təsir göstərə bilər. Sözügedən yanaşmaya görə, xarici səyahət imkanlarının məhdudlaşdırılması daxili siyasi narazılığı artıraraq müharibəyə ictimai dəstəyi azalda bilər. Lakin bu yanaşma elmi və siyasi dairələrdə birmənalı qəbul edilmir.

Ümumən Avropa İttifaqı ölkələri arasında Rusiya vətəndaşlarına viza siyasəti ilə bağlı ciddi fikir ayrılıqları mövcuddur. Baltikyanı ölkələr və Polşa kimi dövlətlər daha sərt məhdudiyyətlərin tərəfdarıdır və təhlükəsizlik risklərini ön plana çıxarırlar. Şübhəsiz, həmin ölkələr Rusiya ilə coğrafi yaxınlığı və tarixi-siyasi təcrübələr səbəbilə daha həssas mövqe nümayiş etdirirlər. Paralelədə Cənubi Avropa ölkələri, xüsusilə turizm sektorundan yüksək asılılığı olan dövlətlər iqtisadi zərərləri nəzərə alaraq daha yumşaq siyasət yürütməyə çalışırlar. Çünki turizm gəlirləri, hava nəqliyyatı və xidmət sektorunun gəlirləri bu ölkələr üçün mühüm iqtisadi dividend faktorudur. Bu balanssızlıq Aİ daxilində ümumi və vahid qərarın qəbulunu çətinləşdirir.

Məsələyə hüquqi kontekstdən yanaşsaq, deyə bilərik ki, Şengen viza sistemi Aİ daxilində vahid sərhəd siyasətinə əsaslansa da, vizanın verilməsi əsasən üzv ölkələrin milli konsulluqlarının səlahiyyətindədir. Bu o deməkdir ki, hər bir ölkə müəyyən çərçivə daxilində öz siyasətini tətbiq edə bilir. Yəni Avropa Komissiyası ümumi tövsiyələr və koordinasiya mexanizmləri təqdim etsə də, tam mərkəzləşdirilmiş viza siyasəti mövcud deyil. Bu səbəbdən Rusiya vətəndaşlarına verilən vizaların sayında ölkələr arasında ciddi fərqlər yaranır.

Sonda demək yerinə düşər ki, Avropa İttifaqının miqrasiya və viza siyasətində belə sərtləşdirici və selektiv yanaşmalar ilk dəfə müşahidə olunmur. Son onilliklər ərzində Aİ müxtəlif böhranlar fonunda oxşar addımlar atıb. 2015-ci il miqrasiya böhranı zamanı sərhəd nəzarətinin gücləndirilməsi, Belarus–Polşa və Baltik sərhədlərində miqrasiya təzyiqlərinə qarşı sərt məhdudiyyətlər, Əfqanıstandakı 2021-ci il hadisələrindən sonra sığınacaq siyasətində daha ehtiyatlı yanaşmalar və COVID-19 pandemiyası dövründə tətbiq olunan qlobal səyahət məhdudiyyətləri bunun bariz nümunələridir. Bu mənada, Rusiya vətəndaşlarına Şengen vizaları ətrafında gedən hazırkı müzakirələr də Avropanın miqrasiya siyasətində daha çox əvvəlki böhranlardan formalaşmış siyasi reflekslərin davamı kimi başa düşülə bilər.

**Nəzrin ELDARQIZI**
**XQ**

**Ermənistandakı seçki Rusiyanın ictimai-siyasi düşüncə industriyasının növbəti fatal məğlubiyyətidir. Özü də 3-cü məğlubiyyət. 2018, 2021-ci illər və indi. Görəsən, Rusiya niyə uduzur? Bu barədə söz açacaq, sadə həqiqətlər üzərində dayanacağıq. Hələlik isə...**

# “Vassalların üsyanı”

## *Yaxud Rusiyanın Ermənistandakı 3-cü məğlubiyyətinə sözardı*

Qərb üçüncü dəfədir ki, Ermənistan müstəvisindəki siyasi mübarizədən qalib ayrılır. Baş nazir Nikol Paşinyan iqtidarının hakimiyyətə gəlməsi ilə nəticələnmiş 2018-ci il inqilabı onun mütləq uğuru idisə, 2021-ci il qələbəsindəki rolu Rusiyanın özü oynamışdı. Bəli, məhz Rusiya. Nə qədər qəribə səslənsə də, reallıq budur.

2018-ci ildə Rusiyanın beyin mərkəzləri, loru dildə desək, seyidin cəddinə arxayın düşmənin cəzasını çəkmişdilər. 2018-2021-ci illərdəki Ermənistan–Rusiya münasibətlərinin axarı isə onu deməyə əsas vermişdi ki, ikinci birincini cəzalandırmaq niyyətindədir. Söhbət azmış uşağın yoluna qaytarılması məntiqindən gedir.

Əlbəttə, Rusiyanın sözügedən məntiqi işə salması Azərbaycanla bağlıdır. Ölkəmiz 44 günlük müharibədə Ermənistanı acınacaqlı məğlubiyyətə uğratdı. Rus düşüncə sistemi isə belə bir ideya ortaya atdı: bizdən uzaqlaşıb Qərbə sığınmasaydınız, məğlub olmayacaqdınız. Mövcud xüsusda erməni iqtidarı aşağılandı. Ancaq rus ictimai rəyi nəzərə almadı ki, hay iqtidarını seçən xalqdır. O xalq ki, Paşinyanı yüksək kürsüyə ruspərəst Qarabağ xuntasına nifrət etdiyi üçün gətirmişdi. Deməli, aşağılanan, eyni zamanda, erməni xalqı oldu.

Bəli, erməni xalqı özünə olan bu rəftardan bezdiyi üçün 2020-ci ildə müharibədə məğlubu olmuş Paşinyanı 2021-ci ildə də dəstəklədi. Bu dəfə aşağılamaq növbəsi Nikola çatdı. O, növbədənkənar seçki keçirib Rusiyaya, daha doğrusu, Rusiyanın Ermənistandakı boğazdanyuxarı populist qulbeçələrinə, saxta vətənpərvərlərinə yerlərini göstərdi.



Paşinyan 2022-ci ildə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımaqla, Kremlin Ermənistana keçirdiyi Qarabağ boyunduruğunu ölkənin boğazından çıxardı. Maraqlıdır ki, Moskva buna reaksiya vermədi, heç nə olmamış kimi davrandı. Çox güman, ümid etdi. Ümid etdiyinə görə də, Qarabağa Ruben Vardanyan kimi ələltisini göndərdi. Bu yolla həm Qarabağ avantürasını saxlamağa, həm də tarixi təkrarlamağa çalışdı. Axı Ermənistanda hakimiyyətin “Qarabağ kartı” ilə ələ keçirilməsi “ənənəsi” olub. Söhbət 1998-ci ildə müharibə canisi, uşaq qatili Robert Koçaryanın prezident postuna yiyələnməsindən gedir.

Əlqərəz, Azərbaycan 2023-cü ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri ilə Qarabağ üzərindəki faktiki hakimiyyəti bərpa etdi, bölgədəki separatçı rejimə son qoydu. Vardanyan və rejimin digər başbilənlərinin yolu hələ də məhbus həyatı yaşadıqları və yaşayacaqları Bakı həbsxanasına düşdü. Rusiyadakı solovyovlar və digər beyin qıcqırması keçirənlər isə erməni xalqını təhqir etməyə girişdilər. Rəsmi Moskvaya gəlincə, o, 2022-ci ili yada saldı və bəyan etdi ki, erməni iqtidarı Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımaqla səhvə yol vermişdi. Sanki tanımalı deyilmiş. Deməli, ayının min oyunu bir armudun başında imiş. Yəni Qarabağın.

Beləliklə, Rusiyanın ictimai rəyi 2021-ci ildə buraxdığı səhvi 2023-cü ildə də təkrarladı. Ona görə təkrarladı ki, erməni xalqının ayağa qalxıb Paşinyan iqtidarını devirəcəyinə ümid bəslədi. Ölkənin təbliğat maşınının başında dayananların Nikolu Qarabağı Azərbaycana satan qismində təqdim etmələri də bu ümiddən qaynaqlandı. Lakin Paşinyan və tərəfdarları boş dayanmadılar. Onlar 44 günlük müharibədəki məğlubiyyətə görə Moskvanı qınadıqları kimi, Qarabağın itirilməsinə görə də eyni addımı atdılar, üstəlik, Rusiyanın Ermənistanın təhlükəsizlik tələbatlarını ödəmədiyini qabartmağa başlayaraq, əslində, 2022-ci ildən start verdikləri xətti gücləndirdilər.

Ayrıca onu da deyək ki, erməni iqtidarının anti-Rusiya xətti özünü İrəvanın Kremlin hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə ziddiyyətləri fonunda göstərdi. Paşinyan hakimiyyəti KTMT-nin fəaliyyətini boykot etdi, qurumdakı üzvlüyünü dondurdu. Yeri gəlmişkən, həmin don hələ də açılmayıb...

Mahiyyət budur ki, Ermənistan 2018-ci ildən Rusiyanın aşağılayıcı rəftarına cavab verir. Klassik imperialist baxışa əsaslanmış rəftarın məqsədi isə ölkəni yenidən Kremlin orbitinə qaytarmaqdır. Yəni ötən müddətdə Rusiya Ermənistana özünün hegemon obrazını göstərmək istəyib və dolayısı ilə itaətə səsləyib. Hələ bu, azmış kimi, “bizsiz sizi məhv edərlər” mesajını da verib. Məhz bu səsləyiş və mesaj erməni cəmiyyətinin və sıravi hayların heysiyyatına toxunub.

Rusiyanın Ermənistanı Kremlin orbitinə qayıtmaq yönümlü çağırışlarının hamısında hayların vassal, imperiyanın sadiq qulları obrazı canlanıb. XXI əsr və belə bir baxış. Həqiqətən, yolverilməzdir. Ancaq daha acınacaqlısı Rusiyanın düşüncə sisteminin mövcud mahiyyəti dərk etməyəcək qədər iflic durumda olmasıdır.

Bəli, şantaj, aşağılayıcı rəftar və nalayiq münasibət Rusiya düşüncə sisteminin Ermənistanı “qonaq etdiyi” ənənəvi “məhsullar” olub. Moskva 7 iyun parlament seçkiləri ərəfəsində də eyni dəst-xətti qorudu. Bu dəfə hay elektoratı “Azərbaycan və Türkiyə təhlükəsi” ilə yanaşı, İrəvanın üzv olduğu Avrasiya İqtisadi İttifaqının Ermənistana faydalarının aradan qalxacağı ilə qorxuduldu. Ancaq bu ritorika tamamilə əks effekt yaratdı.

Diqqət yetirək, parlament seçkilərinə iki-üç ay qalmışadək, habelə 2026-cı ilin əvvəlinin hesablamalarına görə, Paşinyan iqtidarının reytinqi aşağı idi. Hətta bununla bağlı hakim komandada həyəcan təbili çalanlar da var idi. Doğrudur, Nikol və tərəfdarlarının aktiv seçkiqabağı təbliğat aparmaları öz sözünü dedi. Amma böyük ölçüdə, hazırkı erməni hakimiyyətinin 7 iyun seçkilərindəki qələbəsi onun anti-Rusiya köklənişi ilə bağlı oldu.

Bəli, Rusiya Paşinyan iqtidarına qarşı təbliğatı gücləndirdikcə, onun Ermənistandakı tərəfdarlarının reytinqi aşağı düşdü. Digər tərəfdən, Moskvanın AİI müstəvisindəki şantajları və həmin şantajlara cavablar, xüsusən, müstəqil Ermənistan dövlətçiliyi təbliğatı Nikolun nüfuzunu əhəmiyyətli dərəcədə yüksəltdi.

Yekun nəticə budur ki, Rusiyanın siyasi düşüncə industriyasının Ermənistan müstəvisindəki 3-cü, özü də fatal məğlubiyyətinin günahkarı elə həmin industriyanın özüdür. Ümumən, Rusiya ictimai rəyinin təmsilçiləri ölkələrini keçmiş SSRİ olaraq görməkdən uzaq durmalıdırlar. Uzaq durmalı və nəzərə almalıdır ki, postsovet məmləkətlərinin, o cümlədən Ermənistanın onlara heç bir borcu yoxdur. Məsələn, Rusiyada düşünməlidirlər ki, Ermənistan Qərbə yaxınlaşırsa, Avropa İttifaqına meyil göstərirsə, bu meylin qarşısını şantaj və Vladimir Solovyov kimi media tör-töküntülərinin təhqirləri ilə yox, əməli işlə almaq lazımdır.

Bu gün Rusiyanın dövlət telekanalında kimsə efirə çıxıb Ermənistana 500 xüsusi təyinatlı göndərib hakimiyyəti devirməkdən danışırsa, əlbəttə, bu, əməli iş yox, xalis sərsəmlikdir. Əməli iş, ilk növbədə, bərabərtərəfli, qarşılıqlı hörmətə və etimada əsaslanan münasibətlərin qurulmasından, hansısa dominant mövqeyə iddia etməməkdən keçir. Rusiyaya belə yanaşma hakim kəsilməyənədək, ölkə hələ çox məğlubiyyətlərlə üzləşəcək.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Yeni Cənubi Qafqaz gerçəkliyi



IV MƏQALƏ

## Regional bağlılığın geosiyasi mexanizmləri

Cənubi Qafqazda yeni geosiyasi gerçəklik kontekstində bir prinsipial məqam mövcuddur. Azərbaycanın fəaliyyəti sayəsində bu regionda geosiyasi düzən formasının yerli ölkələrin bir-biri ilə münasibətləri əsasında yaradılması tarixi keçidi ifadə edir. Həmin faktordan regionda yeni sayılan bütün özəlliklər qaynaqlanır. O cümlədən geosiyasi səviyyədə konseptual əhəmiyyət daşıyan "regional bağlantılar" tezisinin məna çalarları bu gerçəklik fonunda əhəmiyyətliliyini göstərir.

Bir daha xatırlatmaqda fayda var ki, bu regional yeniliyin təməlini Azərbaycan Prezidentinin XIII Qlobal Bakı Forumunda irəli sürdüyü aşağıdakı tezis təşkil edir. Dövlət başçımız demişdir: "Mövcud çağırışlar kontekstində bu gün əhatə etmək istədiyim üçüncü mövzu isə bağlılıqdır. Biz görürük ki, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur və bu, həm insanlar, həm ölkələr, həm iqtisadiyyat, həm də tədarük zəncirləri üçün böyük çətinliklər yaradır. Bağlılıq və nəqliyyat marşrutları pozulduqda dünya ölkələrinin əksəriyyəti çox çətin vəziyyətlə üzləşir".

Bu fikirlərdən məntiqi olaraq gəldiyimiz bir qənaəti təkrar vurğulamaq istərdik: "Cənubi Qafqaz regionunda yerləşən ölkələrin sülh, barış və əməkdaşlıq naminə bir-birinə bağlılığın geosiyasi və siyasi mexanizmlərini razılaşdırmaları aktuallaşır".

Ölkə başçısının konseptual olaraq müəyyən etdiyi tezisin praktiki proyeksiyası region dövlətlərinin bir-birinə gerçək bağlılığını təmin edə biləcək mexanizmlərin razılaşdırılması bu səbəbdən ciddi anlam kəsb edir. Həmin mexanizmlər nələrdən ibarətdir?

Bu sualın cavabına çıxış Prezident İlham Əliyevin aşağıdakı tezisindən edilə bilər. Bu tezisi İlham Əliyev dəfələrlə müxtəlif tədbirlərdə ifadə etmişdir. Elə bu cəhət Azərbaycan liderinin vurğulanan məsələdə dərin düşünülmüş və ardıcıl həyata keçirilən konkret fəaliyyət xəttinin mövcudluğundan xəbər verir. Yəni "regional bağlantı" nəzəri-konseptual izahı ilə yanaşı, praktiki-tətbiqi aspekti də özündə ehtiva etməkdədir.

## Enerji təhlükəsizliyi və qlobal nizam

XIII Qlobal Bakı Forumunda Prezident İlham Əliyev vurğulamışdır: "Xüsusilə indi paylaşa biləcəyimiz digər vacib bir təcrübə enerji təhlükəsizliyidir, hansı ki, hazırda müəyyən dərəcədə pozucu təsir göstərir. Biz görürük ki, neft və qaz qiymətlərinin kəskin yüksəlişi yalnız istehlakçılar üçün deyil, geniş mənada, bir çox problemlər yaradır. Kimsə düşünürsə ki, bu tarazlaşdırılmamış qiymət neft istehsalçıları və ixracatçıları üçün faydalıdır, bu yanlışdır. Çünki bir çox ölkələrin, neft və digər faydalı yanacaq istehsal və ixrac edən ölkələrin suveren fondları var və bu fondlar müxtəlif maliyyə alətlərinə, o cümlədən istiqrazlara investisiya qoyurlar. Birjalar çökdükdə isə bu ölkələr yüksək neft qiymətindən qazandıqlarından daha çox itkiyə məruz qalırlar. Buna görə də biz OPEC+ formatının məsuliyyətli üzvü olaraq, tarazlı və proqnozlaşdırılabilən neft qiymətinin tərəfdarıyıq, ortaq həllin tapılmasına böyük səylər göstərmişik və OPEC+-dakı vasitəçilik fəaliyyətimiz yüksək qiymətləndirilir".

Burada Azərbaycan liderinin çox incə və obyektiv formada enerji təhlükəsizliyi ilə qlobal təhlükəsizlik arasında disbalansın yaranmasının risklərini önə çıxarır. Enerji təhlükəsizliyi – milli təhlükəsizlik zənciri kontekstində vurğulanan aspekt olduqca maraqlıdır. O cümlədən enerji daşıyıcılarının süni qiymətləndirilməsinin bütövlükdə dünya təhlükəsizlik sisteminə ciddi zərər verməyə başlaması məsələsi daha da aktuallaşır.

Bu məqam Prezident İlham Əliyevin aşağıdakı fikirlərində dəqiq ifadə edilmişdir. Dövlət başçısı demişdir: "Bu gün enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsi olaraq əvvəllər heç vaxt olmadığı qədər önəm daşıyır. Azərbaycan bütün enerji seqmentlərinin – neft, qaz, neft məhsulları, neft-kimya məhsulları və elektrik enerjisinin istehsalı və ixracı ilə məşğuldur. Bazarda tələb və tədarük coğrafiyasının genişlənməsi ilə bağlı biz ixracımızı, xüsusilə təbii qaz və elektrik enerjisinin ixracını artırmağı planlaşdırırıq... Boru kəmərləri vasitəsilə təbii qaz ixracatçısı kimi, ölkələrin coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir. İxrac həcmi artmaqda davam edir və artacaq, bu isə bir çox ölkə üçün enerji təhlükəsizliyi baxımından mühüm amildir. Azərbaycan beynəlxalq bazara etibarlı neft təchizatçısı kimi enerji təhlükəsizliyinə töhfəsini verməyə davam edəcək".

Buradan üç nəticə çıxara bilərik.

## Prinsipial mövqe

Birincisi, Azərbaycan Cənubi Qafqazda sülhü təmin edən prinsipial mövqeyinin siyasi təcrübə kimi regionlararası və qlobal miqyasda proyeksiya edilməsinin faydalı olacağını təklif edir. Başlıca prinsiplərdən biri kimi isə dünyanın güclü dövlətlərinin enerji məsələsinə obyektiv, səmimi və ədalətli yanaşmasını götürür.

İkincisi, Azərbaycan qlobal nizamın formalaşmasında enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin vəhdətini başlıca şərtlərdən biri kimi görür. Burada xüsusi olaraq enerji təhlükəsizliyinin motivəedici rolu qabardılır. Məsələ onunla əlaqəlidir ki, hazırda dünyanın böyük gücləri məhz enerji faktorunu münasibətlərində əsas hesab edirlər.

ABŞ, Çin və Rusiya geniş anlamda enerji daşıyıcıları və onların nəqli ilə bağlı amansız mübarizə aparırlar. İndi sirr deyil ki, Qərb başda ABŞ olmaqla Rusiyadan yan keçən marşrutlar üzrə müxtəlif enerji daşıyıcılarını nəql etmək strategiyasını seçmişdir. Bu prosesin Qafqaz və Mərkəzi Asiyada əlamətlərini hamı görür.

## Azərbaycanda enerji keçidi

Təsadüfi deyildir ki, Avropa İttifaqı Mərkəzi Asiya siyasətini "Böyük keçid" adlandırmışdır. Bu siyasət enerji strategiyasını şaxələndirmək əsasında Mərkəzi Asiyanı Cənubi Qafqaz üzərindən Avropa ilə əlaqələndirən qlobal tranzit xətlərini genişləndirməyi əsas hədəf hesab edir. Azərbaycan özünün enerji ehtiyatları ilə yanaşı, enerji siyasəti ilə həmin prosesdə çox ciddi rol oynayır. Bu baxımdan Azərbaycan Prezidentinin "sərbəst enerji gücü" ifadəsi konseptual və praktiki aspektlərdə çox əhəmiyyətlidir. Sərbəst enerji gücü Azərbaycanın enerji resursları, onların nəqli, logistikası və bağlantıları maksimum dərəcədə geniş məkanda həyata keçirmək qabiliyyətini ifadə edir.

Bununla da konseptual səviyyədə əhəmiyyəti olan maraqlı əlaqələr şəbəkəsi yaranmışdır – enerji daşıyıcıları – onların nəqli – logistik xidmət – sərbəst enerji gücü zəncirində vasitəçisiz sülh konseptinə uyğun geniş geosiyasi və coğrafi məkanda enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin uzlaşdırılmasına nail olmaq! Bu prosesdə rəqəmsallıq və süni intellektin imkanlarının vahid konstruktiv məntiq çərçivəsində uğurlu tətbiqi Azərbaycanın sülhyaradıcı missiyasının mühüm əlamətlərindən biri kimi qəbul edilməlidir.

## Böyük güclərin münasibəti

Azərbaycanın öz siyasi təcrübəsi əsasında regionun geosiyasi mənzərəsini yeniləşdirmək xəttinə böyük güclərin münasibəti də çox əhəmiyyətlidir. Burada bir ayırıcı xətt mövcuddur. Vətən müharibəsinə qədər və ondan sonra bir neçə il Qərbin böyük və güclü dövlətləri, faktiki olaraq, Azərbaycanın uğurlarını legitim saymamaq xəttini tutdular. Postmüharibə mərhələsinin başlanğıcında onun təsirini hər kəs hiss etdi.

Yalnız Azərbaycan Prezidentinin prinsipial sülh mövqeyi tutması və bu zaman beynəlxalq hüquqa tam əməl etməsi qarşı tərəfi tədricən haqq mövqeyinə gətirdi. 2025-ci il Vaşinqtonda ratifikasiya edilən sənəd bu prosesin Qərb üçün kulminasiya nöqtəsi oldu. Onlar əmin oldular ki, Azərbaycanın regional miqyasda yaratdığı yeni geosiyasi gerçəkliyi qəbul etməkdən başqa yol yoxdur. Çünki əks halda, bütün tərəflər ciddi zərərə düşəcək.

Bu gedişatda rəsmi İrəvanın daha ölçülü-biçili mövqe tutması və tədrici olaraq Azərbaycanın şərtlərinə uyğun siyasət yeritməyə başlaması da öz təsirini göstərdi. İndi Ermənistan açıq şəkildə regional məsələlərdə Azərbaycan-Türkiyə birliyinə daha çox üstünlük verdiyini ifadə edir. Bununla yanaşı, proseslərin tam müsbət məcrada olduğu barədə qənaət əldə etmək riskli görünür. Onun başlıca səbəbi Aİ və Rusiyanın son zamanlar regional proseslərə müdaxiləsində hiss edilən qeyri-müəyyənliklə bağlıdır.

Avropa Ermənistanda parlament seçkilərinə təsir etməyə çalışır. Bunun üçün Azərbaycan-Ermənistan münasibətlərinə müəyyən dərəcədə neqativ əhval gətirməyə cəhdlər göstərir. Bir sıra Avropa ölkəsindən "mülki missiya", "seçki müşahidəçiləri" və s. adlarla geosiyasi mənzərəni "bulandırırlar". Bunun fonunda rəsmi Bakının erməni revanşistlərə xəbərdarlığı vaxtında atılmış vacib addım kimi görünür.

Digər tərəfdən, Moskvanın İrəvana təzyiqləri özünü göstərir. Birbaşa hədəf N.Paşinyanın, yoxsa onun rəqiblərinin seçilməsi olsa da, yekunda Cənubi Qafqazda geosiyasi mənzərəni yeniləşdirən və Azərbaycanın təşəbbüslərindən qaynaqlanan prosesləri neytrallaşdırmaq niyyəti duyulur.

Bunlardan çox vacib ümumi qənaət əldə etmək olar.

## Alternativsiz sülh modeli

Cənubi Qafqazın yeni geosiyasi gerçəkliyində Azərbaycanın təklif etdiyi nümunənin alternativinin olmadığını regional və qlobal dairələr anlamağa başlamışlar. Bakı faktiki olaraq müasir geosiyasi dinamikanın bütün aspektlərini nəzərə alan müsbət nəticəverici bir model irəli sürmüşdür. Onun təməlində vasitəçisiz sülhə nail olmaq konsepti dayanır. Bütün digər birləşdirici və inteqrativ xarakterli faktorlar bu təməl üzərində bərqərar olur. Onların sırasında Azərbaycan Prezidentinin müxtəlif əməkdaşlıq və təhlükəsizlik platformalarını reallaşdırması, qarşılıqlı faydalı əlaqələrə üstünlük verməsi ayrıca yer tutur.

Bunlara paralel olaraq Azərbaycan regionlararası və qlobal səviyyələrdə əməkdaşlıqla təhlükəsizliyin qarşılıqlı əlaqədə təmininə xidmət edən addımlar atmaqdadır. İndi Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası bu baxımdan diqqətləri daha çox çəkir. Bu forum 2001-ci ildən təşkil edilir və müasir urbanizasiyanın aktual məsələlərini əhatə edir. Ona bu il Azərbaycan ev sahibliyi edir. Bakıda keçirilən tədbiri qısaca olaraq WUF13 adlandırırlar. Həmin tədbir çərçivəsində Türk dünyası həftəsinin keçirilməsi də nəzərdə tutulmuşdur.

Belə görünür ki, Azərbaycan enerji, nəqliyyat, logistika, təhlükəsizlik, iqlim kimi sferalarla yanaşı, rəqəmsallıq və süni intellektlə sıx bağlı olan urbanizasiya aspektində də dünyanı bir araya gətirən tədbir həyata keçirir. Geosiyasi kontekstdə bu, əlbəttə, Azərbaycanın yeritdiyi ümumi sülhyaradıcı və əməkdaşlıq xəttinin növbəti nümunəsidir.

Onu nəzərə almaq gərəkdir ki, dünyanın hər yerində ixtilafların yer aldığı bir mərhələdə Azərbaycanın yeni səviyyədə birləşdirici və sülhyaradıcı rol oynaması ciddi hadisədir. Bu qənaətin prizmasında Cənubi Qafqazda yeni geosiyasi gerçəkliyin formalaşması geridönməz və uğurlu bir proses təsiri bağışlayır!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Suverenlik, vizasız rejim və siyasi ixtilaflar

## *Gürcüstanla Avropa İttifaqı arasında gərginlik səngimir*

**Gürcüstan–Avropa İttifaqı (Aİ) münasibətləri mürəkkəb mərhələyə qədəm qoyub. Bir tərəfdən, Tbilisi Avropa inteqrasiyasını ölkənin əsas xarici siyasət prioritetlərindən biri kimi təqdim edir, digər tərəfdən isə, Avropa institutları ilə münasibətlərdə fikir ayrılıqları müşahidə olunur. Xüsusilə vizasız rejim, Rusiyaya qarşı sanksiyalar və dövlət suverenliyi məsələləri ətrafında yaranan mübahisələr tərəflər arasında qarşılıqlı etimadı zəiflədir.**

Gürcüstan parlamentinin sədri Şalva Papuaşvilinin fikrincə, Aİ vizasız rejim məsələsindən texniki əməkdaşlıq mexanizmi kimi deyil, siyasi təsir və təzyiq aləti kimi istifadə edir. Spiker hesab edir ki, Brüssel tərəfindən Gürcüstana yönəldilən bəzi tələblər vizasız gediş-gəliş üçün müəyyən edilmiş meyarlardan kənara çıxır, ölkənin daxili və xarici siyasətinə müdaxilə xarakteri daşıyır. Bu baxımdan Gürcüstan rəhbərliyi məsələni yalnız viza siyasəti deyil, eyni zamanda, dövlət suverenliyi məsələsi kimi qiymətləndirir.

Göründüyü kimi, mübahisələrin əsas səbəblərindən biri viza məsələsidir. Son dövrlər Çin vətəndaşları üçün tətbiq olunan vizasız rejim Avropa institutlarının diqqət mərkəzində olub və müəyyən narahatlıq yaradıb. Tbilisi hesab edir ki, Çinlə iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi ölkənin inkişaf maraqlarına xidmət edir. Turist axınının gücləndirilməsi, investisiyaların cəlb olunması və yeni biznes imkanlarının yaradılması dövlət siyasətinin mühüm istiqamətlərindəndir. Buna görə də Gürcüstan rəsmiləri Aİ-nin bu sahədəki narahatlıqlarını ölkənin müstəqil qərarvermə hüququna müdaxilə kimi qəbul edirlər.



Digər tərəfdən, cari müzakirələrin mərkəzində duran və Gürcüstan cəmiyyəti üçün daha həssas olan məsələ Aİ-yə üzv dövlətlərlə mövcud olan vizasız gediş-gəliş rejiminin gələcək taleyidir. 2017-ci ildən etibarən Gürcüstan vətəndaşları Şengen zonasına daxil olan ölkələrə vizasız səfər etmək hüququ qazanıblar. Bu status ölkənin Avropaya inteqrasiyası və xarici siyasət tarixində ən mühüm tarixi nailiyyətlərdən biri hesab olunur. Ona görə də son vaxtlar Qərb mətbuatında və siyasi kulislərdə bu liberal rejimin müvəqqəti dayandırılması ehtimalı ilə bağlı yayılan məlumatlar Gürcüstan daxilində ciddi ictimai-siyasi narahatlıq və rezonans doğurub. Rəsmi Tbilisi bu məsələyə münasibətdə xüsusi vurğulayır ki, vizasız rejim barədə qərarlar yalnız əvvəlcədən müəyyən edilmiş texniki meyarlar və hüquqi öhdəliklər əsasında qiymətləndirilməlidir. Cari siyasi fikir ayrılıqları isə nəzərə alınmamalıdır. Tbilisinin qənaətinə görə, əgər bu humanitar və hüquqi mexanizm birtərəfli siyasi təzyiq və ya sanksiya vasitəsinə çevrilərsə, bu addım Aİ-nin özünün bəyan etdiyi fundamental prinsiplərə, demokratik dəyərlərə və tərəfdaşlıq ruhuna zidd olacaq.

Münasibətlərdəki gərginliyin digər istiqaməti Avroparlamentin və müxtəlif Avropa institutlarının Gürcüstandakı demokratik proseslərlə bağlı tənqidi mövqeyidir. Son illər qəbul edilmiş qətnamələrdə insan hüquqları, qanunun aliliyi, media azadlığı və demokratik institutların fəaliyyəti ilə bağlı narahatlıqlar ifadə olunub. Rəsmi Tbilisi hesab edir ki, bəzi Avropa siyasətçiləri Gürcüstanın daxili siyasi proseslərinə təsir göstərməyə çalışır və ölkənin inkişafına mane olan mövqe nümayiş etdirirlər.

Bu fonda Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin açıqlamaları da diqqət çəkir. O, Aİ-ni demokratik prinsiplərə selektiv yanaşmaqda ittiham edərək ikili standartların mövcud olduğunu bildirib. "Xalqı yerli agentlər vasitəsilə vizasız rejimin ləğvi ilə hədələdikdə, bu, Avropa bürokratiyasında və yerli agentlər arasında yaranmış mürəkkəb vəziyyətdən xəbər verir. Onlar təzyiq və hədə-qorxu ilə heç bir nəticə əldə edə bilməyəcəklər, çünki cəmiyyət artıq nələrin baş verdiyini çox gözəl anlayır. Ona görə də şantaj heç bir halda işə yaramayacaq", – deyə Kobaxidze bildirib.

Bununla yanaşı, Gürcüstan Aİ ilə münasibətlərin tamamilə pozulmasında maraqlı deyil. Həm hakimiyyət, həm də cəmiyyətin əhəmiyyətli hissəsi Avropa ilə əməkdaşlığı davam etdirmək istəyir. Buna görə də tərəflər arasında aparılan danışıqlar və texniki görüşlər münasibətlərin gələcəyi baxımından əhəmiyyətlidir. Bugünlərdə Brüsseldə keçiriləcək müzakirələr yalnız viza məsələsinin deyil, ümumilikdə, Gürcüstan–Aİ münasibətlərinin gələcək istiqamətlərinin müəyyənləşdirilməsi baxımından vacib hesab olunur.

Aydın məsələdir ki, Gürcüstan ilə Aİ arasında yaranmış fikir ayrılıqları tərəflərin strateji maraqlarının üst-üstə düşmədiyini göstərir. Tbilisi dövlət suverenliyini və milli maraqları ön plana çıxarmağa çalışdığı halda, Brüssel demokratik standartlar və ümumi Avropa siyasətinə uyğunluq məsələlərinə xüsusi diqqət yetirir.

Maraqlıdır ki, Brüsselin Tbilisi ilə münasibətləri ilə onun Azərbaycana yanaşmasında fərqli cəhətlərlə yanaşı, oxşar cəhətlər də var. Məsələn, Azərbaycan–Aİ münasibətləri son onilliklərdə siyasi, iqtisadi, enerji və humanitar sahələrdə inkişaf edərək strateji əməkdaşlıq səviyyəsinə yüksəlib. Bununla belə, əlaqələr problemsiz deyil, xüsusilə insan hüquqları və demokratik idarəetmə, Avropa Parlamentinin qərəzli qətnamələri, enerji əməkdaşlığı fonunda siyasi fərqliliklər və Ermənistan–Azərbaycan münasibətləri ilə bağlı yanaşmalar zaman-zaman fikir ayrılıqları yaradıb.

Avropa Parlamentinin Azərbaycanla bağlı qəbul etdiyi bəzi qətnamələr münasibətlərdə narazılıq yaradır. Azərbaycan tərəfi bu sənədlərin obyektivlikdən uzaq olduğunu, regiondakı reallıqları tam əks etdirmədiyini bildirir. Bu, müəyyən dövrlərdə siyasi gərginliyə səbəb olsa da, dialoq kanalları açıq saxlanılır. Enerji əməkdaşlığı isə münasibətlərin ən güclü tərəfi olaraq qalır. Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verir və qaz ixracı vasitəsilə bazarların şaxələndirilməsində mühüm rol oynayır. Bununla belə, enerji sahəsində əməkdaşlıq siyasi müstəvidə tam razılaşma demək deyil və tərəflər arasında fərqli yanaşmalar qalmaqdadır. Bunlar isə Aİ-nin hər iki ölkəyə münasibətində oxşar cəhətlərdir. Ümumilikdə, Azərbaycan–Aİ münasibətləri əməkdaşlıq və fikir ayrılıqlarının paralel mövcud olduğu mürəkkəb tərəfdaşlıq modelidir. Enerji, ticarət və regional sabitlik kimi ortaq maraqlar isə dialoqun davam etdirilməsini şərtləndirir.

Mövzu ilə bağlı XQ-yə danışan **gürcüstanlı professor Mahmud Kamaloğlunun** fikrincə, Gürcüstan ilə Aİ arasında son



dövrlər müşahidə olunan gərginlik təkcə ikitərəfli münasibətlərin deyil, ümumilikdə, region ölkələrinin Qərb inteqrasiyası prosesində qarşılaşdığı struktur problemlərin təzahürüdür. Onun qənaətinə görə, rəsmi Tbilisinin suverenlik və milli təhlükəsizlik arqumentlərini ön plana çıxarması Gürcüstanın xarici siyasətində daha praqmatik və ehtiyatlı xətt formalaşdırdığını göstərir: "Aİ-nin Rusiyaya qarşı sanksiyalar, vizasız rejim və maliyyə şəffaflığı kimi sahələrdə irəli sürdüyü tələblər Gürcüstan tərəfindən siyasi xarakterli müdaxilə kimi qəbul edilir və bu da tərəflər arasında etimadın zəifləməsinə səbəb olur. Gürcüstanın nə Aİ ilə əlaqələri kəsmək, nə də Qərbə inteqrasiya kursundan imtina etmək niyyəti var. Əsas məsələ milli təhlükəsizlik maraqları ilə Avropa inteqrasiyası arasında balansın tapılmasıdır və yaxın dövrdə Gürcüstan xarici siyasətinin əsas istiqaməti məhz bu balansın qorunması olacaq".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Qlobal "Bakı Enerji Həftəsi 2026": Enerji və geoiqtisadi güc qovşağı

**Azərbaycan iqtisadiyyatının mühüm xüsusiyyətlərdən biri bütün əsas sahələrdə artımın davamlı olmasıdır. Qeyri-neft sənayesi, nəqliyyat-logistika, informasiya-kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, turizm və xidmət sektorunda əldə olunan nəticələr iqtisadi şaxələndirmə istiqamətində həyata keçirilən islahatların real nəticələr verdiyini göstərir. Bu gün ölkəmiz artıq regional logistika qovşağı, nəqliyyat dəhlizlərinin əsas iştirakçılarından biri və yeni sənaye potensialı formalaşdıran iqtisadi sistem kimi çıxış edir.**




Bu inkişaf modelinin əsasında ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış strateji enerji siyasəti dayanır. Məhz onun uzaqgörən baxışı nəticəsində enerji ehtiyatları həm gəlir mənbəyi, həm də ölkənin uzunmüddətli iqtisadi inkişafının, dövlət müstəqilliyinin möhkəmləndirilməsinin və beynəlxalq iqtisadi inteqrasiyasının əsas aləti kimi qiymətləndirilmişdir. Bu gün Azərbaycanın enerji resurslarını iqtisadi transformasiya kapitalına çevirmək istiqamətində həyata keçirdiyi siyasət həmin strateji kursun Prezident İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun şəkildə davam etdirilməsinin nəticəsidir.

Eyni zamanda, enerji sektoru ölkənin inkişaf strategiyasında xüsusi yer tutmağa davam edir. Bunun əsas səbəbi enerji resurslarının Azərbaycanın ən böyük müqayisəli üstünlüklərindən biri və uzunmüddətli inkişaf kapitalı olması ilə yanaşı, qlobal iqtisadiyyatın yeni inkişaf mərhələsində enerjinin strateji əhəmiyyətinin daha da artmasıdır. Süni intellekt, məlumat mərkəzləri (data centres), bulud texnologiyaları, rəqəmsal xidmətlər, elektromobillər və yüksək texnologiyalı istehsal sistemlərinin sürətli inkişafı enerji tələbatını yeni səviyyəyə yüksəldir. Beynəlxalq Enerji Agentliyinin qiymətləndirmələrinə görə, yaxın onilliklərdə elektrik enerjisinə artan tələbin əsas mənbələrindən biri məhz rəqəmsal iqtisadiyyat olacaq. Belə şəraitdə enerji artıq texnoloji rəqabət qabiliyyətinin, sənaye inkişafının və iqtisadi təhlükəsizliyin əsas strateji resurslarından birinə çevrilir. Azərbaycanın enerji sektoruna verdiyi xüsusi önəm də məhz bu qlobal iqtisadi reallıqdan qaynaqlanır.

Eyni zamanda, iqtisadi nəzəriyyələr göstərir ki, ölkələrin dayanıqlı inkişafı mövcud üstünlükləri yeni iqtisadi imkanlara çevirməklə təmin olunur. Azərbaycanın yanaşması da məhz buna əsaslanır. Enerji sektoru iqtisadiyyatın digər sahələrinin inkişafını maliyyələşdirən, iri infrastruktur layihələrinin reallaşdırılmasını təmin edən, xarici investisiyaları cəlb edən və ölkənin beynəlxalq iqtisadi mövqeyini gücləndirən strateji baza rolunu oynayır.

Məhz buna görə "Bakı Enerji Həftəsi" təkcə enerji sənayesinə həsr olunmuş tədbir deyil. Bu platforma Azərbaycanın enerji resursları hesabına formalaşdırdığı yeni iqtisadi modelin, geoiqtisadi hədəflərin və uzunmüddətli inkişaf strategiyasının təqdim olunduğu mühüm beynəlxalq iqtisadi forum kimi çıxış edir.

## "Bakı Enerji Həftəsi"nin əhəmiyyəti

Müasir qlobal iqtisadiyyatda beynəlxalq forumlar və sərgilər biznes əlaqələrinin qurulduğu, investisiya axınlarının istiqamətləndirildiyi və yeni tərəfdaşlıqların formalaşdığı mühüm mexanizmlərdir. Belə platformalar investorlar, enerji şirkətləri, maliyyə institutları və hökumətlər arasında informasiya mübadiləsini genişləndirir, yeni layihələrin maliyyələşməsini asanlaşdırır və davamlı iqtisadi əməkdaşlıq üçün əlverişli mühit yaradır.

Bu baxımdan "Bakı Enerji Həftəsi" Azərbaycanın enerji sektorunun təqdimatı ilə məhdudlaşmır. Tədbir ölkənin investisiya cəlbediciliyinin, enerji və nəqliyyat infrastrukturunun, eləcə də gələcək inkişaf istiqamətlərinin beynəlxalq investorlar üçün nümayiş etdirildiyi mühüm iqtisadi platformadır. Burada formalaşan tərəfdaşlıqlar və aparılan müzakirələr yeni investisiya qərarlarına, texnologiya transferinə və uzunmüddətli layihələrin reallaşmasına təkan verir.

Əslində, "Bakı Enerji Həftəsi"nin əsas üstünlüyü onun daha çox platforma xarakteri daşımasındadır. Müasir nəzəriyyələr göstərir ki, qlobal iqtisadi sistemdə ən yüksək əlavə dəyər müxtəlif iqtisadi iştirakçıları bir araya gətirən platformaların formalaşdırılmasından yaranır. Bu baxımdan "Bakı Enerji Həftəsi" enerji şirkətlərini, maliyyə institutlarını, investorları və texnologiya təchizatçılarını eyni məkanda birləşdirən çoxtərəfli əməkdaşlıq platforması kimi çıxış edir.

Belə platformaların iqtisadi əhəmiyyəti bir neçə istiqamətdə özünü göstərir. Birincisi, onlar investisiya axınlarını sürətləndirir. Beynəlxalq təcrübə göstərir ki, iri enerji və infrastruktur layihələrinin əhəmiyyətli hissəsi məhz belə platformalarda formalaşan tərəfdaşlıqlar nəticəsində reallaşır. İkincisi, bu tədbirlər informasiya asimmetriyasını və investor risklərini azaldır, yeni layihələrin maliyyələşdirilməsini asanlaşdırır. Üçüncüsü, onlar ölkənin beynəlxalq biznes mühitinə dair siqnal funksiyası yerinə yetirərək xarici investorların etimadını gücləndirir.

"Bakı Enerji Həftəsi"nin Azərbaycan üçün xüsusi əhəmiyyəti isə ölkənin geoiqtisadi mövqeyini möhkəmləndirməsindədir. Əgər 1990-cı illərdə Azərbaycan, əsasən, enerji resurslarına malik ölkə kimi tanınırdısa, hazırda ölkə enerji təhlükəsizliyi, nəqliyyat əlaqəliliyi və yaşıl transformasiya sahələrində regional əlaqələndirmə mərkəzi kimi çıxış edir. Digər tərəfdən, tədbir enerji keçidi ilə enerji təhlükəsizliyi arasında körpü yaradır. Son illər bir çox beynəlxalq platformalarda bu iki istiqamət bir-birinə alternativ kimi təqdim olunsa da, "Bakı Enerji Həftəsi"ndə hər iki mövzu vahid iqtisadi sistemin elementləri kimi müzakirə olunur. Burada həm neft və qaz layihələri, yaşıl enerji təşəbbüsləri, həm də yeni enerji texnologiyaları eyni strateji baxış çərçivəsində təqdim edilir.

"Bakı Enerji Həftəsi"nin daha bir funksiyası Azərbaycanın beynəlxalq investisiya və tərəfdaşlıq şəbəkələrinin genişlənməsinə xidmət etməsidir. Müasir dövrdə iqtisadi inkişaf daxili resurslarla yanaşı, xarici kapital, texnologiya və bilik axınlarına inteqrasiya ilə müəyyən olunur. Belə platformalar ölkənin qlobal iqtisadi şəbəkələrdə mövqeyini gücləndirərək yeni investisiyalar, texnologiya transferi və innovasiya əməkdaşlığı üçün imkanlar yaradır. Bu baxımdan Prezident İlham Əliyevin tədbirdə səsləndirdiyi fikirlər Azərbaycanın gələcək inkişaf prioritetlərinin təqdimatı kimi qiymətləndirilməlidir.

## Qlobal inkişaf paradiqması və Azərbaycanın inkişaf modeli

Prezident İlham Əliyevin "Bakı Enerji Həftəsi"ndəki çıxışında dayanan iqtisadi məntiq son illərdə qlobal iqtisadiyyatda formalaşan yeni inkişaf paradiqması ilə bağlıdır. Əgər XX əsrin sonu və XXI əsrin əvvəllərində iqtisadi siyasətdə bazar mexanizmlərinin üstünlüyünə əsaslanan yanaşma hakim idisə, son onillikdə qlobal maliyyə böhranı, pandemiya, geosiyasi parçalanma və texnoloji rəqabətin kəskinləşməsi dövlətin iqtisadi inkişafda roluna dair baxışları əhəmiyyətli dərəcədə dəyişdirmişdir.

Bu gün dünyanın aparıcı iqtisadiyyatlarında formalaşan yeni yanaşma dövlətin iqtisadiyyatın bütün sahələrini idarə etməsinə deyil, inkişafın strateji istiqamətlərini müəyyən etməsinə əsaslanır. ABŞ-da CHIPS and Science Act və Inflation Reduction Act, Avropa İttifaqında Green Deal Industrial Plan, Səudiyyə Ərəbistanında Vision-2030 və Birləşmiş Ərəb Əmirliklərində Operation 300bn proqramları eyni məntiqi əks etdirir: dövlət uzunmüddətli prioritetləri müəyyən edir, strateji infrastruktur yaradır, yeni texnologiyaların inkişafını stimullaşdırır və özəl investisiyalar üçün əlverişli institusional mühit formalaşdırır.

Bu transformasiya əslində, qlobal iqtisadiyyatın yeni mərhələyə daxil olduğunu göstərir. Müasir dövrdə dövlətlərin rəqabət qabiliyyəti artıq yalnız maliyyə resursları və ya istehsal gücü ilə deyil, texnoloji transformasiyanı idarə etmək, enerji təhlükəsizliyini təmin etmək, strateji dəyər zəncirlərində mövqe qazanmaq və yeni inkişaf sahələrini formalaşdırmaq qabiliyyəti ilə ölçülür. Buna görə də sənaye siyasəti, enerji siyasəti və innovasiya siyasəti getdikcə daha çox vahid inkişaf strategiyasının elementlərinə çevrilir.

Bu baxımdan Prezident İlham Əliyevin çıxışında enerji siyasəti daha geniş iqtisadi transformasiya modelinin tərkib hissəsi kimi təqdim olunur. Enerji resursları sənayeləşmə, logistika əlaqəliliyi, yaşıl transformasiya, rəqəmsal inkişaf və yeni investisiya axınlarının formalaşdırılması üçün strateji platforma rolunu oynayır. Bu yanaşmada enerji gəlirləri gələcək rəqabət üstünlüklərinin yaradılmasına xidmət edən kapitalıdır.

Məhz bu səbəbdən Prezident İlham Əliyevin çıxışının iqtisadi mahiyyəti enerji siyasətindən daha geniş məna daşıyır. Burada əsas məqsəd enerji resurslarından istifadə etməklə XXI əsrin yeni iqtisadi çağırışlarına uyğun inkişaf modelinin qurulmasıdır. Azərbaycanın enerji, logistika, yaşıl inkişaf və rəqəmsal transformasiya sahələrində həyata keçirdiyi siyasətlər də məhz bu yeni strateji dövlət yanaşmasının praktiki ifadəsi kimi çıxış edir.

Beləliklə, Prezident İlham Əliyevin çıxışında enerji siyasəti yeni dövlət kapitalizmi modelinin Azərbaycan variantı kimi təqdim olunur. Bu modeldə enerji, logistika, yaşıl inkişaf və rəqəmsal transformasiya milli inkişaf strategiyasının qarşılıqlı bağlı elementləridir.

## Prezident İlham Əliyevin çıxışının iqtisadi fəlsəfəsi

"Bakı Enerji Həftəsi"ndə Prezident İlham Əliyevin söylədiyi fikirlər daha geniş iqtisadi transformasiya modelinin ifadəsidir. Çıxışın əsas məntiqi enerji ehtiyatlarının milli inkişaf və iqtisadi modernləşmə üçün istifadə edilməsinə əsaslanır. Müasir inkişaf iqtisadiyyatında daha çox qəbul olunan yanaşmaya görə ölkələrin uğuru malik olduqları təbii sərvətləri hansı institusional çərçivədə idarə etmələri və hansı inkişaf modelinə inteqrasiya etmələri ilə müəyyən olunur. Bu baxımdan Prezident İlham Əliyevin çıxışı müasir inkişaf nəzəriyyələrinin üç əsas istiqamətini – institusional inkişafı, sənaye transformasiyası və strateji dövlət missiyasını vahid sistemdə birləşdirir.

Birinci element enerji gəlirlərinin inkişaf kapitalı kimi qiymətləndirilməsidir. Son otuz ildə formalaşmış iqtisadi model göstərir ki, enerji gəlirləri makroiqtisadi sabitliyin qorunmasına, nəqliyyat və enerji infrastrukturunun yaradılmasına, insan kapitalına investisiyalara və qeyri-neft sektorunun inkişafına yönəldilmişdir. Beləliklə, enerji sərvətləri iqtisadi artımın qısamüddətli mənbəyindən uzunmüddətli inkişaf aktivinə çevrilmişdir. Cənab Prezidentin çıxışında da enerji sektoru iqtisadiyyatın məqsədi kimi deyil, inkişafın maliyyə bazası kimi təqdim olunur.

Bu yanaşma müasir institusional iqtisadiyyatın əsas tezisləri ilə də üst-üstə düşür. Acemoğlu və Robinsonun göstərdiyi kimi, ölkələrin inkişafı malik olduqları resurslarla deyil, həmin resursları idarə edən institutların keyfiyyəti ilə müəyyən olunur. Azərbaycanın əsas nailiyyəti enerji ehtiyatlarına malik olması və həmin ehtiyatları makroiqtisadi sabitlik, strateji infrastruktur investisiyaları və insan kapitalına yönəlmiş siyasətlər vasitəsilə inkişaf kapitalına çevirməsidir. Bu baxımdan enerji sərvətləri iqtisadi inkişafın daha effektiv maliyyələşmə mənbəyi rolunu oynayır.

Əslində Prezident İlham Əliyevin çıxışının iqtisadi məntiqi ondan ibarətdir ki, Azərbaycanın enerji strategiyası artıq sənaye strategiyasıdır. Müasir inkişaf nəzəriyyələrinin aparıcı nümayəndələrindən olan Dani Rodrikin vurğuladığı kimi, uzunmüddətli rəqabət üstünlüyü yeni istehsal sahələrinin, texnologiyaların və məhsuldarlığın formalaşmasından yaranır. Bu baxımdan enerji - sənaye - texnologiya - məhsuldarlıq zənciri Azərbaycanın yeni inkişaf modelinin əsas iqtisadi məntiqini təşkil edir.

İkinci mühüm istiqamət enerji siyasətinin sənaye siyasəti ilə inteqrasiyasıdır. Müasir iqtisadi rəqabət artıq yeni üstünlüklərin yaradılması üzərində qurulur. Bu baxımdan enerji sektoru ixrac gəlirləri yaradan sahə, habelə yeni sənaye sahələrinin, texnologiyaların və investisiya istiqamətlərinin formalaşdırılmasına xidmət edən strateji platformadır. Xəzər dənizində külək enerjisinin inkişafı, yaşıl enerji layihələri, enerji dəhlizlərinin genişləndirilməsi və yeni infrastruktur təşəbbüsləri enerji sektorunun iqtisadiyyatın digər sahələrində struktur dəyişikliklərini stimullaşdıran katalizator rolunu nümayiş etdirir.

Üçüncü element dövlətin iqtisadi transformasiyadakı funksiyasına dair yanaşmadır. Son illərdə dünya iqtisadiyyatında müşahidə olunan əsas tendensiya dövlətin strateji istiqamətləri müəyyən etməsidir. ABŞ-da yüksək texnologiyalar, Avropada yaşıl sənaye, Asiyada innovasiya əsaslı inkişaf proqramları göstərir ki, uğurlu iqtisadi transformasiya uzunmüddətli milli missiya və koordinasiya olmadan mümkün deyil. Prezident İlham Əliyevin çıxışında da enerji sektoru ayrıca iqtisadi fəaliyyət sahəsindən çox, ölkənin gələcək inkişaf missiyasının bir hissəsi kimi təqdim olunur.

Bu yanaşma Mariana Mazzukatonun "Missiyayönümlü iqtisadiyyat" konsepsiyası ilə də uzlaşır. Mazzukatoya görə, böyük iqtisadi transformasiyalar vahid strateji missiya ətrafında formalaşan inkişaf ekosistemləri hesabına baş verir. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzurun yaşıl enerji zonaları, Xəzər dənizində külək enerjisinin inkişafı, yaşıl enerji dəhlizləri, rəqəmsal transformasiya və nəqliyyat-logistika layihələri Azərbaycanın yeni iqtisadi modelini formalaşdıran vahid milli missiyanın müxtəlif elementləridir. Əslində Prezident İlham Əliyevin çıxışında görünən inkişaf modeli enerji ehtiyatlarının idarə edilməsindən daha geniş məna daşıyır. Bu model enerji kapitalının infrastruktur kapitalına, infrastruktur kapitalının sənaye və logistika üstünlüyünə, həmin üstünlüklərin isə innovasiya və yüksək məhsuldarlıq yaradan iqtisadi sistemə çevrilməsinə əsaslanır. Başqa sözlə, məqsəd enerji gəlirlərinin artırılması və enerji hesabına güclü iqtisadiyyatın qurulmasıdır.

Dünya təcrübəsi göstərir ki, enerji sərvətlərinin iqtisadi transformasiyaya çevrilməsinin müxtəlif modelləri mövcuddur. Norveç enerji gəlirlərini maliyyə kapitalına və institusional dayanıqlılığa, Birləşmiş Ərəb Əmirlikləri logistika və xidmət iqtisadiyyatına, Səudiyyə Ərəbistanı isə sənaye və texnoloji transformasiyaya yönəldir. Azərbaycanın inkişaf modeli isə bu yanaşmaların ayrı-ayrı elementlərini birləşdirərək enerji kapitalını geoiqtisadi üstünlüyə, logistika potensialına, yeni sənaye imkanlarına və innovasiya əsaslı iqtisadi artıma çevirməyə əsaslanır.

Beləliklə, Prezident İlham Əliyevin "Bakı Enerji Həftəsi"ndəki çıxışının mərkəzində enerji ehtiyatlarının sənayeləşmə, texnoloji modernləşmə, rəqabət qabiliyyəti və geoiqtisadi güc imkanlarına çevrilməsi dayanır. Bu da əslində inkişaf iqtisadiyyatına keçidin fəlsəfəsidir. Azərbaycanın əsas nailiyyəti malik olduğu enerji ehtiyatlarının makroiqtisadi sabitlik, strateji infrastruktur investisiyaları və insan kapitalı vasitəsilə inkişaf kapitalına çevirməsidir. Məhz bu yanaşma enerji sərvətlərini iqtisadi üstünlüyə, iqtisadi üstünlüyü isə uzunmüddətli rəqabət qabiliyyətinə transformasiya etməyə imkan vermişdir.

## Azərbaycanın yeni üstünlüyü: platforma dövlət modeli

Dünya iqtisadiyyatında formalaşan yeni reallıqlar göstərir ki, dövlətlərin rəqabət üstünlüyü artıq resursların hansı iqtisadi sistemə inteqrasiya olunması, hansı bazarlara çıxış yaratması və hansı dəyər zəncirlərinin formalaşmasına xidmət etməsi ilə müəyyən olunur. Başqa sözlə, XXI əsrin iqtisadiyyatında əsas məsələ resursları iqtisadi əlaqəlilik və əlavə dəyər yaradan platformaya çevirməkdir.

Bu baxımdan Prezident İlham Əliyevin "Bakı Enerji Həftəsi"ndəki çıxışının ən mühüm mesajlarından biri Azərbaycanın enerji ölkəsi statusundan geoiqtisadi platforma statusuna keçidini əks etdirməsidir. Əgər "Əsrin müqaviləsi" Azərbaycanı dünya enerji xəritəsinə daxil etmişdisə, hazırkı mərhələdə məqsəd ölkəni Avrasiya məkanında enerji, logistika, ticarət və yaşıl inkişaf axınlarının qovşağına çevirməkdir.

COP29 və ötən ay Bakıda keçirilmiş WUF13 Azərbaycanın beynəlxalq mövqeyinin yalnız enerji sahəsi ilə məhdudlaşmadığını göstərir. Bu platformalar ölkənin yaşıl transformasiya, dayanıqlı urbanizasiya və qlobal inkişaf gündəliyinin müxtəlif istiqamətlərində əlaqələndirici rolunu gücləndirir.

Bu transformasiyanın əsas dayaqları Xəzər regionu və Orta Dəhlizdir. Xəzər artıq Avropa ilə Mərkəzi Asiya arasında enerji, ticarət və investisiya əlaqələrinin formalaşdığı strateji məkandır. Eyni zamanda, qlobal təchizat zəncirlərinin yenidən qurulması fonunda Orta Dəhliz nəqliyyat layihəsindən daha geniş məna kəsb edərək kapital, texnologiya və investisiya axınlarını birləşdirən geoiqtisadi inteqrasiya xəttinə çevrilir.

İqtisadi nəzəriyyəyə görə, bu, nəqliyyat və logistika qovşaqları ətrafında aqlomerasiya effektinin yaranması deməkdir. Yük və ticarət axınlarının artması logistika mərkəzlərinin, sənaye zonalarının, emal müəssisələrinin və xidmət sektorunun inkişafını stimullaşdırır. Nəticədə, nəqliyyat dəhlizi iqtisadi inkişaf dəhlizinə çevrilir. Azərbaycanın məqsədi də məhz tranzit ölkədən regional dəyər zəncirlərinin formalaşdığı iqtisadi məkana yüksəlməkdir. Prezident İlham Əliyevin çıxışında enerji layihələrinin nəqliyyat infrastrukturu və regional əməkdaşlıq təşəbbüsləri ilə birlikdə təqdim olunması təsadüfi deyil. Müasir iqtisadi sistemdə enerji, ticarət və investisiya axınları vahid geoiqtisadi məkan daxilində qarşılıqlı şəkildə formalaşır və bir-birini gücləndirir.

Bütün bunlar şəbəkə effekti yaradır. Azərbaycanın enerji və nəqliyyat sistemlərinə qoşulan hər yeni bazar və tərəfdaş ölkənin geoiqtisadi əhəmiyyətini artırır. Beləliklə, Azərbaycanın üstünlüyü enerji ehtiyatlarında və müxtəlif iqtisadi məkanları bir-biri ilə əlaqələndirmək qabiliyyətində formalaşır.

Müasir iqtisadi nəzəriyyələrdə geniş müzakirə olunan "Platforma dövlət" konsepsiyası bu prosesi izah edir. Platforma dövlət modelində əsas dəyər enerji, logistika, kapital, texnologiya və məlumat axınlarının əlaqələndirilməsindən yaranır. Müasir iqtisadiyyatın ən yüksək əlavə dəyəri məhz bu axınların kəsişdiyi məkanlarda formalaşır. Prezident İlham Əliyevin enerji baxışının mahiyyəti də Azərbaycanın enerji potensialını, nəqliyyat üstünlüklərini və yaşıl inkişaf imkanlarını vahid sistemdə birləşdirərək ölkəni regional enerji mərkəzindən Avrasiyanın mühüm platforma dövlətlərindən birinə çevirməkdən ibarətdir.

Əgər XX əsrin sonlarında Azərbaycanın əsas üstünlüyü enerji ehtiyatları idisə, XXI əsrin ikinci rübündə əsas üstünlük enerji, logistika, kapital və texnologiya axınlarının qovuşduğu geoiqtisadi platforma olmaqdır. Bu baxımdan Azərbaycanın gələcək uğuru hasil etdiyi resurslar əsasında yaratdığı əlaqələndirmə və əlavə dəyər imkanları ilə müəyyən olunacaq.

***Şaiq ADIGÖZƏLOV,***
***iqtisad üzrə fəlsəfə doktoru***

# Türk dövlətlərinin qlobal maliyyə inteqrasiyası

*Azərbaycan paytaxtı beynəlxalq sammitə ev sahibliyi edir*





**Bakıda "Beynəlxalq Maliyyə və Bankçılıq Sammiti 2026: Türk Dövlətlərinin Qlobal Maliyyə İnteqrasiyası" adlı ikigünlük beynəlxalq tədbir işə başlayıb. Sammit regional və türkdilli dövlətlərin maliyyə sistemlərinin qlobal maliyyə məkanına inteqrasiyasını sürətləndirmək məqsədilə yüksəksəviyyəli platforma kimi nəzərdə tutulub.**

İştirakçılar regional inteqrasiya və beynəlxalq əməkdaşlıq; bankçılıqda rəqəmsal transformasiya; ödəniş və hesablaşma sistemləri; açıq bankçılıq və API ekosistemləri; süni intellektlə idarə olunan maliyyə və avtomatlaşdırma; kibertəhlükəsizlik və fırıldaqçılığın qarşısının alınması; komplayens, ÇPY və TM qarşısının alınması (AML/CFT); alternativ bankçılıq (İslam maliyyəsi daxil olmaqla); dayanıqlı və yaşıl maliyyə; investisiya imkanları; insan kapitalı, bacarıqlar və maliyyə savadlılığı mövzuları üzrə fikir mübadiləsi aparırlar.

Bu çərçivədə sammitin ilk günü məhsuldarlığı ilə seçildi. Azərbaycan Banklar Assosiasiyası (ABA) və "Ticarət Şəbəkələrinin İnkişafı" İctimai Birliyi arasında Anlaşma Memorandumu imzalandı. Azərbaycan Fintex Assosiasiyası və Mərkəzi Asiya Fintex Assosiasiyası arasında da əməkdaşlıq rəsmiləşdirildi.

Sammitdə çıxış edən **Mərkəzi Bankın sədr müavini Vüsal Xəlilov** bildirdi ki, ani Ödənişlər Sisteminin inkişafı istiqamətində mühüm işlər görülür və sistemin əhatə dairəsi davamlı olaraq genişləndirilir. May ayında Milli Ödənişlər Sistemində Ani Ödənişlər Sisteminin payı 54 faizə çatıb. Qarşıdakı dövrdə bu göstəricinin daha da artırılması planlaşdırılır. Onun sözlərinə görə, Ani Ödənişlər Sisteminin inkişafı istiqamətində mühüm işlər görülür və sistemin əhatə dairəsi davamlı olaraq genişləndirilir. Sədr müavini onu da qeyd etdi ki, maliyyə sektorunun üzləşdiyi əsas çağırışlardan biri xərclərlə bağlıdır. Bu xərclərə həm rəqəmsallaşma prosesləri, həm də nağdsız ödənişlərin inkişafı ilə əlaqədar yaranan məsrəflər daxildir.

**İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi İdarə Heyətinin sədri Fərid Osmanov** ölkəmizin informasiya-kommunikasiya texnologiyaları (İKT) sektoru haqqında məlumat verdi. Qeyd olundu ki, illik ixrac həcmini hazırkı 25 milyon dollardan 1 milyard dollara çatdırmaq hədəf olaraq bəlirlənib. O bildirib ki, bu hədəf 2026-2028-ci illəri əhatə edən Rəqəmsal İnkişafın Sürətləndirilməsi üzrə Fəaliyyət Planında öz əksini tapıb: "Strategiya çərçivəsində 2032-ci ilə kimi ölkəmizin İKT sektorunun həcmindəki hazırkı 2,5 milyard dollar həddinin iki dəfə artırılması və Azərbaycanın regional rəqəmsal haba çevrilməsi nəzərdə tutulur. Proqramın əsas istiqamətləri rəqəmsallaşmanın sürətləndirilməsi, süni intellekt, innovasiyalar və kibertəhlükəsizlik sahələrinin inkişafıdır. Bu prosesdə "mygov" platforması əsas rəqəmsal infrastruktur rolunu oynayacaq".

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı** isə qeyd etdi ki, proqram ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı əsas çərçivə sənədi olacaq və iqtisadiyyatın bütün sahələrini əhatə edəcək: "Yeni proqram Azərbaycanın ortamüddətli inkişaf prioritetlərini müəyyənləşdirəcək və müxtəlif sahələr üzrə qəbul edilən sektoral proqramlarla əlaqələndiriləcək".

Sammit çərçivəsində **Azərbaycan Banklar Assosiasiyasının (ABA) prezidenti Zakir Nuriyev** də çıxış etdi. O bildirdi ki, biznes kreditlərinin həcmi 9,1 faiz artaraq 16,3 milyard manata yüksəlib. Həmçinin bu yaxınlarda təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nda maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilib.

Bu istiqamətdə aqrar kreditləşmə üzrə qiymətləndirmə imkanlarının gücləndirilməsi, Aqrar Kredit Kooperativlərinin yaradılması və dəstəklənməsi, aqrar sığorta, subsidiya, zəmanət və güzəştli kredit mexanizmlərinin genişləndirilməsi nəzərdə tutulur. Ötən hesabat dövründə dövlət fondlarının bütün istiqamətlər üzrə verdiyi kreditlərin həcmi son 12 ay ərzində 22,5 faiz artaraq 1,2 milyard manata çatıb.

**Türkiyə Banklar Birliyinin Baş katibi Nurullah Bakır** öz ölkəsində isə aktiv rəqəmsal bankçılıq sahəsi çərçivəsində məlumat verdi. Qeyd etdi ki, müştərilərinin sayı hazırda 129 milyonu ötüb. Bu isə 100 faizdən çox artım deməkdir: "Türk dövlətlərinin Bank Assosiasiyaları Şurası regionun maliyyə gələcəyinin formalaşdırılmasında mühüm missiya daşıyır. Şura həm ölkələrimiz, həm də assosiasiyalarımız arasında əlaqələrin möhkəmlənməsinə xidmət edir, eyni zamanda, iqtisadiyyatlarımızın qlobal maliyyə sistemindəki rolunu artıran vacib platforma kimi çıxış edir".

Qeyd edək ki, sammit Türkdilli Dövlətlərin Bank Assosiasiyaları Şurası, Azərbaycan Respublikasının Mərkəzi Bankı, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyə bank assosiasiyaları, Qazaxıstan Maliyyəçilər Assosiasiyası, eləcə də digər tərəfdaş qurumların dəstəyi ilə keçirilir.

Məclis çərçivəsində 2026-cı il üzrə qlobal bankçılıq və maliyyə sektorunda əsas trendlər müzakirə olunur. Tədbirin hədəfləri regional əməkdaşlığın möhkəmləndirilməsi (tənzimləmələrin uyğunlaşdırılması, ödəniş sistemlərinin inteqrasiyası, müxbir bank əlaqələrinin inkişafı), beynəlxalq tərəfdaşlıqların təşviqi və ortaq maliyyə baxışının formalaşdırılmasıdır.

Sammit bank-maliyyə sektorunun rəhbər şəxslərini, tənzimləyici orqanları, maliyyə sektoru üçün həll və texnologiya təminatçılarını, startapları, beynəlxalq ekspertləri, investorları və beynəlxalq maliyyə institutlarını bir araya gətirir.

***Nurlan ABDALOV***
***XQ***

# Yeni enerji çağırışları mövzusunda media təlimi



**İyunun 9-da Enerji Dialoqu Platforması çərçivəsində SOCAR-ın və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə gənc media nümayəndələri üçün "Qlobal enerji bazarlarında yeni çağırışlar: etibarlı tərəfdaşlıq və Azərbaycanın strateji rolu" mövzusunda silsilə məlumatlandırma sessiyalarına start verilib.**

Milli Mətbuat Gününə həsr olunan və iyulun 3-dək davam edəcək tədbir çərçivəsində 30-dan çox media qurumundan olan jurnalistlər enerji təhlükəsizliyi, qlobal enerji transformasiyası, beynəlxalq enerji bazarlarında baş verən əsas tendensiyalar, eləcə də SOCAR-ın "upstream", "midstream" və "downstream" fəaliyyət istiqamətləri barədə təqdimatları dinləyəcək, müzakirələrdə və sahə turlarında iştirak edəcəklər.

Tədbirin açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov regional və qlobal enerji proseslərinin anlaşılmasının, mürəkkəb mövzuların obyektiv və peşəkar şəkildə təqdim edilməsinin bu gün media qarşısında duran vacib vəzifələrdən olduğunu bildirib. İcraçı direktor media nümayəndələri üçün təşkil olunan silsilə məlumatlandırma sessiyalarının Azərbaycan mediasında, xüsusilə strateji sahə hesab olunan enerji sektoru üzrə peşəkar ixtisaslaşmanın gücləndirilməsinə xidmət edən mühüm platforma olduğunu deyib.

SOCAR-ın kommunikasiya məsələləri üzrə icraçı direktoru Aygün Hüseynova Enerji Dialoqu Platforması təşəbbüsünün enerji sektoru ilə bağlı maraqlı tərəflər arasında açıq, peşəkar və davamlı dialoq mühitinin formalaşdırılması məqsədi daşıdığını bildirib.

Sonra SOCAR-ın rəhbər şəxsləri tərəfindən şirkətin fəaliyyətinin ayrı-ayrı istiqamətləri ilə bağlı təqdimatlar və çıxışlar dinlənilib. SOCAR-ın vitse-prezidenti Arzu Cavadova şirkətin kəşfiyyat və axtarış əməliyyatları sahəsindəki zəngin təcrübəsi, geoloji-geofiziki tədqiqatlarda tətbiq olunan müasir yanaşmalar və beynəlxalq layihələr barədə məlumat verib.

SOCAR-ın işlənmə və hasilat sahəsindəki fəaliyyətindən bəhs edən şirkətin vitse-prezidenti Babək Hüseynov 30 illiyinin qeyd olunduğu "Şahdəniz" layihəsinin tarixi əhəmiyyətindən, AÇG-dən ilk sərbəst təbii qaz hasilatına başlanılmasının önəmindən bəhs edib. Azərbaycanda ədalətli enerji keçidinin təmin olunması istiqamətində atılan addımlar barədə məlumat verən şirkətin vitse-prezidenti Əfqan İsayev isə SOCAR-ın yaşıl gündəliyindən, dekarbonizasiya və aşağıkarbonlu layihələrdən, həmçinin beynəlxalq enerji şirkətləri ilə qurulan səmərəli əməkdaşlıqlardan danışıb.

Daha sonra tədbir sual-cavab sessiyası ilə davam etdirilib, media nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

***XQ***

# Təbiətin şıltaqlığı ölkəyə baha başa gəlir

*35 rayonda sel, daşqın və dolu ilə bağlı 3 min 500 dağıntı və ziyan qeydə alınıb*

**Son zamanlar ölkə ərazisində havaların qeyri-sabit keçməsi güclü yağış və dolu yağmasına, sel-subasma, fırtına-qasırğa kimi hallara səbəb olub. Tez-tez baş verən belə hadisələr təsərrüfatlara, xüsusən də bölgələrdə əkin sahələrinə və meyvə bağlarına ciddi ziyan vurub.**

Bununla əlaqədar olaraq təsərrüfatlarını vaxtında sığorta etdirən fermerlər tərəfindən Aqrar Sığorta Fonduna zərər müraciətlərinin sayı kəskin artıb. Təkcə onu qeyd etmək kifayətdir ki, güclü yağışların yeni dalğasinin başladığı may ayının əvvəlindən indiyədək Aqrar Sığorta Fonduna ölkənin 35 rayonundan 3 min 500-dən artıq müqavilə üzrə müraciətlər daxil olub. Zərər müraciətləri Abşeron, Zərdab, Şabran, Xızı, Ağcabədi, Şəki, Beyləqan, İsmayıllı, Hacıqabul, Yevlax, Tərtər, Xaçmaz, Qobustan, Goranboy, Oğuz, Xocavənd, Zaqatala, Qax, Daşkəsən, Göygöl, Kürdəmir, Neftçala, Ağdam, Ağsu, Biləsuvar, Füzuli, Şahbuz, Qəbələ, Qusar, Şamaxı, Samux, Şəmkir, Xocalı, Yardımlı, Qazax və sair rayonlarını əhatə edib.

Aqrar Sığorta Fonduna bu dövrdə daxil olan müraciətlər 53 min hektar əkin sahəsi ilə əhatə olunan müqavilələri əhatə edib. Bunun da 52 min hektarı taxıl sahələri – arpa-buğda əkinləridir. Digər müraciətlər isə alma, armud, badam, ərik, fındıq, gilas, nar, nektarin, pambıq, qoz və şaftalı bağları üzrə olub. Ümumilikdə, fonda daxil olan ən çox zərər müraciətləri Şəki-Zaqatala, Qarabağ, Şirvan-Salyan, Dağlıq Şirvan və Qazax-Tovuz bölgələri üzrə qeydə alınıb. Əkin sahələri ilə bağlı müraciətlər isə daha çox Şəki-Zaqatala və Şirvan-Salyan regionlarından daxil olub.

Bu dövrdə ən çox baş verən hadisələr sel-subasma, çayların daşması nəticəsində sel-subasma, fırtına, qasırğa, dolu və 3-cü şəxslərin hərəkətləri olub. Son həftə ərzində daxil olan müraciətlərin isə əsas səbəbi məhz dolu, fırtına və qasırğa hallarıdır. Bütün bu müraciətlər Aqrar Sığorta Fondunda qeydə alınaraq yerlərdə əraziyə baxış keçirilməsi, hadisənin araşdırılması və zərərin hesablanması üçün bölgələrə aqrar sığorta ekspertləri yönəldilir.

Hazırda Aqrar Sığorta Fondunun bütün ekspertləri bölgələrdə təsərrüfatlara və əkinlərə dəymiş zərərlərin qiymətləndirilməsi ilə məşğuldurlar. Məhz onların araşdırmalarından sonra hadisədən və zərərin həcmindən asılı olaraq fermerlərə sığorta ödənişləri barədə qərar veriləcək.

Ümumilikdə isə, hadisə baş vermiş, yəni haqqında müraciət daxil olan əkin sahəsinə 5-7 gün ərzində aqrar sığorta eksperti göndərilir. Ekspert öncə əkin sahəsində hadisənin baş verib-vermədiyini, dəymiş zərərin hansı təbiət hadisəsinin nəticəsi olduğunu müəyyənləşdirir. Həmçinin ekspert tərəfindən hadisə olan əkin sahəsinin fermerin rəsmi bəyan etdiyi koordinatlara aid olması dəqiqləşdirilir və ilkin zərər həcmi hesablanır. Əgər əkinin tamamilə məhv olması dəqiqləşərsə, fermerə ödənişin verilməsi prosesinə başlanılır.

Qurumdan verilən məlumata əsasən, sığortalı fermerlərə zərər ödənişləri qanunvericiliklə müəyyən edilmiş prosedurla həyata keçirilir. Belə ki, əkin sahəsində tam yox, qismən məhvolma halı müəyyən edilərsə, zərər ödənişinin verilməsi üçün məhsul yığımı vaxtına qədər gözlənilir. Məhsul yığımına 5 gün qalmış isə ekspert 2-ci dəfə həmin sahəyə səfər edərək yekun zərəri qiymətləndirir və onun rəyinə uyğun olaraq məbləğ hesablanaraq fermerə ödəniş həyata keçirilir.

Xatırladaq ki, aqrar sığorta mexanizmi əkin sahələrini çoxsaylı təbiət hadisələri – dolu, sel-subasma, fırtına-qasırğa, leysan, normadan artıq yağan qar, torpaq sürüşməsi, eləcə də yanğın, vəhşi heyvanların hücumu, 3-cü şəxslərin hərəkətlərindən və sair hallardan qoruyur.

Aqrar sığorta mexanizminin şərtlərinə əsasən, fermerlərə dəstək məqsədilə sığorta haqqının yarısı dövlət tərəfindən ödənilir. Nəticədə, fermerlər cüzi ödəniş etməklə əkin sahələrini asanlıqla sığortalaya bilərlər. Məsələn, müraciətlərin ən çox daxil olduğu taxıl (arpa və buğda) əkinlərinin sığortalanması üzrə sığorta haqqı belə hesablanır: 1000 manat məhsul gözlənilən 1 hektar əkin sahəsinin sığortalanması ölkənin əksər ərazisində fermerlərə 6,65–10,8 manata başa gəlir.

Bu arada, ölkəmizdə fermerlərə dəymiş zərərin ödənilməsi üçün sığorta ödənişlərinin artırılması ilə bağlı fikirlər səsləndirilir. Deputat Əli Məsimli Milli Məclisin iyunun 5-də keçirilmiş növbədənkənar sessiyasının plenar iclasında aqrar sığortaya əlavə vəsaitlərin ayrılmasını təklif edib. Son zamanlar intensiv yağışların həm Bakıda, həm də regionlarda bir sıra fəsadlar törətdiyini xatırladan deputat bildirib ki, ötən ay müşahidə olunan intensiv yağışlar Şəki-Zaqatala bölgəsində, o cümlədən Şəki və Qax rayonlarında ciddi fəsadlar yaradıb.

Təsərrüfatlara xeyli ziyan dəyib, fındıq bağlarında, taxıl sahələrində, dirriklərdə məhsullar yararsız hala düşüb. Aqrar Sığorta Fondunun bu istiqamətdə zəruri işlər gördüyünü vurğulayan iqtisadçı alimin sözlərinə görə, bununla belə dəymiş ziyanın məbləği ilə aqrar sığortanın maliyyə imkanlarını müqayisə etdikdə bu istiqamətdə əlavə dəstəyin vacibliyi aydın hiss olunur.

Yerli strukturların da bu istiqamətdə gördüyü işi müsbət qiymətləndirən deputat onu da deyib ki, bu qurumlar problemin həlli istiqamətində vacib addımlar atsalar da, növbəti intensiv yağışlar nəticəsində həmin problemlər təkrar olunur. Onun sözlərinə görə, bütün bu məsələlərin həlli mərkəzləşdirilmiş qaydada vəsaitlərin ayrılmasına zərurət yaradır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Bakı–Supsa kəmərinin idarəçiliyi Azərbaycan və Gürcüstana verildi

**Qərb ixrac boru kəmərinin (Bakı–Supsa) əməliyyat funksiyaları Azərbaycan və Gürcüstana təhvil verilib. Bu barədə "bp Azerbaijan" şirkətinin məlumatında bildirilir ki, müqaviləyə uyğun olaraq, Səngəçal terminalının ərazisində yerləşən obyektlər istisna olmaqla, Qərb ixrac boru kəmərinin bütün infrastrukturu 2026-cı il iyunun 8-dən Azərbaycan və Gürcüstanın müvafiq dövlət qurumlarına qaytarılıb.**



bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Covanni Kristofoli iyunun 2-də "Bakı Enerji Həftəsi" çərçivəsində bu barədə məlumat verərkən bildirib ki, bu addım aktivlərin satışı demək deyil, sadəcə olaraq, əvvəllər imzalanmış müqavilə öhdəliklərinin yerinə yetirilməsidir. Onun sözlərinə görə, boru kəməri üzərində əməliyyat nəzarəti müvafiq ölkələrdə onun sahiblərinə qaytarılır və bu proses tərəflərin əvvəlcədən razılaşdırılmış hüquqi öhdəliklərinə uyğun həyata keçirilir.

Azərbaycan Dövlət Neft Şirkəti də Qərb ixrac boru kəməri və onun ayrılmaz hissəsi olan Supsa terminalının "SOCAR Midstream Operations" MMC-nin operatorluğuna keçməsi ilə bağlı məlumat yayıb. Qurumdan verilən məlumata görə, Gürcüstanın Neft və Qaz Korporasiyası ilə SOCAR arasında əldə olunmuş razılaşmaya uyğun olaraq bp ilə mövcud operatorluq müqaviləsi başa çatıb və əməliyyat məsuliyyəti "SOCAR Midstream" tərəfindən qəbul edilib.

Qeyd olunub ki, Xəzər regionunu Qara dəniz və beynəlxalq bazarlarla birləşdirən əsas enerji marşrutlarından biri olan Qərb ixrac boru kəməri regional enerji infrastrukturunun mühüm tərkib hissəsi kimi strateji əhəmiyyətini qorumaqda davam edir.

Yeri gəlmişkən, Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin 2026-cı ilin may ayında ölkəmizə səfəri zamanı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, "SOCAR Midstream Operations" MMC və Gürcüstan Neft və Qaz Korporasiyası arasında Gürcüstan ərazisindən keçən Qərb ixrac boru kəmərinin, o cümlədən Supsa neft terminalı və əlaqəli infrastrukturun istismar şərtlərini müəyyən edən əməliyyat sazişi üzrə əsas şərtlər sənədi imzalanıb.

Qeyd edək ki, Qərb ixrac boru kəməri Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan hasil edilən xam nefti Qara dənizin Supsa terminalına daşımaq məqsədilə inşa olunub. Tikintisinə Azərbaycan və Gürcüstan arasında 1996-cı ilin aprelində imzalanmış hökumətlərarası sazişdən sonra başlanılan bu layihə 1998-ci ilin noyabrında tamamlanıb. İllik nəqletmə gücü 5,2 milyon ton olan boru kəmərinin istismarına 1999-cu ilin fevralında start verilib. 1999-cu il aprelin 17-də rəsmi açılş mərasimi keçirilmiş Bakı-Supsa kəməri ilə nəql olunan neft buradan tankerlərə yüklənərək Bosfor boğazı vasitəsilə Avropa bazarlarına çatdırılıb.

2007-ci ildə Azərbaycan və Gürcüstan ərazisindəki hissələri əhatə edən geniş təmir və yeniləmə işlərinin aparılması məqsədilə kəmərin fəaliyyəti müvəqqəti olaraq dayandırılıb. Bu müddətdə alternativ ixrac marşrutlarından istifadə olunub və dünya bazarlarına tədarükdə fasilələrin qarşısı alınıb. 2008-ci ildə isə kəmərin yenidən istismara verilməsi üzrə genişmiqyaslı proqram həyata keçirilib.

Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq Azərbaycan və Gürcüstan ərazisindən keçən boru kəməri Qara dəniz sahilində yerləşən Supsa terminalına qədər uzanır. Ümumi uzunluğu 829 kilometr təşkil edən Qərb ixrac boru kəməri sistemi 3-ü Azərbaycanda və 3-ü Gürcüstanda olmaqla 6 nasos stansiyasından ibarətdir. Bundan əlavə, Gürcüstanda 2 təzyiqazaldıcı stansiya, 59 xətti bağlayıcı klapan və aralıq təmizləmə stansiyaları fəaliyyət göstərir.

Azərbaycan Dövlət Neft Şirkətinin rəsmi məlumatına görə, kommersiya istismarının başlanmasından 2026-cı il aprelin 1-dək Bakı–Supsa boru kəməri vasitəsilə, ümumilikdə, 738 milyon barel neft nəql olunub.

***XQ***

*Günün çağırışı – şəhərlərdən kəndlərə!*

# Regional inkişaf proqramları Azərbaycan kəndini davamlı yüksəliş yoluna çıxarıb

## *Şəhər rahatlıqları bölgələrə yeni həyat gətirir*

**Son onilliklər ərzində dünya ölkələrinin üzləşdiyi ən ciddi sosial-iqtisadi problemlərdən biri şəhərləşmə prosesinin sürətlənməsi, kənd əhalisinin kütləvi şəkildə şəhərlərə axını olub. Birləşmiş Millətlər Təşkilatının hesablamalarına görə, hazırda dünya əhalisinin yarıdan çoxu şəhərlərdə yaşayır və bu göstəricinin gələcəkdə daha da artacağı proqnozlaşdırılır.**

İlk baxışda bu proses iqtisadi inkişafın təbii nəticəsi kimi görünür. Lakin nəzarətsiz və balanslaşdırılmayan şəhərləşmə kənd təsərrüfatının zəifləməsinə, regionların boşalmasına səbəb olur. Üstəlik, şəhərlərdə sosial infrastruktur yüklənir, işsizlik və sosial bərabərsizlik problemləri dərinləşir.

Azərbaycan da qlobal proseslərin təsirindən kənarda deyil. Bununla belə, Prezident İlham Əliyevin kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə səsləndirdiyi fikirlər deməyə əsas verir ki, ölkəmiz urbanizasiya probleminə, sadəcə, müşahidəçi kimi yanaşmır, onun həlli üçün uzunmüddətli və strateji yanaşma formalaşdırır. Dövlət başçısının "kəndlərdən şəhərlərə yox, şəhərlərdən kəndlərə qayıdış prosesi başlasın" fikri, əslində, Azərbaycanın regional inkişaf siyasətinin yeni mərhələsinin əsas ideoloji istiqamətini müəyyənləşdirir.

### Şəhərlərə axın – demoqrafik gərginlik

XX əsrin ikinci yarısından başlayaraq əsasən paytaxtlarda və iri yaşayış sahələrində sənayeləşmənin sürətlə inkişafı, eləcə də iqtisadi fəallığın geniş miqyas alması kənddən şəhərə kütləvi miqrasiyanı sürətləndirdi. Bir çox ölkələrdə kəndlər boşaldı, aqrar sektor işçi qüvvəsi çatışmazlığı ilə üzləşdi, şəhərlərdə isə əhali sıxlığı böhranlı həddə çatdı.

Bu gün inkişaf etmiş ölkələrdə belə urbanizasiya prosesinin yaratdığı problemlərlə mübarizə aparılır. Mənzil qıtlığı, nəqliyyat sıxlığı, ekoloji çətinliklər, sosial xidmətlərə artan tələbat səbəbindən şəhərlərin idarə edilməsi getdikcə mürəkkəbləşir. Belə bir narahatlıq doğuran məsələdə respublikamızın üstünlüyü ondadır ki, ölkə rəhbərliyi bu təhlükəni vaxtında görərək regionların inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirib. Prezident İlham Əliyevin mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə qeyd etdiyi kimi, bəzi dövlətlər urbanizasiya probleminin həlli üçün nə imkan, nə də düzgün strategiya tapa bilirlər. Azərbaycanda isə uzun illərdir ki, həyata keçirilən regional inkişaf proqramları məhz bu məqsədə xidmət edir.

Xatırladaq ki, 2004-cü ildən etibarən ölkəmizdə ardıcıl şəkildə qəbul edilən regional inkişaf dövlət proqramları Azərbaycanın sosial-iqtisadi tarixində xüsusi yer tutur. Bu sənədlərin əsas məqsədi iqtisadi fəaliyyətin Bakı və Abşeron yarımadasında cəmləşməsinin qarşısını almaq, bölgələrdə yüksək həyat şəraiti formalaşdırmaq və əhalinin öz doğma yurdlarında yaşamaq imkanlarını genişləndirmək olub. Belə ki, son iyirmi ildə respublikanın bütün regionlarında minlərlə kilometr avtomobil yolu çəkilib, elektrik, qaz və içməli su təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb. Yeni sənaye parkları, aqroparklar, logistika mərkəzləri yaradılıb, sahibkarlığın inkişafına geniş dövlət dəstəyi göstərilib.

Bu siyasətin nəticəsində regionlarda minlərlə yeni iş yeri açılıb, qeyri-neft sektorunun inkişafı sürətlənib, kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı yüksəlib. Ən önəmlisi isə regionların sosial siması dəyişib, kənd və rayonlarda yaşayış üçün daha əlverişli şərait formalaşıb.



### Ekspert rəyi



**Samir HEYDƏROV, iqtisadçı-ekspert**

Azərbaycanın dayanıqlı və inklüziv inkişaf modelinin əsas sütunlarından biri regionlararası iqtisadi tarazlığın təmin edilməsidir. Paytaxt Bakı ilə ölkənin digər bölgələri arasında sosial-iqtisadi fərqlərin azaldılması təkcə iqtisadi məsələ deyil, həm də sosial ədalətin, milli təhlükəsizliyin və uzunmüddətli sabitliyin mühüm komponentidir. Bu baxımdan regional inkişaf siyasətinin dərinləşdirilməsi və yeni yanaşmaların tətbiqi aktuallığını daha da artırır.

Xatırladım ki, son 20 ildə həyata keçirilən regional inkişaf proqramları bu sahədə mühüm dönüş yaradıb. Son 10 ildən çox bir müddətdə dövlət proqramlarının həyata keçirilməsi nəticəsində regionlara 100 milyard manatdan artıq investisiya yönəldilib. Bu vəsait əsasən yol və nəqliyyat infrastrukturunun, sosial obyektlərin tikintisinə və enerji təminatının gücləndirilməsinə, eləcə də rabitə və internet şəbəkələrinin genişləndirilməsinə sərf olunub.

Bu layihələrin icrası nəticəsində regionların fiziki infrastrukturu əhəmiyyətli dərəcədə yaxşılaşıb. Lakin belə inkişaf daha çox "fiziki infrastruktur modeli" üzərində qurulduğundan iqtisadi aktivliyin dərinləşdirilməsi və yerli istehsalın stimullaşdırılması sahəsində istənilən nəticələr tam əldə olunmayıb. Buna görə də hazırda regional sənaye və innovasiya, habelə turizm klasterlərinin, hər regionun özünəməxsus üstünlüklərinə uyğun sənaye zonalarının yaradılması, aqrar bölgələrdə aqroparkların salınması qarşıya mühüm vəzifələr kimi qoyulub.

Bütün bunlarla yanaşı, yerlərdə fəaliyyət göstərən müəssisələrin vergi güzəştləri, subsidiyalar və aşağı faizli kreditlərlə əhatələnməsi, rəqəmsallaşmaya üstünlük verilməsi investorların regionlara yönəldilməsini sürətləndirməklə kəndə axın prosesində "böyük sıçrayış" imkanı yaradar. Bu zaman, şübhəsiz ki, peşə təhsili mərkəzləri və universitet filiallarının yaradılması, bununla da kadr çatışmazlığının aradan qaldırılması, yerli özünüidarəetmə qurumlarının gücləndirilməsi kimi məsələlərin gerçəkləşdirilməsi də zəruridir.

### İnsan kapitalına sərmayə

İnsanların kənddə yaşamaq istəyinin formalaşmasında iqtisadi amillərlə bərabər, sosial şərait də mühüm rol oynayır. Dövlət başçısının vurğuladığı kimi, respublikada regional inkişaf proqramları həyata keçirilərkən sosial infrastruktur layihələri də paralel şəkildə icra olunub. Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycanın bütün rayon mərkəzlərində müasir xəstəxanalar fəaliyyət göstərir. Əvvəllər yalnız paytaxtda mövcud olan bir çox tibbi xidmətlərin artıq bölgələrdə də əlçatanlığı reallaşıb. Müasir diaqnostika avadanlıqları ilə təchiz olunan tibb müəssisələri insanların keyfiyyətli səhiyyə xidmətlərindən istifadə imkanlarını genişləndirib.

Təhsil sahəsində həyata keçirilən layihələr də xüsusi əhəmiyyət daşıyır. Son illər ərzində minlərlə məktəb tikilib və ya əsaslı təmir edilib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkədə fəaliyyət göstərən tədris müəssisələrinin böyük əksəriyyəti yenilənib. Bununla da regionlarda yaşayan uşaqların müasir təhsil mühitində zəngin bilik əldə etmələrinə əlverişli şərait yaranıb.

Əslində, xəstəxana, məktəb, mədəniyyət mərkəzi, internet infrastrukturu və digər sosial xidmətlər kəndlərin gələcəyini müəyyənləşdirən əsas amillərdir. İnsanlar təkcə iş üçün deyil, həm də həyat keyfiyyəti üçün yaşadıqları məkanı seçirlər. Buna görə də sosial infrastrukturun inkişafı urbanizasiyanın qarşısının alınmasının ən mühüm vasitələrindən biridir.

Bu məqamda onu da qeyd edək ki, dünyada baş verən son hadisələr ərzaq təhlükəsizliyi məsələsinin strateji əhəmiyyətini bir daha nümayiş etdirdi. Pandemiya, geosiyasi qarşıdurmalar, logistika problemləri və iqlim dəyişiklikləri hər bir dövlətin öz daxili istehsal potensialını gücləndirmək zəruriliyini göstərdi.

Azərbaycanın kənd təsərrüfatı sahəsində həyata keçirdiyi siyasət də hazırda məhz bu məqsədə xidmət edir. Dövlət subsidiyaları, güzəştli kreditlər, aqrar sığorta mexanizmləri, texnika təminatı və digər dəstək vasitələri kənd təsərrüfatının inkişafına ciddi təkan verir. Bu gün ölkədə taxılçılıq, pambıqçılıq, üzümçülük, tütünçülük, baramaçılıq, meyvəçilik və heyvandarlıq sahələrində mühüm nailiyyətlər əldə edilir. Aqroparkların yaradılması müasir texnologiyaların tətbiqini getdikcə sürətləndirir və məhsuldarlığın yüksəlməsinə şərait yaradır.

Lakin ekspertlərin bildirdikləri kimi, mövcud nailiyyətlərlə kifayətlənmək təcrübədə yetərli sayılmır. Elə buna görə də hazırda kənd təsərrüfatına yeni təkan verilməsi həm məşğulluğun artırılması, həm də insanların torpağa bağlılığının gücləndirilməsi baxımından həyati əhəmiyyət daşıyır.

### Torpaq – əzəli məskən

Azərbaycan kəndi yaşayış sahəsi olmaqla yanaşı, həm də milli-mənəvi dəyərlərin, adət-ənənələrin və ailə institutunun qorunduğu məkandır. Bu baxımdan kəndlərin boşalması təkcə iqtisadi deyil, həm də sosial və mənəvi problemlər yarada bilər. Qeyd edək ki, əsrlər boyu Azərbaycan xalqının həyat tərzi torpaqla sıx bağlı olub. Əkinçilik, maldarlıq, bağçılıq və digər ənənəvi təsərrüfat sahələri xalqımızın yaşam mədəniyyətinin ayrılmaz hissəsi kimi daim diqqət çəkib. Məhz buna görə Prezident İlham Əliyev insanların öz dədə-baba torpaqlarında yaşamalarını və fəaliyyət göstərmələrini dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirir. Bu yanaşma iqtisadi məqsədlərlə yanaşı, milli-mədəni dəyərlərin qorunmasına da xidmət edir.

Turizm və xidmət sektorunun inkişafı da kəndlərin yeni inkişaf imkanlarını genişləndirir. Çünki müasir dünyada kəndlərin inkişafı yalnız kənd təsərrüfatı ilə məhdudlaşmır. Kənd turizmi, ekoturizm, aqroturizm və müxtəlif xidmət sahələri aqrar sektorun yeni dayaqlarına çevrilir. Azərbaycanın zəngin təbiəti, milli mətbəxi, folkloru və tarixi-mədəni irsi bu istiqamətdə böyük potensial yaradır. Son illər Quba, Qusar, Şəki, Zaqatala, Qəbələ, Lerik, Astara və digər bölgələrdə kənd turizminin inkişafı bunun əyani sübutudur.

Turizmin inkişafı, eyni zamanda, kənd əhalisinin gəlirlərini artırmaqla yanaşı, yeni iş yerləri yaradır, yerli məhsulların satış imkanlarını genişləndirir və regionların iqtisadi fəallığını yüksəldir. Prezident İlham Əliyev çıxışında regionlarda xidmət sektorunun inkişafına xüsusi diqqət yetirməsi də məhz bu reallıqdan irəli gəlir. Bu baxımdan müasir kənd əkin-biçinlə bərabər, müxtəlif iqtisadi fəaliyyət növləri ilə də seçilməlidir.

Yeri gəlmişkən, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı quruculuq işləri Azərbaycanın regional inkişaf siyasətinin ən parlaq nümunələrindən biridir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da "ağıllı" kənd konsepsiyasının tətbiqi kəndlərin gələcək inkişaf modelini formalaşdırır. Müasir infrastruktur, rəqəmsal idarəetmə, bərpaolunan enerji mənbələri, innovativ kənd təsərrüfatı texnologiyaları və yüksək sosial standartlar bu coğrafiyada tamamilə yeni yaşayış mühiti yaradır.

Bu model gələcəkdə digər bölgələr üçün də nümunə rolunu oynaya bilər. İnsanların rahat və təhlükəsiz yaşayışı üçün bütün şəraitin yaradılması şəhərdən kəndə qayıdış ideyasının reallaşmasına mühüm töhfə verəcək.

### Kənddə şəhər rahatlığı

Azərbaycan artıq regionların inkişafı istiqamətində mühüm nəticələr əldə edib. Lakin qarşıdakı mərhələdə əsas məqsəd təkcə infrastruktur qurmaq deyil, həm də onun iqtisadi və sosial gücünü artırmaqdır. Bunun üçün aqrar sektorda innovasiyalar genişləndirilməli, rəqəmsal texnologiyalar tətbiq olunmalı, kənd sahibkarlığı təşviq edilməli, gənclərin kənd yerlərində işləməsi üçün əlavə stimullar yaradılmalıdır. Eyni zamanda, yaşayış məntəqələrində yüksək sürətli internet, elektron xidmətlər və müasir kommunikasiya imkanları daha da inkişaf etdirilməlidir.

Beləliklə, Prezident İlham Əliyevin kənd təsərrüfatı müşavirəsində səsləndirdiyi fikirlər Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının mühüm istiqamətlərindən birini əks etdirir. Məqsəd yalnız kənd təsərrüfatının inkişafı olmaqla yanaşı, ölkədə balanslı məskunlaşma modelinin formalaşdırılması, regionların iqtisadi və sosial cəhətdən gücləndirilməsi, insanların doğma torpaqlarında firavan həyat sürmələrinin təmin edilməsidir.

Bu gün həyata keçirilən regional inkişaf proqramları, sosial infrastruktur layihələri, kənd təsərrüfatına göstərilən dövlət dəstəyi və Qarabağda qurulan yeni yaşayış modeli göstərir ki, Azərbaycan urbanizasiya probleminin həlli istiqamətində özünəməxsus və uğurlu bir yol seçib. Şəhərdən kəndə qayıdış ideyası isə sadəcə demoqrafik proses deyil. Bu, milli iqtisadiyyatın dayanıqlılığını artıran, ərzaq təhlükəsizliyini möhkəmləndirən, regionları inkişaf etdirən və milli-mənəvi dəyərləri qoruyan strateji inkişaf konsepsiyasıdır. Məhz bu konsepsiyanın ardıcıl həyata keçirilməsi Azərbaycanın gələcək sosial-iqtisadi tərəqqisinin mühüm təminatlarından biri olacaq.

***Vaqif BAYRAMOV***
***XQ***

# "Hacı oğlu 2023" torpaqdan güc alır

## *MMC Masallıda mövsümi işlərə 400 nəfər cəlb edib*

**Masallı rayonunda aqrar sektorda bir çox istehsal və emal müəssisələri uğurla fəaliyyət göstərir. Onların arasında Böyük Xocavar kəndində yerləşən və ətrafdakı bir neçə digər yaşayış məntəqəsini də əhatə edən "Hacı oğlu 2023" MMC xüsusilə fərqlənir. 15 il əvvəl çiyələkçiliklə məşğul olan bu özəl müəssisə işə düşəndə burada cəmi 60 adam çalışırdı. Sonra onların sayı 80-ə, daha sonra 100-ə çatdı. İndi burada yaz-yay mövsümündə 400-dən çox əməkçi işləyir.**

**MMC-nin direktoru Seyran Muradov** sadə, əməksevər, torpağa qəlbən bağlı insandır. Torpağın dilini öyrənib, görüb-götürüb, xoşbəxtliyini halal ruzi qazanmaqda tapıb. Deyir ki, torpaqdan, bağda-bostanda çalışmaqdan hədsiz zövq alıram. Torpaq daim sevgi, diqqət və qayğı tələb edir. Onu ürəklə əkib-becərəndə bərəkətli olur, zəhməti itirmir.

Seyran ali təhsilini başa vurduqdan sonra üzünü həmişəlik aqrar sektora tutub. Təmiz, halal zəhmətlə yaşamağın yolunu əkinçilikdə görüb. 2011-ci ildə Masallı rayonunun Təzə Alvadı kəndində 6 hektar sahəni icarəyə götürüb. O vaxtdan əsasən çiyələk yetişdirməklə məşğuldur. Hər hektardan bir qayda olaraq 40 tona yaxın məhsul götürür.



Müəssisə hər il ilk nübar məhsulunu respublikamızın daxili bazarlarına çıxarır. Sonra isə Masallı brendli məhsul Rusiya və Qazaxıstana yola salınır.

Seyran Muradaov imanlı, inanclı insandır. Bir neçə il əvvəl müqəddəs Həcc ziyarətində olub. Həm də mehriban, maraqlı həmsöhbətdir. Deyir ki, işgüzar insan üçün onun əmək fəaliyyətində sərbəstlik böyük nemətdir. Keçmiş sovet dönəmində kəndliyə imkan verilməyib, başının üstündə durub deyiblər: bunu ək, belə becər, belə suvar. Kəndli kəndçilikdən məhrum edilib. İndi, çox şükür Allaha, ölkəmiz müstəqillik qazanandan sonra kəndlinin əl-qolu açılıb. Nə əkdiyini, necə becərəcəyini özü hamıdan yaxşı bilir. Dövlətimiz kənd təsərrüfatının inkişafına lazımi səviyyədə qayğı göstərir. Nəticə isə göz qabağındadır. Aqrar sahə durmadan inkişaf edir.

Hacı Seyran sonra fəxrlə bildirdi ki, o, keçən ay Bakı Ekspo Mərkəzində keçirilən XIX Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumunda iştirak edib. Forum çərçivəsində kənd təsərrüfatı naziri Məcnun Məmmədov "Masallı rayonunun məhsulları" adlı pavilyonda nümayiş etdirilən aqrar sektorun məhsulları və el sənətkarlığı nümunələri ilə tanış olub. Nazir rayonun kənd əməkçilərinin əldə etdiyi nəticələri yüksək qiymətləndirərək yerli istehsalın genişləndirilməsinin və məhsulların rəqabət qabiliyyətinin artırılmasının vacibliyini vurğulayıb.



Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov da həmin mərasimdə iştirak edib. RİH başçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbbərliyi ilə ölkəmizdə, eləcə də Masallı rayonunda aqrar sahənin inkişafının daim diqqət mərkəzində saxlanıldığını, fermerlərin fəaliyyətinə hərtərəfli dəstək göstərildiyini qeyd edib: "Gərək düz danışasan, həqiqət necədir, olduğu kimi dilə gətirəsən. Masallı RİH başçısı Araz Əhmədov tez-tez bizim vəziyyətimiz, qayğı və çətinliklərimizlə maraqlanır. Eyni zamanda, fəhlələrlə iş başında səmimi görüşür, çalışır ki, halal əmək adamlarının maddi durumları, rifahları daim yaxşılaşsın".

Bütün bunları nəzərə alaraq sahibkar 3 oğlunu – Allahyar, Ceyhun və Ülvini rəhbərlik etdiyi özəl müəssisənin işlərinə cəlb edib. Ata və övladları birgə səylərlə çiyələk sahələrini daha da genişləndirə biliblər.

Məlumat üçün bildirək ki, "Hacı oğlu 2023" MMC-nin kollektivi hazırda rayonun Digah, Təzə Alvadı, Köhnə Alvadı, Böyük Xocavar, Banbaşı kəndlərində 87 hektar çiyələk plantasiyasında məhsul yetişdirir. "Murano", "kladio" və "karima" kimi yüksək məhsuldar çiyələk şitilləri yetişdirilərək vaxtında sahələrə köçürülüb. Bir hektarda 55 min şitil əkilib. Hər şitil 1 kiloqrama yaxın bar verir. Çiyələyin bir kiloqramı 2–3,5 manata satılır. İl ərzində təsərrüfatda 400-450 ton məhsul istehsal olunur. Müəssisənin Böyük Xocavar kəndində 170, Şərəfə kəndində 225 tonluq soyuducu anbarları var.

Böyük Xocavar kəndində müəssisənin yüksək aqrotexniki qaydada becərilən çiyələk sahələrini gəzərkən öyrəndik ki, bu günlər təsərrüfatda işlərin qızğın çağıdır. Belə ki, havalar isindikcə, çiyələk daha tez yetişir, dərim sürətlənir. Sahələrdə isə məhsul boldur. Yığım payız aylarında da davam edəcək. Əvvəlki illə müqayisədə istehsalın həcminin xeyli artacağı gözlənilir.

Yığım dövründə təsərrüfatda 400 nəfər çalışır. Yerli sakinlərlə yanaşı, Astara, Lənkəran, Biləsuvar rayonlarından da fəhlələr dərim prosesinə cəlb olunub. Gündəlik çay, şirniyyat və nəqliyyat xərcləri müəssisənin hesabına ödənilir. Yaz-yay mövsümündə fəhlələrin orta aylıq əməkhaqqı 900 manata çatır. Hazırda məhsul əsasən Rusiya bazarlarına yola salınır.

Ədalət naminə demək lazımdır ki, fəhlələr doğma elində, obasında sevdikləri və bacardıqları işlə məşğul olduqları, ən başlıcası, normal əməkhaqqı aldıqları üçün "Hacı oğlu 2023" MMC kimi qabaqcıl müəssisədə çalışmalarından razılıq edirlər.

Müəssisədə tanış olduğum bir gənc dedi ki, son illər yeni iş yerləri yaradıldığından Masallının kəndlərindən işləmək üçün şəhərə üz tutanların sayı xeyli azalıb. O, şəxsən bundan əvvəl Bakıda tikintilərin birində fəhləlik edirdi. Qazancı da indikindən heç də çox deyildi. İndi isə öz el-obasındadır, axşam iş bitəndə hər gün evinə, ailəsinə, kiçikyaşlı övladlarının yanına tələsir.

Sonda belə bir məqamı da qeyd etməyə dəyər ki, Hacı Seyran Muradovun rəhbərlik etdiyi müəssisə rayonun xeyriyyə işlərində də fərqlənir. Onların hamısını sadalasaq, uzun bir siyahı alınar. Lakin bu tədbirlərdən bir neçəsini xatırlamağa ehtiyac duyuruq. Banbaşı-Böyük Xocavar kəndlərarası yol müəssisənin hesabına işıqlandırılır. Şəhid və imkansız ailələrə mütəmadi yardımlar göstərilir. Bayramlarda işçilərə ərzaq, maddi yardımlar verilir. Bugünlərdə açıq havada keçirilən çiyələk festivalında təsərrüfatın nümunəvi işi, uğurları geniş nümayiş olunub.

"Hacı oğlu 2023" MMC-nin rəhbəri isə başçılıq etdiyi müəssisənin fəaliyyət dairəsini daha da genişləndirmək fikrindədir. O, yaxın vaxtda kivi bağı da salmaq arzusundadır. Bu istiqamətdə artıq hazırlıq işləri görülür. Bu isə o deməkdir ki, burada çalışanların, evinə halal ruzi aparan ailələrin sayı daha da artacaq.

"Hacı oğlu 2023" MMC-nin rəhbərliyinin gələcəklə bağlı planları və arzuları çoxdur. Bu niyyətlər uğurla yerinə yetirilərsə, bundan həm iş adamı, həm də yerli sakinlərin ailələri fayda götürəcək. Yaxşı, halal əməl sahiblərinə hamı kimi biz də uğurlar arzulayırıq.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*Günün narahatlığı*

# Uşaqlar sosial şəbəkə torunun hədəfində

## *Zorakılıq mənzərəsi onların kövrək qəlbini sarsıdır*

**Müasir dövrdə rəqəmsal texnologiyalar həyatın ayrılmaz hissəsinə çevrilib. İnternet, sosial media platformaları və mobil tətbiqlər uşaqlara informasiya əldə etmək, ünsiyyət qurmaq və öyrənmək üçün geniş imkanlar yaratsa da, onların təhlükəsizliyi ilə bağlı ciddi narahatlıqlar da gündəmə gəlir. Xüsusilə son illərdə uşaqların sosial şəbəkələrdə qarşılaşdıqları zərərli məzmun, kibertəzyiq, internet asılılığı və psixoloji problemlər dünyanın bir çox ölkəsində hökumətləri müəyyən tədbirlər görməyə vadar edir.**

Mütəxəssislər bildirirlər ki, uşaqların qarşılaşdıqları əsas bəlalardan biri yaşlarına uyğun olmayan məzmunların sürətlə yayılıb onları da ağuşuna almasıdır. Sosial media platformalarında zorakılığı təşviq edən videolar, təhlükəli çağırışlar və müxtəlif manipulyativ məzmunların azyaşlı istifadəçilərin psixoloji inkişafına mənfi təsir göstərməsi artıq ictimai narahatlıq yaradır. Alqoritmlərin istifadəçilərin diqqətini mümkün qədər uzun müddət platformada saxlamağa yönəlməsi isə uşaqların belə ziyanlı təsirlə tez-tez qarşılaşmasına səbəb olur.

Valideynlər övladlarının gündəlik həyatına nəzarət etsələr də, internetdə qarşılaşdıqları hər bir məzmunu izləmələri həmişə mümkün olmur. Bu səbəbdən bir çox ölkələr uşaqların rəqəmsal təhlükəsizliyinin təmin olunmasını artıq yalnız ailələrin deyil, dövlətlərin və texnologiya şirkətlərinin də məsuliyyəti hesab edirlər.

Bu istiqamətdə tədbirlər Böyük Britaniyada da müzakirə olunur. Baş nazir Keir Starmerin təklifinə əsasən, 16 yaşdan kiçik uşaqların sosial media platformalarına girişinə məhdudiyyətlərin tətbiqi nəzərdən keçirilir. Məlumatlara görə, təşəbbüs ölkə üzrə aparılan məsləhətləşmələrdən sonra daha intensiv şəkildə gündəmə gətirilib və hökumət mümkün hüquqi mexanizmləri araşdırır.

Britaniya hökuməti bu məsələdə ötən il oxşar qərar qəbul edən Avstraliyanın təcrübəsini də öyrənir. Ekspertlər hesab edirlər ki, Avstraliya modeli gələcəkdə digər ölkələr üçün də nümunə ola bilər. Ölkədə 2025-ci ildən etibarən 16 yaşdan kiçik uşaqların "TikTok", "YouTube", "Instagram" və "Facebook" kimi platformalara çıxışı məhdudlaşdırılıb. Qaydalara əməl etməyən şirkətləri isə 49,5 milyon Avstraliya dollarına qədər cərimə gözləyir. Avropa İttifaqında isə uşaqların rəqəmsal təhlükəsizliyini gücləndirmək məqsədilə yeni qaydalar hazırlanır. Avropa Parlamenti 16 yaşdan kiçik uşaqların valideyn icazəsi olmadan sosial media platformalarına girişinin qadağan edilməsini, 13 yaşdan aşağı uşaqlar üçün isə tam qadağa tətbiq olunmasını təklif edib.

ABŞ-da uşaqları onlayn risklərdən qorumağı hədəfləyən qanun layihələri yenidən müzakirəyə çıxarılıb. Bəzi ştatlarda sosial media hesabı açmaq üçün valideyn razılığı tələb olunur. Çin uşaqların ekran qarşısında keçirdiyi vaxtı məhdudlaşdıran xüsusi "uşaq rejimi" tətbiq etdiyi halda, Malayziya 16 yaşdan aşağı şəxslərin sosial media hesabı yaratmasına qadağa qoymağa başlayıb.

Mütəxəssislər təklif edirlər ki, sosial mediadan həddindən artıq istifadə uşaqlarda diqqət dağınıqlığı, yuxu pozuntuları, narahatlıq, depressiya əlamətləri və sosial münasibətlərdə çətinliklər yarada bilər. Xüsusilə özünü başqaları ilə müqayisə etməyə sövq edən məzmunlar yeniyetmələrin özünəinamına mənfi təsir göstərir. Bu səbəbdən bir çox psixoloq və pedaqoq uşaqların ekran qarşısında keçirdiyi vaxta nəzarətin vacibliyini vurğulayır.

**Hicran HÜSEYNOVA,**
**Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri:**



– Hazırda informasiya-kommunikasiya texnologiyaları dövrümüzün ən vacib tələblərindəndir. Bu gün elə bir sahə yoxdur ki, yeni nəsil texnologiyaların xidmətindən istifadə edilməsin. İnternet, sosial media hər kəsə informasiyaya rahat çıxış imkanı yaradır. Bu, yeni dövrün reallıqlarıdır. Bu sahədə kompleks yanaşma nümayiş etdirilir.

Uşaqlar dövlətin sərvəti, gələcəyə olan ümidi, sərmayəsidir. Azərbaycanda uşaqların müdafiəsi, sağlam inkişafı, təlim-tərbiyəsi, bilik və bacarıqlarının artırılması üçün geniş imkanlar yaradılır. Bu gün bir çox dövlətlərin qarşısında dayanan vacib məsələ informasiya təhlükəsizliyidir. Sosial şəbəkələrin həyatın ayrılmaz hissəsi olduğu dövrdə uşaqların psixoloji sağlamlığı üçün nəzarətsiz istifadənin qarşısının alınması vacibdir. Hazırda sual "qadağan etmək və ya etməmək" deyil. Əsas məsələ uşaqları inkişaf, öyrənmə və sosial qarşılıqlı əlaqə



üçün vacib imkanlardan məhrum etmədən real dünya təhlükələrindən qoruyan rəqəmsal mühitin yaradılmasıdır.

Dünyada müxtəlif tədqiqatlar aparılır. Məsələn, Avstraliyada 10-15 yaşlı uşaqların 96 faizi sosial mediadan istifadə edir və onların 70 faizi zərərli məzmun və davranışlarla qarşılaşır. Amerikada 2025-ci ildə aparılan bir araşdırma göstərib ki, 13-17 yaşlı qızların 71 faizi, oğlanların isə 54 faizi kiberzorakılıqla qarşılaşır. Amerikalı yeniyetmələrin 19,2 faizi kiberhücum səbəbindən məktəbi buraxdığını bildirib. Kiberbullinqə məruz qalan yeniyetmələrin 12 faizi son bir ildə özünə zərər verməyi düşünüb, 6 faizi isə buna cəhd edib. Ən yüksək riskə malik platformalar: "Instagram" kiberzorakılıq hadisələrində liderdir (42 faiz), ardınca "Facebook" (37 faiz) və "Snapchat" (31 faiz) gəlir. Digər tədqiqatlar "YouTube" ən yüksək göstərici olduğunu müəyyən edib. "YouTube"dakı uşaqların 79 faizi kiberhücuma məruz qalıb, ardınca "Snapchat" (69 faiz), "TikTok" (64 faiz) və "Facebook" (49 faiz) gəlir. Dövlət Statistika Komitəsinin 2024-cü ildə ev təsərrüfatlarında İKT-də istifadəyə dair seçmə statistik müayinənin nəticələrinə görə, əhalinin hər 100 nəfərinə düşən internet istifadəçilərinin sayı 90,8 olub. Bu göstərici 6-15 yaş qrupu üzrə isə 90,1 faiz təşkil edib. Sosial Tədqiqatlar Mərkəzinin 2025-ci il sorğusuna görə, məktəbyaşlı övladı olan respondentlərin 63,5 faizi övladının sosial mediadan istifadə etdiyini, 36,5 faizi isə istifadə etmədiyini bildirib.

Beynəlxalq təcrübə müxtəlif yanaşmalar nümayiş etdirir: Avstraliya, Danimarka, Norveç, Türkiyə və Fransa kimi ölkələr yaş məhdudiyyəti tətbiq edir, ABŞ və bəzi Avropa ölkələrində valideyn nəzarəti sistemləri yaradılıb. Çində sərt dövlət tənzimləmələri tətbiq olunur. Postsovet ölkələrinin bir çoxunda da minimum yaşla bağlı müzakirələr aparılır. Bu gün müzakirə etdiyimiz məsələnin məqsədi aydındır: uşaqları kibertəhdidlərdən, zorakılıqdan, zərərli məzmundan və mənfi zehni sağlamlığa təsirlərdən qorumaq. Ölkəmizdə 2018-ci ildə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanun qəbul edilib. Eyni zamanda, uşaqların hüquqlarının qorunması ilə bağlı digər sahələrdə də yaş məhdudiyyətləri tətbiq olunub, uşaqların siqaret, alkoqol, soyuq silah satışına, pornoqrafik məzmunlara çıxışına məhdudiyyət qoyulub. Mövcud qanunvericiliyə edilən dəyişikliklər uşaqların hüquqlarının qorunmasına yönəlib. Biz də bu dəyişiklikləri qəbul etməklə onları daha təhlükəsiz bir həyat vermiş oluruq.

**Ceyhun MƏMMƏDOV,**
**Milli Məclisin Elm və təhsil komitəsinin üzvü:**

– Sosial medianın və ağıllı telefonların uşaqlara təsiri, ümumilikdə isə, rəqəmsal mühitdə gənclərin zərərli təsirlərdən qorunması bu gün dünyada ən çox müzakirə olunan məsələlərdəndir. Bu problem qlobal miqyasda ciddi narahatlıq doğurur və cəmiyyətlər qarşısında yeni çağırışlar yaradır.

Ölkəmiz də bu reallıqları nəzərə alaraq müəyyən addımlar atmağa hazırlaşır. Bir müddət əvvəl Azərbaycan Prezidentinin imzaladığı sərəncamda Nazirlər Kabinetinə tapşırıq verilib ki, yetkinlik yaşına çatmamış şəxslərin sosial mediadan istifadəsinə dair müvafiq məhdudiyyətlərin tətbiqi ilə bağlı təkliflər hazırlansın.

Bu, zamanın tələb etdiyi bir qərardır. Belə bir addıma uzun müddətdir ehtiyac duyulurdu və məsələ cəmiyyətdə ciddi müzakirələrə səbəb olmuşdu. İnanırıq ki, həyata keçiriləcək tədbirlər təhsil prosesinə, uşaqların psixoloji sağlamlığına və ümumilikdə onların inkişafına müsbət təsir göstərəcək. Növbəti illərdə də bu qərarın nəticələrini daha aydın şəkildə müşahidə etmək mümkün olacaq.

Hesab edirəm ki, tətbiq olunacaq məhdudiyyətlər uşaqların və yeniyetmələrin zərərli təsirlərdən qorunmasına mühüm töhfə verəcək. Eyni zamanda, bu qərarın effektiv nəticə verməsi üçün müvafiq icra və nəzarət mexanizmlərinin hazırlanmasına da ehtiyac var. İnanıram ki, aidiyyəti dövlət qurumları bu istiqamətdə lazımi tədbirləri həyata keçirəcəklər.

Məsələ son dərəcə ciddi və aktualdır. Gənclərin, xüsusilə də məktəblilərin rəqəmsal mühitdə qarşılaşa biləcəkləri risklərdən



qorunması dövlət və cəmiyyət üçün prioritet məsələlərdən biri olmalıdır. Bu baxımdan sosial media istifadəsi ilə bağlı tənzimləyici addımların atılması müsbət nəticələr verəcək və gənclərə yönələn mənfi təsirlərin qarşısının alınmasına kömək edəcək.

Lakin bununla yanaşı, maarifləndirmə işlərinin də genişləndirilməsi vacibdir. Gənclərlə davamlı şəkildə işləməli, onlara rəqəmsal təhlükəsizlik və məsuliyyətli internet istifadəsi barədə məlumat verilməlidir. Eyni zamanda, ailələrlə də mütəmadi iş aparılmalı, valideynlər övladlarını rəqəmsal mühitin risklərindən qorumaq üçün lazımi bilik və bacarıqlarla təmin edilməlidirlər. İlk növbədə, valideynlər uşaqlarının rəqəmsal mühitdə fəaliyyətlərinə məsuldurlar. Bu baxımdan belə bir addımın atılması olduqca vacibdir.

***Ləman TƏHMƏZ***
***XQ***

---

*"Azərbaycan Mədəniyyəti – 2040"*

# Kitablar mənəvi sərvət saxlancıdır

## *Kitabxanalar isə bu xəzinəni qoruyan bilik bankıdır*

**"Kitabsız bir ömrün nə mənası var?" Həqiqətən də, bu xəzinədən məhrum qalan ruh elə öz can evində qəribsəyir. Bu xəzinənin keşiyində dayanan insanların fəaliyyəti cəmiyyətə mənəvi zənginlik gətirir. Belə ziyalılarımızdan biri də Yasamal Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) direktoru, fəxri mədəniyyət işçisi Lətifə Məmmədovadır. Onunla müasir dövrdə yazıçılıq, kitabxanaçılıq sənətinin çətinliklərindən, müəllif hüquqlarının toxunulmazlığından, ədəbiyyatın insan ruhunu saflaşdırma gücündən danışdıq.**

**– Lətifə xanım, siz vaxtilə elektron kataloqların və kitabxanaların, "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın, kitabxana saytlarının yaranmasına böyük dəstək göstərmisiniz.**

– İnsan sevib-seçdiyi sənətindən güc alanda zamanın çağırışlarını da hamıdan əvvəl hiss edir. Mədəniyyət Nazirliyinin, sonra isə Mədəniyyət və Turizm Nazirliyinin kitabxana sektoruna rəhbərlik etdiyim illərdə dünya sürətlə rəqəmsal müstəviyə keçirdi. Yaxşı başa düşürdüm ki, mənəvi xəzinəmiz, ədəbiyyatımız virtual məkanda da öz yerini almasa, gələcək nəsilləri mənən itirə bilərik. Elə bu məsuliyyətlə də ölkədə ilk elektron kitabxanaların və elektron kataloqların qurulmasına rəhbərlik etdim. "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nı, "Azərbaycanın kitab abidələri"nin reyestrini yaratmaq əməyimin ən gözəl bəhrəsi oldu.

Qısa zaman kəsiyində ölkənin 64 şəhər və rayon mərkəzləşdirilmiz kitabxana sisteminin hər birinin özəl veb-saytlarını yaratdıq. Dünyanın dörd bir yanına səpələnmiş Quba dağ yəhudiləri Amerikadan, İsraildən, Rusiyadan zəng vurub Quba kitabxanasının saytını izlədiklərini deyirdilər. Eyni zamanda, ləzgilər, avarlar, o cümlədən Avropada, Türkiyədə, ABŞ-da yaşayan soydaşlarımız Lənkəran, Qusar, Qazax, Gəncə, Zaqatala, İsmayıllı, Qəbələ, Qax, Lerik və Gədəbəyin virtual pəncərələrini fəxrlə seyr edir, təklif və arzularını bidirirdilər.

Ardınca respublika üzrə 58 şəhər və rayonda elektron kataloqlar yaratdıq. Bakıda qurduğumuz xüsusi veb mərkəz sayəsində elektron kataloq və elektron kitabxanalar gecə-gündüz işləyirdi. Sonra işin ikinci mərhələsinə keçdik, 20-yə yaxın kitabxanada tam elektron kitabxana modelini tətbiq etdik. "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nda isə 10 minə yaxın elektron kitab yerləşdirdik. Təəssüf ki, sonradan bu işlər yarımçıq qaldı. Nazirlik yenidən təşkil olunanda kitabxana sektoru ixtisara düşdü. Bu gün kütləvi kitabxanaların virtual məkanına baxsanız, çox acınacaqlı mənzərə ilə qarşılaşarsınız: həmin saytlardan, elektron kataloqlardan, elektron kitabxanalardan əsər-əlamət qalmayıb.

UNESCO-nun "İnformasiya hamı üçün" proqramının Azərbaycan Komitəsinin keçmiş sədri, eləcə də 5 kitabın, kitabxana-informasiya sahəsinə dair 50-dən çox məqalənin müəllifi kimi ölkəmizdə kitabxana-informasiya sahəsinin inkişafında Prezident İlham Əliyevin 2004–2008-ci illərdə kitabxanaların inkişafına səbəb olan 5 tarixi sərəncam imzalamasının tarixi önəmini də qeyd etmək istəyirəm. Bu qərarlardan sonra bütün kitabxanalara latın qrafikasında böyük tirajla nəşr olunan Azərbaycan və dünya ədəbiyyatı nümunələri, lüğət və ensiklopediyalar, uşaq ədəbiyyatı və s. nəşrlər verildi. Bu sahədə ilk Dövlət Proqramı uğurla həyata keçirildi.

**– Təcrübəli kitabxanaçı kimi bölgələrin mənəvi xəzinəsinin qorumasında kitabxanaların durumunu necə qiymətləndirirsiniz?**

– Bu gün Milli Kitabxanamızın 5 milyon nüsxədən ibarət nəhəng fondu var. Lakin bölgələrimizin, rayonlarımızın daxili mühitini əks etdirən diyarşünaslıq ədəbiyyatı yox səviyyəsindədir. Bax, əsl problem də elə buradadır. Hər bir şəhər və rayonun özünəməxsus kitabxana fondu var. Biz vaxtilə elektron kataloqları yaradanda məhz həmin yerli ədəbiyyatı, unudulmuş bölgə yaradıcılığını mərkəzləşdirib rəqəmsal dünyaya çıxarmağa çalışırdıq. Çünki informasiya texnologiyaları əsrində bu yerli bazalar dövlət, tarix və gələcək üçün çox böyük strateji əhəmiyyət kəsb edir.

Böyük dövlətlərin kəşfiyyat strukturları, strateji araşdırma mərkəzləri, milləti, coğrafiyanı öyrənmək, zəif və güclü tərəflərini kəşf etmək üçün şəhər və rayonların yerli qəzetlərinə, yerli yazarların əsərlərinə müraciət edir, ayrı-ayrı regionlarda yaşayan insanların mentalitetini, psixologiyasını araşdırırdılar. Onlar yazılardan oxuyub təhlil edirdilər ki, bu xalqın daxili xüsusiyyətləri nədən ibarətdir, gələcəkdə hansı regionda hansı meyillər baş qaldıra bilər.

**– Sizcə, süni intellekt kitabın ruhunu və kitabxanaçının intellektual vasitəçilik missiyasını əvəz edə bilərmi?**



– Maşın texniki işləri insandan daha tez, daha keyfiyyətli və qüsursuz görür. Əgər bir kitabxanada AKİS (Avtomatlaşdırılmış Kitabxana-İnformasiya Sistemi) varsa, süni intellekt orada möcüzələr yarada bilər.

Süni intellektin hava və su kimi lazım olduğu digər bir texniki sahə rəqəmsallaşma prosesidir. Kitablar skanerdən keçiriləndə mətndə mütləq müəyyən təhriflər, hərf qaçmaları, abzas səhvləri yaranır. Bəli, süni intellekt bizim ən böyük köməkçimizdir, amma heç bir zaman təbii intellektin yerini tuta bilməz. Bizim əsl missiyamız təbii intellekti inkişaf etdirmək və qorumaqdır. Bu isə kitabxanaların üzərinə düşür.

**– Hazırda Azərbaycanda kitabxana fondlarının rəqəmsallaşdırılması xarici ölkələrlə müqayisədə bir qədər zəifdir.**

– Bu gün bütün dünyada arxivlər, kitabxanalar sürətlə rəqəmsallaşdırılır. Bizdə bu proses xarici dövlətlərlə müqayisədə çox zəifdir. Çünki xaricdə bu işləri nəhəng maliyyə tutumlu robotlaşdırılmış texnikalar, sürətli skanerlər həyata keçirir. Bizdə isə belə yüksək texnologiyalar, hələ ki, yalnız Prezident Kitabxanasında və Milli Kitabxanada var. Həm də kor-koranə rəqəmsallaşmanın eyforiyasına qapılmaq olmaz. Məsələn, XIV və XV əsrlərə aid nadir kitablarımızı, əlyazmalarımızı rəqəmsal müstəviyə köçürmək çox çətindir, onların zədələnməsi qətiyyən yolverilməzdir. Bu tip unikal mənbələrin qorunmasında əsas prinsip onların fiziki bütövlüyünü və toxunulmazlığını təmin etməkdir.

Məsələn, Avstriya Milli Kitabxanasının fondunda dahi Nizami Gəncəvinin "Xəmsə"sinin nadir nüsxəsi mühafizə olunur. Avropalı mütəxəssislər o əlyazmanı yüksək intensivlikli şüalanmadan qoruyurlar. Çünki rəqəmsallaşma cihazlarının yaydığı istilik və şüa dalğaları əsrlərin sınağından keçmiş perqamentin, kövrək kağızın strukturunu pozur, qədim mürəkkəbin və miniatürlərin tərkibindəki təbii piqmentləri parçalayaraq onların geridönməz şəkildə deqradasiyasına səbəb olur.

Müəllif hüquqlarının qorunması məsələsi də rəqəmsallaşma prosesinin hüquqi tərəflərini təşkil edir. Təbii ki, mən dahi Nizaminin, Füzulinin, yaxud Nəsiminin əsərlərindən bəhs etmirəm, çünki onların üzərindən əsrlər keçib. Lakin qanunvericiliyə görə, müəllifin vəfatından sonra 75 illik möhlət keçməyibsə və ya müəllif özü həyatdadırsa, onun rəsmi icazəsi olmadan əsərlərinin elektron formata salınması yolverilməzdir.

Hətta bəzi müasir müəlliflər əsərlərinin rəqəmsallaşdırılmasına etiraz edirlər. Səbəbini soruşduqda haqlı arqument irəli sürürlər: "Mən bu kitabları satıram və ailəmi, həyatımı məhz bu yaradıcılığın gəliri ilə dolandırıram. Əgər mənim əsərim rəqəmsal müstəviyə keçib hamı üçün əlçatan olsa, təbii ki, heç kəs gedib onun çap variantını pulla almayacaq". Amma müəlliflərə elektron nüsxənin vacibliyini izah etmək lazımdır.

Təsəvvür edin ki, hər hansı bir nəşriyyat bu günə qədər heç yerdə işıq üzü görməmiş əlyazmanı – məsələn, Cəlaləddin Ruminin, Nəsirəddin Tusinin və ya dahi Ömər Xəyyamın əsərini tapıb ilk dəfə çap edir. Təbii ki, ortada varis yoxdur, müəllif hüququ müddəti çoxdan bitib. Lakin qanunvericiliyə görə, həmin əsəri ilk dəfə elmi dövriyyəyə buraxıb nəşr edən qurum müəlliflik hüququna bənzər xüsusi bir imtiyazı öz üzərinə götürmüş olur.

Belə məqamlarda həmin nəşriyyatlar o əsərin rəqəmsallaşdırılmasına birmənalı olaraq icazə vermirlər. Ona görə də rəqəmsal kitabxanalar yaradılanda texniki çətinlikləri, müəlliflərin fikirlərini və nəşriyyatların hüquqlarını nəzərə almaq lazımdır.

**– Sizə sevimli işinizdə yeni uğurlar arzulayırıq!**

***Müsahibəni apardı:***
***Fidan ƏLİYEVA***
***XQ***

*I Türkoloji Qurultay – 100*

# Tarixi Bakı məclisinin “arxa cəbhə” qəhrəmanları

**I Türkoloji Qurultayın 1926-cı ildə nəşr olunmuş stenoqramında adları yer almayan, amma bu elmi-mədəni mühitdə mühüm rol oynamış bir sıra şəxslər olmuşdur. Filologiya elmləri doktoru, professor Asif Rüstəmli qurultay iştirakçılarına həsr etdiyi araşdırmalarının birində vurğulayır ki, Cəfər Cabbarlının adı rəsmi nümayəndələr siyahısında yer almasa da, bu mötəbər toplantıda çox yaxından iştirak etmişdir. Alim bu fikrini Cəfər Cabbarlının adına tərtib olunmuş və hazırda Azərbaycan Dövlət Teatr Muzeyində qorunan rəsmi sənədlə əsaslandırıb.**

“Ədəbiyyat” qəzetinin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Azər Turan bu qənaəti daha da genişləndirərək adları stenoqramda olmayan, lakin qurultayda fəal iştirak edən bir sıra digər simaları da həmin sıraya daxil edir. Hətta onun qənaətinə görə, rəsmi siyahılarda adı göstərilməsə də, qurultayın faktiki iştirakçıları sırasında Hüseyn Cavid də olub. O bildirir ki, 2003-cü ildə Hüseyn Cavidə həsr olunmuş “Səma şairi” sənədli filminin ssenarisi üzərində işləyərkən Bakı Türkoloji Qurultayına dair ayrıca epizodun filmə daxil edilməsini zəruri hesab edib və bu məqsədlə kinoxronika materiallarına baxış keçirilib. Baxış zamanı filmin məsləhətçisi Turan Cavidlə birlikdə izlənən kadrda iclas zalında ikinci sırada əyləşən şəxsin məhz Hüseyn Cavid olduğunu Turan Cavid qəti şəkildə təsdiqləyib.

Əziz Şərif qurultayın açılış gününü yada salarkən qeyd edir ki, iclas zamanı Hüseyn Cavid onun yanında əyləşmişdi və o, həmin gün Mirzə Cəlil, Sultan Məcid Qənizadə və digər tanınmış ziyalılarla da görüşmüşdü.



Türkoloji Qurultayın tərcüməçisi Mirzə Cəlal

Beləliklə, rəsmi sənədlərdə adları yer almasa da, həm xatirə mənbələri, həm də vizual materiallar Hüseyn Cavidin, eləcə də Cəlil Məmmədquluzadənin Bakı Türkoloji Qurultayında iştirak etdiyini aydın şəkildə göstərir.

Stenoqramda adları olmayan Əli Yusifzadə və atası Mirzə Cəlal da I Türkoloji Qurultayın iştirakçılarından olublar. Əli Yusif katib kimi, atası Mirzə Cəlal isə tərcüməçi qismində fəaliyyət göstərmişlər. Hətta araşdırmalarda xüsusi vurğulanır ki, məhz Əli Yusifzadə qurultay iştirakçıları arasında sovet repressiya mexanizminin ilk qurbanı sayılır. Qurultay başa çatdıqdan cəmi üç gün sonra – 1926-cı il martın 8-də Azərbaycan Fövqəladə Komissiyasının əməkdaşı Vasinin göstərişi ilə Əhməd Hacınski, Dadaş Həsənov və Əli Yusifzadənin mənzillərində axtarış aparılmış və onlar həbs olunmuşlar. İstintaq 1927-ci il fevralın 28-də yekunlaşmışdır. Əli Yusifzadə və bir sıra digər ziyalılara əvvəlcə güllələnmə hökmü çıxarılmışdır. Sonradan isə bu hökm 10 il müddətinə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilmişdir.

Solovki düşərgəsində saxlanıldıqları dövrdə Maksim Qorkinin həyat yoldaşı ilə birlikdə düşərgəyə səfəri zamanı məhbuslar ona gizli məktub çatdıra bilmiş, məktub Stalinə təqdim edilmiş və nəticədə düşərgədəki rejim müəyyən dərəcədə yumşaldılmışdır. 1935-ci ilin yanvarında azadlığa buraxılan Əli Yusifzadəyə Azərbaycana qayıtmağa icazə verilməmiş, Özbəkistana göndərilmişdir. Lakin 1937-ci ildə repressiyaların yeni mərhələsi zamanı Daşkənddə yenidən həbs edilmiş və həmin ilin 18 avqustunda güllələnmişdir.

İstər-istəməz sual yaranır: Əli Yusiflə yanaşı, adları çəkilən digər şəxslər kimlər olmuşlar? Atası Mirzə Cəlal məlumdur – o, Şuşada anadan olmuş, azərbaycanlı şair, yazıçı və redaktordur. O, “Fərhad və Şirin” operasının müəlliflərindən biri, həmçinin tacik dilində çap edilmiş ilk qəzetin naşiri və redaktorudur. Azərbaycan Cümhuriyyəti Milli Şurasının və Difai Partiyasının üzvü olmuş, “Həyat”, “İrşad”, “Tazə həyat”, “İttifaq”, “Hilal”, “Asari-həqiqət”, “Sədayi-həqq” kimi qəzetlərdə “C. C. Y”, “Cəlal Qarabaği”, “Cəlal Yusifi” və “Mirzə Cəlal Yusifzadə” kimi imzalarla çıxış etmişdir.

I Türkoloji Qurultayda isə o, yalnız tərcüməçi qismində fəaliyyət göstərmiş və adı rəsmi iştirakçı siyahısında yer almamışdır. Bu isə göstərir ki, bəzi önəmli şəxslərin qurultaya töhfəsi rəsmi sənədlərdə əks olunmasa da, onların rolu və iştirakı tarixi faktdır.



**Məhbus şəkilləri. Bakı, 2 №-li İslah evi. Dadaş Həsənov (4), Əhməd Hacınski (1), İsmayıl Qasımzadə (2).**

*Qalan üç nəfərin kim olduğu bilinmir. 1926-cı il.*

Bəs digər 2 iştirakçı – Əhməd Hacınski və Dadaş Həsənov kim idilər? Dadaş Həsənov haqqında məlumatlar olsa da, Əhməd Hacınski isə tam bir sirr olaraq qalır. Qurultay iştirakçılarından biri kimi tarixdə izi var, amma onun qurultaydakı fəaliyyəti haqqında dəqiq məlumat yoxdur. Soyadı ilk olaraq Azərbaycan Cümhuriyyətinin poçt-teleqraf naziri Camo bəy Hacınski və parlamentin katibi Mehdi bəy Hacınski adlarını xatırladır. Düzdür, onlar doğmaca qardaş idilər, amma Əhməd Hacınskinin onlarla qohumluğu barədə heç bir məlumat yoxdur.

İllər əvvəl keçirilmiş bir aksion elanında Əhməd Hacınskinin adına rast gəlinir, elanda məşhur jurnalist Yuri Libedinskinin “Həftə” adlı povestinin repressiya qurbanı Əhməd Hacınskinin tərcüməsində nəşr olunmuş nadir kitabın satışa çıxarıldığı qeyd edilmişdi. Məlumata görə, həmin nəşrin adı “Həftə”, müəllifi Yuri Libedinski, tərcüməçisi isə Əhməd Hacınskidir. Kitab 1925-ci ildə Bakıda nəşr edilmiş, 26 səhifə həcmindədir və Azərbaycan dilində, ərəb qrafikalı (əski yazı) ilə çap olunmuşdur. Aksionda təqdim edilən məlumata əsasən, bu nəşr nadir tapılan kitablardan hesab olunur və erkən sovet dövrü Azərbaycan nəşr mədəniyyəti baxımından xüsusi əhəmiyyət daşıyır. Həmçinin bildirilir ki, kitabın fiziki vəziyyəti yaxşıdır və aksion zamanı onun ilkin satış qiyməti 1 manat olaraq müəyyənləşdirilib.

Bu, sanki unudulmuş, görünməyən qəhrəmanlar həmin 8 günün sehrli atmosferinə öz töhfələrini vermiş, amma adları tarixin səhifələrinə yazılmamışdır. Arxiv və mətbuat səhifələrində, eləcə də qurultay nümayəndələrinin xatirələrində I Türkoloji Qurultayın son anları belə təsvir olunur:

“Gecə saat 10:15-dir. İsmailiyyə Mədəniyyət Sarayının parlaq işıqları şəhəri bürüyür, geniş pəncərələrdən türk xalqlarının birliyinin sədaları yayılan dalğalar kimi axır. Burada toplanan hər bir nümayəndə səkkiz gündür ki, sanki bir ailənin üzvləri kimi mehribanlıq və səmimiyyət içindədir. Hər kəs ana dilində danışır, ürəyindəki sözləri, əsrlər boyu daşıdığı problemləri açıq və ehtiramla paylaşır. Tarixin qədim qatlarından gələn türk xalqları heç vaxt belə bir araya gəlməmiş, qəlblərində yığdıqları yükü bir-birinə belə səmimi şəkildə açmamışdılar…

600 nəfərin birlikdə oxuduğu “İnternasional”, sanki türk birliyinin ilk nəfəsi, ilk himni kimi səslənirdi – ürəklərdə titrəyən, gələcəyə ümid və bağlılıq toxumlarını səpən bir ahəng...”

Bu hiss-həyəcan dolu anların fonunda diqqəti çəkən başqa bir təfərrüat da var: rəsmi dəvət alan 131 nümayəndə ilə başlayan qurultay, son günündə 600 nəfərin iştirakı ilə yekunlaşır. Bu, türk birliyini göstərən ən təsirli nümunələrdəndir. Demək ki, adları rəsmi siyahılarda olmayan onlarca alim, yazıçı və Türk dünyasının dəyərləri də bu böyük tarixdə iştirak etmiş, öz səsini, enerjisini və ürəkdən gələn dəstəyini qurultayın ruhuna qatmışlar...

***Namiq QƏDİMOĞLU***
***XQ***

# İqtisad Universitetində imtahan yeniliyi

## *Bu ildən tələbələrin xarici dil biliyi APTIS sistemi ilə qiymətləndirilir*

**Britaniya Şurası (British Council) ölkəmizdə tələbələrin ingilis dili biliyinin yekun qiymətləndirilməsini ilk dəfə Azərbaycan Dövlət İqtisad Universitetində beynəlxalq səviyyədə tanınan APTIS sistemi əsasında apardı.**



İmtahanın ilk günündə ali məktəbin rektoru, professor Ədalət Muradov, Britaniya Şurasının Azərbaycan üzrə direktoru Nərgiz Hacıyeva və media nümayəndələri yeni qiymətləndirmə prosesini izlədilər, tələbələrin təəssüratını öyrəndilər.

Media nümayəndələrinə açıqlamasında Ədalət Muradov bildirdi ki, ali məktəbdə xarici dil fənni 2 il tədris olunur, dinləmə, oxuma, yazma və danışıq bacarıqlarını əhatə edir: “Bu ildən II kurs tələbələrinin xarici dil biliyinə APTIS formatında qiymət verilməsi qərara alınıb. Azərbaycan ali təhsil müəssisələri arasında ilk dəfə tətbiq edilən bu model əldə olunan nəticələrin xaricdə də tanınmasına imkan yaradacaq. Minimum B1 səviyyəsində nəticə göstərən tələbələr imtahandan keçmiş hesab olunacaq və beynəlxalq səviyyədə tanınan APTIS sertifikatı əldə edəcəklər”.

Ali məktəb rəhbəri qeyd etdi ki, bu yenilik Azərbaycan, rus və türk dillərində təhsil alan tələbələrin də ingilis dili səviyyələrinin yüksəldilməsinə xidmət edəcək. Ölkədə ən güclü ingilisdilli kafedra İqtisad Universitetində fəaliyyət göstərir. 117 xarici dil müəlliminin əksəriyyətinin beynəlxalq xarici dil sertifikatı var. Növbəti tədris ilindən tələbələrə ingilis dili fənnini eyni müəllim tədris edəcək, bununla eyni zamanda tələbələrin və müəllimlərin də uğurunu izləmək mümkün olacaq.

Məzunlarının rəqabətqabiliyyətli olmasında xarici dil biliklərinin önəmini vurğulayan Ədalət Muradov daha sonra dedi ki, əsas məqsədlərdən biri tələbələrin xarici mübadilə proqramlarında iştirakına, nüfuzlu ali təhsil müəssisələrində magistratura təhsili almalarına üstün imkan yaratmaq, tanınmış xarici professorları universitetə cəlb etməkdir: “Universitetdə tələbələrin xarici dili mükəmməl öyrənməsinə yüksək önəm verilsə də, əsas hədəf Azərbaycan dilində yüksək keyfiyyətli təhsil verən universitet modelini formalaşdırmaqdır”.

Britaniya Şurasının Azərbaycan üzrə direktoru Nərgiz Hacıyeva isə jurnalistlərə bildirdi ki, İqtisad Universitetində APTIS imtahanının keçirilməsi tərəflər arasında əməkdaşlığın uğurlu davamını və tələbələrin ingilis dili biliklərinin artırılmasına yüksək önəm verilməsini göstərir. İmtahanda 3 min 500-dən çox tələbə iştirak edir. Nəticələr 3 günə onlayn şəkildə elan olunacaq.

***T.RÜSTƏMLİ***
***XQ***


AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ

**BAKI SLAVYAN UNİVERSİTETİ**

*Kafedralar üzrə dosent, baş müəllim və müəllim vəzifələrini tutmaq üçün*

**MÜSABİQƏ ELAN EDİR**

**Kafedralar üzrə dosent vəzifəsini tutmaq üçün:**

1. Pedaqogika kafedrası üzrə – 1 yer.
2. Slavyan xalqlarının ədəbiyyatı kafedrası üzrə – 1 yer.

**Kafedralar üzrə baş müəllim vəzifəsini tutmaq üçün:**

1. Azərbaycan tarixi və multikulturalizm kafedrası üzrə – 1 yer.
2. Xarici dillər və tərcümə kafedrası üzrə – 1 yer.
3. Məktəbəqədər və ibtidai təhsil kafedrası üzrə – 1 yer.
4. Azərbaycan ədəbiyyatı kafedrası üzrə – 1 yer.

**Kafedralar üzrə müəllim vəzifəsini tutmaq üçün:**

1. Azərbaycan tarixi və multikulturalizm kafedrası üzrə – 6 yer.
2. İctimai elmlər kafedrası üzrə – 6 yer.
3. Jurnalistika kafedrası üzrə – 2 yer.
4. Regionşünaslıq kafedrası üzrə – 4 yer.
5. Xarici dillər və tərcümə kafedrası üzrə – 7 yer.
6. Xarici dillərin tədrisi və metodikası kafedrası üzrə – 2 yer.
7. Qərbi slavyan filologiyası kafedrası üzrə – 2 yer.
8. Şərqi slavyan filologiyası kafedrası üzrə – 3 yer.
9. Balkanşünaslıq kafedrası üzrə – 3 yer.
10. Məktəbəqədər və ibtidai təhsil kafedrası üzrə – 3 yer.
11. Pedaqogika kafedrası üzrə – 4 yer.
12. Psixologiya kafedrası üzrə – 7 yer.
13. Ümumi dilçilik kafedrası üzrə – 3 yer.
14. Azərbaycan dili kafedrası üzrə – 7 yer.
15. Türkologiya kafedrası üzrə – 3 yer.
16. Slavyan xalqlarının ədəbiyyatı kafedrası üzrə – 1 yer.
17. Rus dili kafedrası üzrə – 3 yer.
18. Roman-german filologiyası kafedrası üzrə – 5 yer.
19. İnklüziv və adaptiv təhsil kafedrası üzrə – 2 yer.
20. İnformasiya kommunikasiya texnologiyaları kafedrası üzrə – 4 yer.

***Qeyd: müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən 1 (bir) ay müddətində aparılır. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər ərizə ilə birlikdə yalnız 3, 4, 5, və 6-cı bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər):***

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Ali təhsil haqqında diplomun surəti.
4. Elmi dərəcə haqqında diplomun surəti.
5. Elmi ad haqqında diplomun surəti.
6. Elmi və elmi-metodiki işlərin siyahısı.

**Ünvan:** Bakı AZ 1014, S.Rüstəm küçəsi 33.
**Telefon:** (012) 599-08-70, daxili nömrə 208.



“STAR PARK” ASC səhmdarlarının nəzərinə!

24 iyul 2026-cı il saat 14.00-da Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül qəsəbəsi, Neft prospekti 30/68 nömrəli ünvanda “Star Park” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1** Səhmdar cəmiyyətin 2025-ci il üçün maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
**2.** Müşahidə şurası sədrinin və üzvlərinin seçilməsi.
**3** Digər məsələlər.

Səhmdarlar onları maraqlandıran məsələlərlə əlaqədar rəhbərliyə müraciət edə bilərlər.

Səhmdarlardan şəxsiyyət vəsiqələrinin surətini və hesab açılmış bankın rekvizitlərinin təqdim edilməsi xahiş olunur.



“Moskviçtexxidmət” ASC səhmdarlarının nəzərinə!

**2026-cı il iyunun 6-da keçirilmiş növbəti ümumi yığıncaqda aşağıdakı qərarlar qəbul edilmişdir:**
**1** “Moskviçtexxidmət” ASC-nin 2025-ci ilə aid maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının hesabatı təsdiq edilərək qənaətbəxş hesab olunmuşdur.
**2.** Digər məsələlər barədə qərar qəbul edilməmişdir.

***Rəhbərlik***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 100 (31069) 10 iyun 2026-cı il, çərşənbə

İDMAN

## Azərbaycan–Özbəkistan antidopinq memorandumu



**Azərbaycan və Özbəkistan antidopinq agentlikləri arasında əməkdaşlıq memorandumu imzalanıb. Sənədi Azərbaycan Milli Antidopinq Agentliyinin icraçı direktoru Təhminə Tağı-zadə və Özbəkistan Milli Antidopinq Agentliyinin direktoru Abdüşükür Sadıqov imzalayıblar.**

Memorandum antidopinq təhsili, dopinq nəzarəti, terapevtik istifadə üçün istisnalar (TUE), idmançıların bioloji pasportu (ABP), ADAMS sistemi, nəticələrin idarə olunması, araşdırma və təhqiqat fəaliyyəti, həmçinin beynəlxalq idman tədbirlərində əməkdaşlığın inkişafını nəzərdə tutur. Bundan əlavə, tərəflər təcrübə mübadiləsi aparmaq, birgə təlim proqramları təşkil etmək, informasiya və metodik materiallarla qarşılıqlı əməkdaşlığı gücləndirəcəklər.

## Boks hakimimizin uğuru




**Azərbaycanlı beynəlxalq dərəcəli boks hakimi Anar Babanlı hakimlər üzrə ekspert imtahanından uğurla keçib. O, bu nailiyyətə Taylandın paytaxtı Banqkokda gənclər arasında keçirilən Olimpiya Təsnifat Kubokunda imza atıb.**

Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, "World Boxing" təşkilatı lisenziya xarakterli yarışda nəzəri və praktiki dərslərə qatılan həmyerlimizin imtahandan uğurla keçdiyini, Babanlının bundan sonra hakimlərin işini qiymətləndirəcəyini açıqlayıb. Bu, Azərbaycan boks tarixinə ilk kimi düşüb.

Qeyd edək ki, Anar Babanlı Tokio–2020 Yay Olimpiya Oyunlarında, 2 dünya, 10-dan çox Avropa və Asiya çempionatlarında referilik edib.

## UEFA nümayəndəsi AFFA-da




**AFFA-nın rəhbərliyi, məşqçilik təhsili şöbəsi, futbolun inkişafı və qadın futbolu üzrə əməkdaşları UEFA-nın texniki inkişaf üzrə məsləhətçisi Frank Ludolf ilə görüşüblər.**

AFFA-dan verilən məlumata görə, görüş zamanı Azərbaycanda futbolun inkişafı istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verilib, məşqçilərin kütləvi və peşəkar səviyyədə inkişafı ilə bağlı məsələlər müzakirə olunub. Frank Ludolf öz növbəsində UEFA-nın futbolun kütləviliyinin artırılması istiqamətində məşqçi inkişafı sahəsində əsas trendləri və gələcək vizyonu barədə fikirlərini bölüşüb.

Müzakirələrdə regionlarda məşqçilərin və məşqçi təlimçilərinin sayının artırılması, məşqçilər üçün davamlı peşəkar inkişaf imkanlarının yaradılması, həmçinin rəqəmsallaşmadan tədris və öyrənmə prosesində səmərəli istifadə kimi məsələlərə toxunulub.

Görüş çərçivəsində məşqçilik təhsili sisteminin daha da təkmilləşdirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi və yerli futbol mühitinə uyğun tətbiqi istiqamətində fikir mübadiləsi aparılıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Vamiq Məmmədəliyev – 80*

# Ustad tarzənin həzin könül rübabı

**Bu gün ömrünün 8-ci onilliyini tamamlayan ustad musiqiçi – görkəmli tarzən, professor, Xalq artisti Vamiq Məmmədəliyev Azərbaycan tar ifaçılığı mədəniyyətinin ustad sənətçilərindəndir.**

...Onun haqqında bu qeydləri Vamiq müəllimin ifasında hərfi mənası yol, məslək anlamına gələn "Rahab" muğamını dinləyə-dinləyə yazıram. 25 il əvvəl çəkilmiş lent dinləyicini 250, bəlkə də 2500 illik keçmişə qovuşdurur. Tarın simlərindən qopan hər səs xalq ruhunu əks etdirir, incə, həzin, lirik notları ilə tarixi yaddaşı təzələyir. Özlüyündə bir kamillik və səmavi aləmlə əlaqəni ehtiva edir. Adamın duyğularını sanki sufi təfəkkürünə qovuşdurur. Və anlayır ki, "Qoymaz ol tarı müğənni niyə ağuşindən" - çünki "Huş ilə guş edə hər kimsə, gedər huşindən"...

Bəlkə də ustad tarzənin mahir ifasının bir səbəbi onun böyük qardaşı – "Qurani-Kərim"in tərcüməçisi mərhum akademik Vasim Məmmədəliyevin ruhani zehniyyətinin təsiri ilə bağlıdır. Yoxsa, "Rahab"ı məxsusi tərzdə dilləndirib təqdim etmək hər sənətkarın hünəri deyil. Yeri gəlmişkən, Vasim müəllim özü də gözəl tar çalıb, muğamı, əruzu çox yaxşı bilib. Hər halda, ailə mühitinin rolu danılmazdır.

Vamiq Məmmədəliyev 1946-cı ildə Bakının Kürdəxanı kəndində anadan olub. Atası Məmmədəli Məmmədəliyev uzun illər Tibb Universitetində latın dilini tədris edib - terapevt, şərqşünas, ziyalı insan olub. Vamiq kənd klubunda Dərdayıl Aydəmirovun sinfində ilk musiqi təhsili alıb və tara ömürlük könül bağlayıb. Sonralar "Bahar" xalq çalğı alətləri ansamblını yaradıb. Klubda təlimatçı, bədii rəhbər və müdir vəzifələrində çalışıb.

Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda və Azərbaycan Dövlət Konservatoriyasında oxuyan gənc Vamiq Bəhram Mansurov, Əhməd Bakıxanov, Hacı Məmmədov, Adil Gəray, Oqtay Quliyev, Sərvər İbrahimov kimi ustadlardan dərs alıb. Özü də müxtəlif musiqi təhsili ocaqlarında müəllimlik edib. 2001-ci ildə Mədəniyyət və İncəsənət Universitetində açılan musiqi sənəti fakültəsinə dekan vəzifəsinə dəvət olunub. Onlarca elmi məqalə, metodiki göstəricilər, tədris proqramları tərtib edib. Orada rəhbər kimi çalışmaqla bərabər, ifa yaradıcılığını da təkmilləşdirib.



O, bir çox xanəndəni ustalıqla müşayiət edib. Konsertlərdə, eləcə də qastrol səfərlərində, festivallarda uğurlu çıxışlarına görə mükafatlara layiq görülmüş Vamiq Məmmədəliyevin ifasında "Xaric Segah" və "Rahab" muğamları 1985-ci ildə Ümumittifaq "Melodiya" firmasında lentə alınaraq böyük tirajla yayılıb. 1989-cu ildə İsveçdə keçirilən beynəlxalq folklor festivalında 1-ci yeri tutan ustad bir çox Avropa ölkələrindən dəvətlər alıb. Məşhur Fransa şirkəti Vamiq Məmmədiyevin ifasında muğamları, eləcə də və onun müşayiətilə Qəndab Quliyeva ilə Canəli Əkbərovun oxularını lentə köçürərək kütləvi tirajla istehsal edib. İran, Türkiyə və digər ölkələrdə də Vamiq müəllim mötəbər bayram tədbirlərində uğurlu çıxışları ilə könülləri oxşayıb. Onun ifasında lentə alınan "Bayatı Şiraz", "Humayun", "Bayatı Qacar", "Nəva" muğamları qızıl fonda daxil edilib.

Musiqimizin təbliğində, gənc xanəndə və müşayiətçilərin yetişməsində Vamiq Məmmədəliyevin xidmətləri danılmazdır. Heydər Əliyev Fondunun Azərbaycan muğamları üzrə layihələrində fəal iştirak edən sənətkar xatirə gecələrinin, muğama dair mədəni tədbirlərin də aparıcı siması kimi görünür. Zəngin videotekası var, musiqi kolleclərində və məktəblərində təşkil olunan ustad dərsləri hər kəsə olduqca xoş təsir bağışlayır.

Vamiq Məmmədəliyevin unudulmaz həmkarı – özünün və qardaşı Vasim müəllimin yaxın sirdaşı olan Ramiz Quliyevin xatirəsini daim əziz tutması isə həm də onun necə dostcanlı, açıqürəkli, səmimi və sədaqətli bir şəxsiyyət olduğunu göstərir. Bir neçə ay əvvəl dünyasını dəyişən Ramiz Quliyevlə vida mərasimində çıxışı zamanı dedi ki, Azərbaycan musiqisinə böyük töhfələr vermiş görkəmli tarzənin ruhu ilə gecə səhərə kimi ürəyimdə danışmışam. Onu heç vaxt unutmaq mümkün deyil...

Sənətkarın övladları da mədəniyyətin müxtəlif sahələrində çalışırlar. Salam televiziya rejissorudur, filmlərə də çəkilib. Qurban təcrübəli işıqçıdır. Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətlə məşğul olan tanınmış rejissor və prodüser İqbal Məmmədəliyev isə atasının musiqiyə olan sevgisini mənimsəyib – gözəl tar çalır.

Haqqında 5 sənədli film çəkilmiş professor Vamiq Məmmədəliyevin həyatı, fəaliyyəti, ifaçılıq sənəti gənc nəsil üçün örnəkdir.

Görkəmli sənətkara cansağlığı arzusu ilə:

*Əli NƏCƏFXANLI*
*XQ*




## Zəngilanlı gənc 9 xarici universitetdən qəbul xəbəri alıb

**Böyük Qayıdış proqramı çərçivəsində doğma Zəngilana dönmüş və Prezident İlham Əliyev tərəfindən mənzillə təmin olunmuş Yaqub Yaqubovun ailəsi bugünlərdə daha bir xoş hadisə ilə üzləşib. Bu sevinci isə onlara ailənin oğul övladı Yusif Yaqubov yaşadıb.**



Yusif bu yaxınlarda keçirilmiş qəbul imtahanlarında yüksək nəticə göstərərək ADA Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət İqtisad Universiteti və ölkəmizin bir sıra digər ali təhsil müəssisələrinə imtahansız qəbul olmaq hüququ qazanıb. O, həmçinin Böyük Britaniyanın Edinburq Universiteti, Çinin "Şanxay Jiao Tong" Universiteti və Harbin Texnologiya İnstitutu, Cənubi Koreyanın Seul Milli Universiteti, Türkiyənin Bilkent, Sabancı və Koç universitetləri, eləcə də ABŞ-ın Arizona Dövlət Universiteti və "Peys" Universitetində də təhsil almaq imkanı əldə edib. Qəbul olduğu ali məktəblərdən ona müxtəlif məbləğlərdə təqaüdlər də təklif olunub.

Yusif Yaqubov Bakı şəhərindəki Fizika-Riyaziyyat Təmayüllü Liseydə təhsil alıb. O, dəfələrlə riyaziyyat üzrə respublika fənn olimpiadalarının qalibi olub.

SAT imtahanından 1560, IELTS imtahanından isə 7.0 bal toplayan Yusiflə görüşdük. O, uşaqlıqdan maraq göstərdiyi riyaziyyat sahəsində inkişaf etmək istədiyini bildirdi. Dedi ki, həm təhsil almaq, həm də yeni mühitlə tanış olmaq üçün Böyük Britaniyanın Edinburq Universitetini seçməyi düşünür. Yusif yaxın günlərdə xaricdə təhsil almaq məqsədilə Dövlət Proqramına müraciət etməyi planlaşdırır.

Gənc istedadın əsas arzusu riyaziyyat elmini beynəlxalq səviyyədə inkişaf etdirmək, gələcəkdə Azərbaycanda dünya səviyyəli təhsil mərkəzi açaraq gənclərə elmi biliklər aşılamaqdır.

*Mikayıl NƏRİMANOĞLU,*
*XQ-nin bölgə müxbiri*

HAVA

## Bakıda yağmursuz, dağlıq və dağətəyi rayonlarda yağış, dolu...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 17-19, gündüz 27-32 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.**

Azərbaycanın əsasən dağlıq və dağətəyi rayonlarında hava şəraitinin fasilələrlə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-20, gündüz 28-33, dağlarda gecə 8-13, gündüz 15-20, bəzi yerlərdə 23-27 dərəcə isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*



✓ *2020-ci ildə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası tərəfindən Xanbabayeva Sayat Firdovsi qızının adına verilmiş C seriyalı, 069687 nömrəli diplomun əlavəsi itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Milli Konservatoriyasının kollektivi muğam kafedrasının müəllimi Mirələm Mirələmova atası

**FƏRMANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3186
SİFARİŞ 726
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00